*Fizuli İbrahimzadə*



# BEHBUD AĞA ŞAHTAXTİNSKİNİN SİYASİ VƏ DİPLOMATİK FƏALİYYƏTİ



BEHBUD AĞA ŞAHTAXTİNSKİ

63.3(2Az)
/18

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ

FİZULİ İBRAHİMZADƏ

# BEHBUD AĞA ŞAHTAXTİNSKİNİN SİYASİ VƏ DİPLOMATİK FƏALİYYƏTİ

104704

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

BAKI - 2007

İ b r a h i m z a d ə F.Z. Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti. RDS — Nəşriyyat — Poliqrafiya Müəssisəsi, Bakı, 2007, 232 s.

*Monoqrafiyada XX əsrin əvvəllərində Azərbaycanın siyasi və diplomatiya tarixində böyük rol oynamış Behbud ağa Şahtaxtinskinin həyat və fəaliyyəti, ədəbi və publisistik irsi, ictimai-siyasi baxışları elmi obyektivliklə araşdırılaraq problemlər kontekstində öz əksini tapmışdır. Monoqrafiyada ilk dəfə olaraq Azərbaycanın əzəli torpaqlarının, ilk növbədə Naxçıvan diyarının bu gün də xalqımıza məxsus olmasında Behbud ağa Şahtaxtinskinin misilsiz xidmətləri konkret elmi faktlar və arxiv materialları əsasında tədqiq olunmuşdur.*

*Kitab elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulur.*

# GIRIŞ

Azərbaycan milli dövlətçiliyinin tarixi təcrübəsinin tədqiqi müasir tarix elminin qarşısında duran ən ümdə vəzifələrdəndir. Bu vəzifə müstəqil Azərbaycan Respublikasının təşəkkül və inkişaf tapdığı müasir tarixi dövrlə birbaşa əlaqədardır. Son illər milli mənlik şüurunun artması, özünüdərk prosesinin fəallaşması, demokratik mühitin yaranması tarixin milli-azadlıq və demokratik hərəkat mərhələlərinə diqqəti xeyli artırmışdır. Bu diqqət öz ciddiliyi, daha artıq təfərrüatına varmaq səyi ilə XX yüzilliyin ilk rübünə, geniş siyasi, ictimai, demokratik hərəkat və cərəyanlar tarixi kimi dolğun bir dövrə yönəlmişdir. Siyasi məzmunu - müvafiq fikir və cərəyanların təşəkkülü, icrası, bərpası, yeni mahiyyətdə təzahürü baxımından müasir nəsil üçün örnək olan XX əsrin əvvəlindəki Azərbaycan cəmiyyəti müxtəlif aspektlərdən tədqiq edilsə də, milli şüurun yetkin daşıyıcısı kimi Azərbaycan xalqının tarixini kompleks şəkildə araşdırmağa ehtiyac vardır. Qədim, çoxəsrlik ənənəsi olsa da, Azərbaycan cəmiyyətinin dövlətçilik baxımından sivil formasını tapdığı, sosial quruluş təzadları şəraitində yaşadığı XX əsr tarixi aktuallığı baxımından gələcəkdə tədqıqatçıların belə axtarış istinadına çevriləcəkdir.

Rusiyada 1917-ci il Fevral inqilabı nəticəsində mütləqiyyət üsul-idarəsinə son qoyulması demokratiyanın inkişafı üçün əlverişli imkanlar açdı. Rusiya cəmiyyətinin demokratik əsaslar üzərində

qurulucağına artan ümid Rusiya imperiyasında əsarət altında yaşayan xalqların həyatında da xeyli canlanma yaratmış, onların öz müqəddəratını təyin etməsi uğrunda fəal mübarizəyə qoşulmasına ciddi təsir göstərmişdi. Rusiyada 1917-ci il Fevral inqilabının indiyədək bilərəkdən açılmamış bir çox qaranlıq səhifələri öyrənildikcə daha çox aydın olur ki, məhz Fevral inqilabından sonra dünyanın ən nəhəng imperiyalarından birində məzlum xalqlar bir qədər sərbəst nəfəs almaq, ilk dəfə olaraq özlərini əsil mənada azad insan kimi dərk etmək üçün müəyyən imkanlar qazanmışdılar. Əlbəttə, hadisələrin sonrakı gedişi göstərdi ki, bir çox məsələlər özlərinin milli hüquqları uğrunda mübarizəyə qalxan xalqların həmin mübarizəyə nə səviyyədə hazır olmasından xeyli dərəcədə asılı olmuşdur. Yəni demokratik rejimin cücərtiləri şəraitində milli mənlik şüurunu dərk etmiş xalqlar daha böyük müvəffəqiyyətlər əldə etmiş olurdular. Əgər bu gün müstəqil Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsini təşkil edən Naxçıvan Muxtar Respublikası inkaredilməz bir gerçəklikdirsə, bunlar məhz ona görə mümkün olmuşdur ki, Azərbaycan xalqı da vaxtilə Rusiya imperiyasının dağılması ilə başlanğıcı qoyulmuş nəhəng ictimai və siyasi hadisələrin fəal iştirakçısına çevrilə bilmişdir.

Hətta 1917-ci ilin oktyabrında çevriliş yolu ilə hakimiyyətə gələn bolşeviklər, iradələri əksinə olsa belə, xalqların öz müqəddəratını təyin etməsi hüququna ciddi əhəmiyyət verməyə məcbur olmuşlar.

Çünki onlar bilirdilər ki, çoxluğun deyil, azlığın iradəsi ilə, demokratik prinsiplər əsasında deyil, çevriliş yolu ilə hakimiyyətə gəlmişlər. İlk vaxtlar, hakimiyyətdə möhkəmlənmək, yalan, məst-edici vədlər verməklə, başqa ad altında dağılmış imperiyanı əvvəlki sərhədlərində bərpa etmək üçün onlara çoxluq təşkil edən qeyri-rus xalqların rəğbət və etimadı lazımdır. Elə onların hakimiyyətdə qalacaqları təqdirdə milli məsələni həll edəcəkləri barədə verdikləri vədlər, yeni yaradılacaq ittifaq dövlətində bütün millətlərin bərabər hüquqlu olacağı, hər bir xalqın dilinə, dininə, mədəniyyətinə hörmətlə yanaşılacağı barədə söylədikləri xoş sözlər də daha çox təbliğat məqsədi güdür, xüsusən sovet hakimiyyətinin ilk illərində bolşeviklər üçün zəruri olan həmin etimadın qazanılmasına xidmət edirdi. O dövrdə yaradılmış çoxlu milli dövlət ərazi vahidləri (muxtar respublika, muxtar vilayət və s.) məhz həmin məqsədyönlü siyasət naminə həyata keçirilmişdi.

Azərbaycanın mürəkkəb, dolaşıq, eyni zamanda çox əhəmiyyətli dövrü sayılan XX əsrin ilk rübü yalnız zəngin ictimai-siyasi hadisələrlə deyil, həm də bu hadisələrin Azərbaycan xalqının və dövlətçiliyinin ən mühüm məsələlərini həll etməli olan şəxsiyyətlərinin taleyi və münasibətləri baxımından da böyük maraq kəsb edir. Biz bununla təsəlli tapırıq ki, bu dövrdə Azərbaycanın siyasi səhnəsinə çıxan şəxsiyyətlər istər öz ictimai-siyasi görüşləri, istər mənəvi-əxlaqi keyfiyyətləri ilə bir-birindən nə qədər fərqlənsələr də, onların hamısını bir məqsəd, bir amal birləşdirirdi:

Azərbaycanın taleyi, xalqın xoşbəxtliyi. Siyasi burulğanlar əsri olan XX əsrin ən böyük paradokslarından biri də onda idi ki, bu amala çatmağın son dərəcə müxtəlif, ziddiyyətli yollarını təklif edən, mənsub olduqları xalqın azadlığı və səadəti üçün dərin şəxsi məsuliyyət hissi duyan və bütün varlığı, qəlbi ilə xalqa xidmət etmək istəyən bu şəxsiyyətlərin fəaliyyəti öz dövründə obyektiv qiymətini ala bilməmiş, qərəzli qiymətləndirilmişdir.

Bu baxımdan Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin aşağıdakı fikirləri diqqətəlayiqdir: «Bu gün biz keçmişdə Azərbaycanın müqəddaratının həll olunduğu dövrdə Azərbaycanın milli mənafelərini qoruyanların fəaliyyətinə böyük məmmuniyyət hissi ilə yüksək qiymət verərək deyə bilərik ki, çox sədaqətli, vətənpərvər insanlar da olubdur. Onların fədakarlığı, vətənpərvərliyi nəticəsində Naxçıvan Muxtar Respublikası qorunub saxlanılıbdır. Azərbaycanın o vaxtkı fədakar insanları Azərbaycanın qorunub saxlanılması üçün nə qədər mübarizə aparıblar. Biz bunu heç vaxt unutmamalıyıq. Səhvlər də olubdur, həmin səhvlərə görə biz böyük itkilər də vermişik. Ancaq böyük uğurlar, nailiyyətlər də olubdur. Bunlardan biri də Naxçıvana aid olan Moskva və Qars müqavilələridir və bunlar üçün çalışan, onları əldə edən Azərbaycan Respublikasının o vaxtkı rəhbərləri olublar»[1]
Azərbaycan tarixin hər hansı şərti zaman bölgüsündə cəmiyyəti yönəltməyə qadir şəxsiyyətlərdən xali olmayıbdır. XX əsrin I rübündə, Şimali Azərbaycanda

yüksək zəka, mənəviyyat sahibi olan ziyalılar nəsli formalaşmışdı. Maarifçi, publisist, siyasi xadim, diplomat kimi geniş fəaliyyəti ilə məşhurlaşıb cəmiyyətdə nüfuz sahibinə çevrilmiş Behbud ağa Şahtaxtinski də belə maraqlı tarixi şəxsiyyətlərdəndir. Onun siyasi fəaliyyətinin tədqiqi ilk öncə ona görə aktualdır ki, onun fəaliyyəti bilavasitə Azərbaycanda Sovet dövlət quruculuğunun yaranması tarixinin tədqiqi ilə sıx surətdə bağlıdır. Azərbaycan SSR Xalq Ədliyyə Komissarı, Naxçıvan diyarı Qaçqınlar Komitəsinin sədri, Azərbaycanın Sovet Rusiyasında Fövqəladə və Səlahiyyətli nümayəndəsi, Moskva və Qars müqavilələrinin imzalanmasında Azərbaycanın təmsilçisi, Naxçıvan SSR Xalq Komissarları Sovetinin sədri kimi B.Şahtaxtinskinin fəaliyyəti Azərbaycanın dövlətçilik tarixinin ayrılmaz bir hissəsidir. Siyasi-diplomatik mübarizə səhnəsində Azərbaycanın əzəli torpaqlarının qorunması, xüsusilə Naxçıvan diyarının Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmasında mühüm mərhələ olan Moskva və Qars müqavilələrinin bağlanmasında B.Şahtaxtinskinin misilsiz xidmətləri olub. Kommunist Internasionalının II konqresinin nümayəndəsi olmuş Behbud ağanın Azərbaycan xalqı qarşısında ən böyük xidməti odur ki, onun ciddi səyi və gərgin mübarizəsi nəticəsində Naxçıvan diyarı Ermənistana verilməmiş, Azərbaycanın tərkibində saxlanılmışdır.

Fəaliyyəti siyasi məzmun daşımış tarixi şəxsiyyətlərə münasibətin birmənalı olmaması təbiidir.

XX yüzilliyin birinci rübündə mürəkkəb və rəngarəng ictimai-siyasi həyat yaşamış Azərbaycan cəmiyyətinin üzdə olan fiqurlarından biri kimi B.Şahtaxtinskinin siyasi irsinin tədqiqi yaşadığı dövrün, mühitin kontekstində araşdırılmalıdır.

Məlumdur ki, keçmişin dərslərini bilmək bu gün və gələcəkdə səhvləri buraxmamağa imkan verir. Bu gün Vətən tarixinin yenidən dərk edilməsi, müstəqil Azərbaycan tarixşünaslığının formalaşması şəraitində Azərbaycanın XX əsrdə keçdiyi yola yaşadığımız dövrün tələblərinə cavab verən baxışın üzə çıxması üçün əlverişli imkan yaranıb. Bu baxış problemlərin elmə zidd qoyuluşundan uzaq olmalı, Azərbaycan tarixindəki respublika dövlətçiliyinin yaranması dövründə o böyük və eyni zamanda ziddiyyətli, çətinliklər və iztirablarla dolu tarixi zəmanədə yaşayıb-yaratmış bir azərbaycanlılar nəslinin əldə etdiyi müsbət və mənfi təcrübəni düzgün dəyərləndirməli və əks etdirməlidir.

Müasir Azərbaycan Respublikasında mövcud problemlərin, başlıcası isə ərazi probleminin kökləri Azərbaycan SSR dövrünə qədər getdiyindən, həm ərazi, həmçinin xarici siyasətdə Rusiya və Şərq ölkələri ilə əlaqələrə münasibət məsələsi Behbud ağa Şahtaxtinskinin fəaliyyəti ilə sıx bağlı olduğundan, onların yaranma tarixini təhlil etmək olduqca vacib və aktualdır.

B.Şahtaxtinskinin siyasi fəaliyyətinin tədqiqi bir də ona görə vacibdir ki, xalq tarixi sınaqla üz-üzə

dayandıqda, tarixi şəxsiyyətlərin mirasından düzgün bəhrələnə bilsin. Tarixi keçmişimizi, dövlət xadimlərimizin xalqın taleyi üçün həlledici məqamlarda tutduqları mövqeyi aydınlığa çıxartmaq zəruriliyi yalnız obyektiv qiymət tələb edir.

Yuxarıda qeyd olunanlar göstərir ki, B.Şahtaxtinskinin siyasi irsinin elmi obyektivliklə araşdırılması olduqca aktual xarakter daşıyır.

Tədqiqat obyektinə B.Şahtaxtinskinin ictimai-siyasi baxışları, siyasi-diplomatik fəaliyyətinin müxtəlif sahələrini əhatə edən faktiki materialları və çoxşaxəli əsərləri əsasında araşdıralması daxildir.

Tədqiqat obyektində Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq B.Şahtaxtinskinin timsalında mürəkkəb coğrafi-siyasi şəraitdə müxtəlif mənafelərin üz-üzə gəldiyi bir məkanda tarixi şəxsiyyətlərin uzaqgörənliyi, onların siyasi-dipomatik bacarığını, milli maraqlarla partiya — dövlət maraqlarını uzlaşdırmaq qabiliyyətinin nə qədər önəmli əhəmiyyətə malik olması əsaslandırılmışdır. Həmçinin kitabda müasir baxışla sovet gerçəkliyinin qarşılaşdırılmasından əmələ gələn təzadlar müəllifin analitik təhlil obyekti olmuşdur.

Ilk əvvəl qeyd edilməlidir ki, Azərbaycan və xarici tarixşünaslıqda B.Şahtaxtinskinin həyatı, o cümlədən siyasi fəaliyyəti çox az tədqiq edilib. Bu görkəmli şəxsiyyətin taleyinə həsr olunmuş ayrıca elmi əsər, ümumiyyətlə, indiyə qədər yazılmayıb. Məhz buna görə təqdim olunmuş monoqrafiya konkret olaraq B.Şahtaxtinskiyə həsr edilmiş ilk elmi əsər sayıla bilər.

Sovet tarixşünaslığında XX əsrin əvvəllərində baş vermiş siyasi proseslərə,ələlxüsus Rusiyada Fevral və Oktyabr inqilabları və onların nəticələrinə çoxsaylı əsərlər həsr olunmuşdur. Lakin bizim mövzumuza birbaşa aid edilmədiyinə görə bu əsərlərin təhlilini verməyi məqsədəuyğun hesab etmirik, xüsusən ona görə ki, bu vəzifə müasir Azərbaycan tarixşünaslığında artıq öz geniş əksini tapmışdır. Bununla belə, monoqrafiyada konkret istifadə edildiklərinə görə «Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri», «Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübarizlər», «Lenin milli siyasətinin yetirməsi» adlı əsərləri, həmçinin T.Ə.Əhmədovun, Z.İ.Ibrahimovun, Q.Ə.Mədətovun, X.N.Vəzirovun və Ə.N.Qədimovun əsərlərini qeyd etməliyik. Bu əsərlər kommunist ideologiyası prizmasından yazılmalarına baxmayaraq, faktoloji zənginliyə görə bu gün də müəyyən elmi əhəmiyyətə malikdirlər.

Adı çəkilən əsərlərdə B.Şahtaxtinskinin həyatı, ictimai-siyasi, diplomatik fəaliyyətinin bəzi məqamları araşdırılan mövzu və problemlər kontekstində öz əksini tapmışdır. Bu baxımdan sovet tarixçiləri arasında M.S.İskəndərovun monoqrafiyası xüsusi diqqətə layiqdir. Monoqrafiyada B.Şahtaxtinskinin fəaliyyətini bilavasitə özündə əks etdirən materiallar, o cümlədən onun «Hümmət»in üzvü kimi 1917-1918-ci illərdə Bakıdakı fəaliyyəti, xüsusən Sovet hakimiyyəti qurulduqdan sonra onun diplomatik fəaliyyəti (birinci növbədə Rusiya ilə

münasibətlərin qurulması sahəsində xidmətləri) işıqlandırılmışdır.

Ümumiyyətlə, sovet tarixşünaslığında B.Şahtaxtinskinin həyatı və fəaliyyəti ilə bilavasitə bağlı əsərlər, əsasən, Azərbaycanın 1920-1922-ci illər xarici siyasəti və beynəlxalq əlaqələrinə həsr edilmiş əsərlərdir. Bu əsərlərdə B.Şahtaxtinskinin həyatının mühüm mərhələsini təşkil edən diplomatik fəaliyyəti daha çox sovet-Türkiyə münasibətləri kontekstində işıqlandırılır. Düzdür, bu əsərlərdə əsasən türk xalqına sovet yardımından, imperializmə qarşı mübarizədən bəhs edilmiş, faktlar və rəqəmlər yalnız sovet rejiminin mənafeyinə uyğun götürülmüş, sovet Azərbaycanın siyasi liderlərinin xidmətləri sovet diplomatiyasının obyektiv düşünülmüş və ədalətli siyasətinin uğuru kimi qiymətləndirilmişdir. Təbliğat xarakteri daşımasına və birtərəfli olmalarına baxmayaraq, bu əsərlər faktik materialların dolğunluğu baxımından faydalıdır.

1920-1922-ci illər sovet-Türkiyə münasibətlərinə həsr edilmiş bir sıra əsərlərdə də, B.Şahtaxtinskinin bilavasitə iştirak etdiyi hadisələr (xüsusən Moskva və Qars müqavilələri) işıqlandırılmışdır.

Xüsusən, A.D.Novicevin (Турция. Краткая история. Москва, Наука, 1965, 240 с.) kitabında Rusiya-Türkiyə müqavilələri, Türkiyə və Zaqafqaziya Respublikaları arasında bağlanmış müqavilələr geniş təhlil edilmişdir.

Monoqrafiyanın yazılmasında Türkiyə tarixşünaslığından, türk dilində olan əsərlərdən, sənəd və materiallardan da istifadə edilmişdir.

1990-cı illərin əvvəllərində Azərbaycanın öz müstəqilliyini bərpa etməsi ilə əlaqədar olaraq, Azərbaycan tarixşünaslığında da yeni mərhələ başlandı. Siyasi mühitin liberallaşdırılması, demokratik proseslərin cərəyan etməsi arxivlərdə gizli saxlanılan bir sıra materialların tədqiqata cəlb edilməsinə şərait yaratdı. Bunun nəticəsində totalitar ideologiyanın təzyiqinə məruz qalmış əsərlər meydana çıxdı. Onların içində B.Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyətinə birbaşa və ya dolayısı ilə həsr olunanlar da var. Bu baxımdan müasir tarixşünaslığımızda bizi maraqlandıran əsərlər içində I.M.Musayevin, M.C.Qasımovun, F.Ə.Əhmədovanın, S.N.Sadıqovun, I.M.Hacıyevin, Ə.İ.Əliyevin, I.Ə. Həbibbəylinin və E.Y.Mədətlinin əsərlərini xüsusilə qeyd etməliyik.

Göstərilən müəlliflərdən İ.M.Musayevin, M.C.Qasımovun, İ.M.Hacıyevin əsərlərində B.Şahtaxtinskinin 1920-1922-ci illərdə gərgin diplomatik fəaliyyətinin bir sıra mühüm məqamları, xüsusən onun Naxçıvanın statusu, bölgə üzərində Azərbaycanın suverenliyinin təmin edilməsi üçün göstərdiyi səylər geniş material əsasında təhlil edilmişdir. Adı çəkilən əsərlərlə yanaşı tədqiqat işində mövzuya bu və ya digər dərəcədə bağlı olan bir çox ədəbiyyatdan da istifadə edilmişdir.

Tədqiqatın əsas məqsədi B.Şahtaxtinskinin siyasi fəaliyyətini elmi əsaslarla, tarixilik və obyektivlik prinsiplərinə əməl edərək işıqlandırmaqdan ibarətdir. Kitabda məqsəddən irəli gələn aşağıdakı vəzifələrin həllinə cəhd edilmişdir:

- B.Şahtaxtinskinin Azərbaycanın siyasi həyatına daxil olma mərhələlərini araşdırmaq;

- B.Şahtaxtinskinin ictimai və publisistik fəaliyyətini təhlil etmək;

- Azərbaycanda sovet quruculuğu məsələsinə B.Şahtaxtinskinin münasıbətini müəyyənləşdirmək;

- Aprel çevrilişindən sonrakı siyasi proseslərin gedişatında B.Şahtaxtinskinin rolunu aşkar etmək;

- Sovet sisteminin tətbiqi prosesində B.Şahtaxtinskinin Azərbaycanda, o cümlədən Naxçıvanda, yeni hakimiyyət quruculuğu zəminində fəaliyyətini tədqiq etmək;

- Azərbaycanın müstəqilliyi, mərkəzi hakimiyyət və yerli idarəçilik, iqtısadi və siyasi amilin uzlaşma nisbətində, mülki, hərbi hakimiyyətin toqquşması zəmınində yaranmış ziddiyyətlərin mahiyyətini açıqlamaq, bu proseslərdə B.Şahtaxtinskinin mövqeyi və rolunu tədqiq etmək;

- Azərbaycanın ərazi bütövlüyü ilə bağlı problemlərin həll olunmasında B.Şahtaxtinskinin rolunu müəyyənləşdirmək;

- Sovet Azərbaycanı ilə qonşu ölkələr arasında münasibətlərin inkişafına B.Şahtaxtinskinin təsirini araşdırmaq;

- B.Şahtaxtinskinin diplomatik fəaliyyətində Rusiya və Şərq amillərinə əhəmiyyət verməsinin səbəbini və məqsədini öyrənmək;

- B.Şahtaxtinskinin vahid Zaqafqaziya dövlətçiliyi sistemində oynadığı rolu işıqlandırmaq;

- B.Şahtaxtinskinin bir siyasi və dövlət xadimi kimi siyasi səhnədən və nəticədə həyatdan getməsinin səbəblərini üzə çıxarmaq.

Monoqrafiyanın qarşısında duran məqsəd və vəzifələri yerinə yetirmək üçün bəzi mənbələrə tənqidi yanaşılmış, elmi nəticələr əldə etmək üçün məntiqi təhlil və müqayisə metodundan istifadə olunmuşdur. Mövcud versiyaların mənbə, rəsmi məlumat və müxtəlif ədəbiyyat əsasında müqayisəli təhlili həqiqi mülahizənin müəyyənləşdirilməsi vasitəsi seçilmişdir. Bu zaman şəxsiyyətin fəaliyyəti ümumi tarixi kontekstdən ayrılmadan araşdırılmışdır.

Tarixi prosesdə şəxsiyyətin rolunun, siyasi fəaliyyətinin tədqiq edilməsində obyektivlik və tarixilik prinsiplərinə üstünlük verilmişdir.

Kitabın yazılmasında müxtəlif mənbələrdən istifadə edilmişdir. B.Şahtaxtinskinin həyat və fəaliyyətini özündə əks etdirən mənbələri bir neçə qrupa bölmək mümkündür:

Qeyd edildiyi kimi, B.Şahtaxtinski haqqında ayrıca əsər olmadığından onun həyatının əsas mərhələlərini öyrənmək üçün əsasən arxiv sənədlərinə və materiallarına müraciət edilmişdir. Belə sənədlər Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinin müvafiq fondlarında (1;12; 169;276;456; 609) saxlanılır. Həmin sənədlər sırasında Azərbaycan KP MK Siyasi Bürosunun və Təşkilat Bürosunun, digər partiya orqanlarının sənədləri çox əhəmiyyətlidir. Əhəmiyyətinə və genişliyinə görə həmin arxivdəki B.Şahtaxtinskinin şəxsi fondu xüsusi diqqətə layiqdir. Həmin fondlarda saxlanılan bir çox sənədlər həm onun ictimai fəaliyyətini, həm də şəxsi həyatını öyrənmək baxımından çox faydalıdır. Sənədlər içərisində B.Şahtaxtinskinin öz əli ilə

yazdığı tərcümeyi-hallar, izahatlar, müraciətlər əvəz¬siz tarixi mənbələrdir.

B.Şahtaxtinskinin siyasi fəaliyyətinin mühüm dövrünü və istiqamətini onun diplomatik fəaliyyəti və xalq komissarı kimi Sovet icra strukturlarındakı fəaliyyəti təşkil edir. Bu baxımdan Azərbaycan Respublikası Dövlət Arxivinin 28-ci fondu (Azərbaycan SSR XXİK-nın fondu) və 410-cu fondu (Azərbaycan XKS-nin fondu) mühüm əhəmiyyət daşıyır.

B.Şahtaxtinskinin Naxçıvanda fəaliyyət göstərdiyi dövrü öyrənmək baxımından Naxçıvan MR Dövlət Arxivinin fondlarındakı (2; 45; 63; 314; 613) mate¬riallar da tədqiq edilmişdir.

B.Şahtaxtinskinin həyat və fəaliyyətini, onun ictimai-siyasi görüşlərini əks etdirən arxiv materialları ilə yanaşı, biz onun ədəbi və publisistik irsinə, dövri mətbuatda çıxmış məqalə, felyeton və məktublarına müraciət etmiş və onları təhlil süzgəcindən keçirmişik. Onun Sovet hakimiyyətinin ilk illərində Azərbay¬canda baş verən siyasi proseslərə, Rusiyanın Şərq siyasətinə münasibətini öyrən¬mək baxımından bir sıra dövlət xadimlərinə (V.İ.Lenin, İ.V.Stalin, N.N.Kres¬tinski, S.M. Kirov, G.V.Çiçerin, N.N.Nərimanov və b.) yazdığı məktub¬ların əvəzsiz əhəmiyyəti vardır.

Azərbaycan Kommunist Partiyasının, Sovet hökumətinin sənədləri B.Şah¬taxtinskinin də həyata keçirilməsində bilavasitə iştirak etdiyi daxili və xarici siyasətin vəziyyətini və mahiyyətini öyrənməkdə mühüm mənbədir. Bura¬ya Azər¬baycan Kommunist Partiyasının qərarları, Azərbaycan İnqilab Komitə¬

sinin dekretləri, bolşevik hökumətinin sərəncam və göstərişlərinin toplandığı külliyyatlar daxildir. Bu qrup mənbələr sırasına həmçinin Sovet dövlətinin 1920-1922-ci illərdə xarici dövlətlərlə bağladığı müqavilələrin və sazişlərin toplandığı sənədlər külliyyatları daxildir.

Dövrün bolşevik liderlərinin əsərlərində B.Şahtaxtinskinin fəaliyyəti, şəxsiyyəti ilə bağlı bir sıra maraqlı məqamlar vardır. N.Nərimanovun, S.Orconikidzenin, G.Çiçerinin, Q.Camalbəyovun və b. xatirələrinin və əsərlərinin tənqidi təhlili B.Şahtaxtinski ilə bağlı müəyyən məsələlərə aydınlıq gətirməyə imkan verir. Xüsusən N.Nərimanovun B.Şahtaxtinski ilə münasibətlərinin köklərini araşdırmaq üçün onun məşhur məktubları xüsusi diqqət tələb edir.

B.Şahtaxtinski ilə bağlı müəyyən məlumatlar Türkiyənin hərbi, dövlət və siyasi xadimlərinin əsərlərində vardır. Bu baxımdan Mustafa Kamal Atatürkün, doktor Rza Nurun, Kazım Qarabəkir Paşanın xatirələrində, İsmayıl Soysalın kitabında əhəmiyyətli materiallar toplanmışdır.

Problemi araşdırmaq üçün mühüm mənbə dövri mətbuat materiallarıdır. Lakin Sovet mətbuatına xas olan ideologiyalaşma, təbliğatçılıq, birtərəflik bu materiallara bir qədər tənqidi yanaşmağı tələb edir. Onların əksinə, arxiv fondlarında «tamamilə məxfi» qrifi ilə saxlanılan sənədlər real vəziyyəti daha düzgün əks etdirir. Buna görə də dövri mətbuatın materialları arxiv sənədləri ilə müqayisə edilərək elmi tədqiqata daxil edilmişdir.

Moskva və Tiflis arxivlərindən gətirilərək ARSPİHDA-nin sürət fondlarında saxlanılan Azərbaycanla bağlı materiallar, xüsusən, Sov.İKP MK Ümumi şöbəsinin bir sıra materialları da əhəmiyyətli hesab edilmişdir. Bu sənədlər aprel işğalından sonrakı dövrdə Rusiyanın Azərbaycana qarşı yeritdiyi siyasətin mahiyyətini dərk etməyə imkan verir (fondlar: 1; 276; 609).

B.Şahtaxtinskinin həyat yolu və siyasi fəaliyyəti tarixşünaslıqda demək olar ki, tədqiq edilmədiyindən onun adı ilə bağlı bir çox mənbələr, arxiv materialları ilk dəfə olaraq elmi dövriyyəyə buraxılır.

Kitabda göstərilən və istifadə edilən bütün mənbələr mövzunu əhatəli tədqiq etməyə yardım göstərmişdir.

Monoqrafiyada ilk dəfə olaraq B.Şahtaxtinskinin siyasi fəaliyyəti və bununla bağlı motivlər araşdırılmış, onun mövqeyi tarixi həqiqətlər və elmi faktlar əsasında qiymətləndirilmişdir.

Tədqiqat işi indiyədək məxfi saxlanılan bəzi gerçəklikləri açmaqla elmi və tarixi zəmində B.Şahtaxtinskini siyasi xadim kimi səciyyələndirir.

Əsərdə ilk dəfə olaraq B.Şahtaxtinskinin ictimai xadim, peşəkar siyasətçi kimi yetişməsinə təsir edən iqtisadi, siyasi, mədəni mühit işıqlandırılmışdır.

B.Şahtaxtinskinin zəngin ictimai-siyasi baxışları, dünyagörüşü təhlilə cəlb edilmiş, onun siyasi baxışlarının təkamülü, fəaliyyətinin əsas mərhələləri nəzərdən keçirilmişdir.

104704
... adına
Naxçıvan M... Respublika
KİTABXANASI

B.Şahtaxtinskinin ali hakimiyyət orqanlarındakı olan fəaliyyəti dövründə hakimiyyətin siyasi-iqtisadi, inzibati, hüquqi əsaslarının möhkəmləndirilməsi konsepsiyasının formalaşması araşdırılmışdır.

Tədqiqatın nəticələrindən:

— Azərbaycanın, o cümlədən Naxçıvanın tarixi və keçmiş SSRİ məkanında sovet quruluşu haqqında siyasi tarix üzrə tədqiqatların aparılmasında;

— tədris prosesində XX əsrin əvvəllərinə dair materialların öyrənilməsində;

— təbliğat-mühazirə xarakterli siyasi-maarifçi fəaliyyətdə, habelə tarixdə şəxsiyyətin rolunun işıqlandırılması, tarixi proseslərdə lider amilinin müəyyənləşdirilməsi ilə bağlı nəzəri məsələlərdə örnək kimi istifadə oluna bilər.

# I FƏSIL
# BEHBUD AĞA ŞAHTAXTINSKININ SİYASİ XADİM KİMİ FORMALAŞMASI

## § 1 Behbud ağa Şahtaxtinskinin 1920-ci ilə qədərki ictimai-siyasi fəaliyyəti

XX əsrin əvvəllərində Azərbaycan dövlətçiliyinin və xarici siyasətinin həyata keçirilməsində özünəməxsus yeri və rolu olan Behbud ağa Şahtaxtinski 1881-ci ildə Irəvan quberniyası Şərur-Dərələyəz qəzasının (indiki Naxçıvan MR Şərur rayonu) Şahtaxtı kəndində müflüsləşmiş bəy ailəsində anadan olmuş, dördsinifli kənd məktəbini bitridikdən sonra çörək pulu qazanmaq üçün Bakıya gəlmiş, burada Bakı fəhlə sinfinə daxil olaraq Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynamış, «Hümmət» təşkilatının üzvü və onun rəhbərlərindən biri olmuşdur.[2]

B.Şahtaxtinski həyatının bu dövrü haqqında öz tərcümeyi-halında xatırlayırdı: «Mən keçmiş hökumətin təsdiq etmədiyi bəy təbəqəsindən çıxmışam. Atamın on iki desyatin torpağı var idi, özü becərirdi, elə kasıb idi ki, dörd oğlu kənd məktəbindən başqa heç bir məktəbə daxil ola bilməmişdi. 1895-ci ildə «Iran» paroxodunda xidmətçi işləmişəm. 1896-cı ildə isə müxtəlif müsəlman kontor və dükanlarında qulluq etmişəm. 1907-ci ildə mən jurnalistika ilə məşğul olmağa başladım. «Baraban» jurnalını redaktə etmişəm».[3]

XX əsrin başlanğıcında Rusiyada kapitalizmin ümumi inkişafı ilə əlaqədar olaraq Azərbayacanda da kapitalist münasibətləri inkişaf etmişdir. Bakı kapitalist neft sənayesinin inkişafı nəticəsində öz mədən-zavod rayonları ilə birlikdə 266 min nəfər əhalisi olan bir şəhərə çevrilib, Rusiyada ən böyük sənaye mərkəzlərindən biri, Qafqazda isə ən iri sənaye və proletar mərkəzi olaraq, 65 min nəfərlik (1902-ci il məlumatına əsasən) proletar ordusuna çevrilmişdi.

Belə bir dövrdə B.Şahtaxtinski Bakı fəhlə sinfinin tərkibinə daxil olmuşdu. Bu zaman Bakı proletariatı çoxmillətli bir proletariat sinfi kimi təşəkkül tapmışdı və Azərbaycan neft sənayesində təmərküzləşmənin genişlənməsi Bakı proletariatının da son dərəcə təmərküzləşməsi ilə nəticələnmişdi ki, bu da Bakı fəhlə sinfinin şüuruna və inqilabi mübarizəsinə çox böyük müsbət təsir göstərən mühüm amillərdən biri olmuşdur.

Həmin dövrdə B.Şahtaxtinski Bakı dəftərxana işçi birliyinin yaranmasında və formalaşmasında fəal iştirak etmiş və bu ittifaq bağlanana qədər o, dövlət idarə işçiləri birliyi idarə heyətinin üzvü olmuşdur.[4]

O zaman Bakının neft mədənlərində və zavodlarında fəhlələrin əmək şəraiti və maddi vəziyyəti çox ağır idi. Neft çıxarılması, quyu qazılması kimi ən ağır işlərdə çalışan azərbaycanlı fəhlələrin vəziyyəti daha dözülməz idi. Onlar başqa millətlərə nisbətən ən az əmək haqqı alırdılar. Kapitalistlər və çar hakimiyyəti müxtəlif millətlərdən olan fəhlələrin əmək haqqındakı fərqdən Bakı

proletariatının sıralarını pozmaq, ixtisaslı fəhlələri ən çoxu azərbaycanlılardan ibarət olan mədən fəhlələrindən ayırmaq üçün istifadə edirdilər.

Həmin vaxtda yaşamış müəlliflərdən biri yazır: «Əmək şəraitinin dözülməz olması, qəddarcasına istismar, vəziyyətin son dərəcə ağırlığı, natəmizlik, kobudcasına rəftar - bunların hamısı Bakı fəhlələrinin tez sıradan çıxmasına səbəb olurdu».[5]

Ümumiyyətlə, cüzi əmək haqqı almaq, gün çıxandan gün batanadək işləmək, dözülməz şərait, döyülmək, söyülmək, təhqir edilmək, yarıac və səfalətli həyat sürmək Azərbaycan proletariatının nəsibi olmuşdu. Bütün bunlar B.Şahtaxtinskini bir inqilabçı demokrat kimi düşündürmüş və onun sonrakı inqilabi fəaliyyətində böyük rol oynamışdı.

1905-ci il inqilabı ərəfəsində, 1902-1904-cü illərdə Bakıda keçirilən siyasi tətillər və nümayişlər, 1903-cü ilin ümumi yay tətili, 1904-cü ildə Rusiya fəhlə hərəkatı tarxində ilk dəfə olaraq fəhlələrlə kapitalistlər arasında kollektiv müqavilə bağlanması ilə qurtarmış əzəmətli dekabr tətili və başqa inqilabi çıxışlar B.Şahtaxtinskinin proletar sinfi şüurunun, siyasi tərbiyəsinin, döyüş təcrübəsinin və inqilabi fəallığının artmasına güclü təsir etmişdir.

Azərbaycanda tətil hərəkatının xarakterik xüsusiyyəti başqa yerlərdən fərqli olaraq çox hallarda iqtisadi və siyasi tətillərin birləşməsindən ibarət idi. Tətillərin hər iki növü arasında sıx əlaqənin olması Azərbaycanda, xüsusən Bakıda fəhlə hərəkatına böyük qüvvət verirdi.[6]

Təsadüfi deyildir ki, B.Şahtaxtinski o zaman fəhlələr üçün iqtisadi əhəmiyyət kəsb edən Bakı kontor qulluqçuları ittifaqında xəzinədar işləmişdir. Eyni zamanda o, müstəqil olaraq öz üzərində işləmiş, elmi biliyini artırmış və hüquq müdafiəçisi olmuşdu.[7]

Həmin dövrdə Bakıda inqilabı fəhlə hərəkatının geniş dairədə inkişaf etməsinin həlledici səbəblərindən biri də 1904-cü ilin sonunda təşkil edilmiş, N.Nərimanovun, M.Ə.Rəsulzadənin, M.Əzizbəyovun, S.M.Əfəndiyevin, M. Mövsümovun və b. başçılıq etdikləri «Hümmət» qrupu idi. Azərbaycanlı fəhlələri inqilabi hərəkata cəlb etmək sahəsində «Hümmət» qrupu böyük iş aparırdı. «Hümmət» öz fəaliyyətində mətbuatdan da geniş istifadə edirdi. «Hümmət» qəzetinin 1-ci nömrəsi 1904-cü ilin oktyabr ayında çıxmışdı. Bu, Azərbaycan dilində ilk bolşevik fəhlə qəzeti idi.[8]

«Hümmət» qəzeti qısa müddət ərzində öz ideyaları ilə mübarizədə N.Nərımanov, M.Əzizbəyov, S.M.Əfəndiyevlə yanaşı olaraq, B.Sərdarov, H.Sultanov, D.Bünyadzadə və B.Şahtaxtinskidən ibarət peşəkar inqilabçılar dəstəsi yetişdirmişdi. Onlar Azərbaycan xalqının demokratik azadlıqlar əldə etməsinə çalışır, özbaşınalıq üsul-idarəsinin, milli məhdudiyyətlərin ləğv edilməsini, mənfur çar məmurlarının kənar edilməsini, milli hüquq bərabərliyinin təmin edilməsini, xalqa daxili özünüidarə hüququ, bərabər seçki hüququ, məktəblərdə ana dilində təhsil hüququ verilməsini tələb edir və güclü ideya təsiri altında milli-azadlıq

hərəkatının genişləndirilməsi uğrunda mübarizə aparırdılar. 1905-ci ildə «Hümmət» qəzetinin nəşri qadağan edildikdən sonra bu peşəkar inqilabçılar öz fəaliyyətlərini müxtəlif yollarla davam etdirmişlər.

B.Şahtaxtinski isə 1907-ci ildən jurnalistlika fəaliyyəti ilə məşğul olmuş, bir müddət «Baraban» jurnalının redaktoru olmaqla, müxtəlif mövzularda yazdığı publisistik məqalələri ilə dövri mətbuatda çıxış etmişdir.[9]

Onun məqalələri həmin dövrün ictimai-siyasi mühitinin öyrənilməsi üçün çox əhəmiyyətlidir.

Rusiyada 1917-ci il Fevral inqilabı geniş müsəlman kütlələrini hərəkətə gətirdi. 1917-ci il martın 3-də «müsəlman kütlələrin psixologiyasını və özünün xüsusi tarixi olduğunu» nəzərə alan bolşevik «Hümmət» partiyası öz fəaliyyətini bərpa etdi.[10]

Həmin il martın ortalarında «Hümmət» təşkilatının ümumi yığıncağında N.Nərimanov «Hümmət»in sədri seçilir. N.Nərimanovdan əlavə, «Hümmət»in rəhbər heyətinə M.Əzizbəyov, H.Sultanov, B.Sərdarov, S.M.Əfəndiyevlə birlikdə B.Şahtaxtinski də daxil olmuşdu.

«Hümmət» təşkilatının fəaliyyətini qüvvətləndirmək, azərbaycanlı fəhlələr arasında siyasi tərbiyə və inqilabi işi gücləndirmək, habelə Azərbaycan dilində ədəbiyyat və mətbuat nəşrini təşkil etmək üçün bir sıra işlər görülürdü.[11]

Bu dövrdə «Hümmət»in əsas məqsədlərindən biri də «Hümmət» qəzetinin yenidən nəşr edilməsi idi. 19 may 1917-ci ildə bolşevik partiyasının Bakı Komitəsi və «Hümmət» təşkilatı müsəlman fəhlələr

arasında işin gücləndirilməsi məsələsini müzakirə edərək Azərbaycan dilində qəzet nəşr etmək qərarına gəldi. Qəzetin adı ilə bağlı məsələ «Hümmət» komitəsində bir neçə dəfə müzakirə olunmuşdu. Bir sıra adlar - «Yoldaş», «Hümmət», «Təkamül» və b. adlar təklif olunmuşdu. Lakin komitə təşkilatın adına uyğun olaraq qəzeti də «Hümmət» adlandırmaq qərarına gəldi.

Bunun nəticəsində 1917-ci il iyulun 3-dən Bakıda yenidən 4000 nüsxədən ibarət «Hümmət» qəzeti çıxmağa başladı və qəzet qısa müddət ərzində Azərbaycanın ictimai-siyasi həyatında böyük rol oynadı. N.Nərimanovun rəhbərliyi ilə nəşr edilən qəzetin redaksiya heyətinin tərkibinə M.Əzizbəyov, S.M.Əfəndiyev, T.Şahbazi, D.Bünyadzadə, Y.Məlikov ilə birlikdə B.Şahtaxtinski də daxil idi. [12]

Qəzet əvvəlcə həftədə bir dəfə çıxırdı, sonralar o gündəlik nəşr edilməyə başladı.

«Hümmət» qəzetinin nəşrə başlaması təşkilatın fəaliyyətinin genişlənməsinə səbəb oldu. Azərbaycanın bir sıra bölgələrində, o cümlədən Naxçıvanda «Hümmət» təşkilatının şöbəsi fəaliyyətə başlamışdı.

N.Nərimanov başda olmaqla Bakı hümmətçiləri, eləcə də «Hümmət» qəzetinin redaksiya heyəti, ilk əvvəldən özlərini bolşevikpərəst elan etmişdilər, halbuki əyalətlərdəki komitələr, regionun başqa yerlərində, xüsusilə Gürcüstanda üstünlük təşkil edən menşeviklərə meyl edirdilər. B.Şahtaxtinski 1917-ci ildən həyatının sonlarına qədər inam bəslədiyi bolşevizm ideyalarına sadiq

qalmış, N.Nərimanovun ən yaxın silahdaşlarından biri olmuşdu.

Bu dövrdə digər bolşevik xadimləri kimi B.Şahtaxtinski də kütlələr içərisində fəal iş aparır, fəhlə və kəndlilər arasında məruzə və mühazirələrlə çıxış edərək cari vəziyyət, müharibə, milli məsələ və s. problemlərə dair bolşeviklərin taktika və strategiyasını onlara izah edirdi. Bu zaman B.Şahtaxtinskinin alovlu natiq və təşkilatçılıq, kütlələri inandırmaq qabiliyyəti üzə çıxır. Məhz B.Şahtaxtinski kimiləri sayəsində «Hümmət» azərbaycanlı fəhlələr arasında müəyyən nüfuz qazanmağa başlayırdı.[13]

1917-ci ilin oktyabr çevrilişindən sonra Behbud ağa Şahtaxtinskinin ictimai-siyasi fəaliyyətində yeni dövr başladı. O, Bakıda bolşeviklər partiyasının keçirdiyi tədbirlərdə yaxından iştirak edir, qəzet səhifələrində, mitinq və iclaslarda mövcud vəziyyət, bolşevizmin siyasəti ilə bağlı çıxışlar edirdi.

1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində B.Şahtaxtinskinin fəaliyyəti bilavasitə «Hümmət» təşkilatı və Bakı Sovetinin fəaliyyəti ilə qırılmaz surətdə bağlı oldu.

«Zaqafqaziya müsəlman zəhmətkeşlərinin vahid cəbhəsini təşkil etmək və müsəlman demokrat partiyalarının inqilabi ruhda olan hissəsini fəhlə-kəndli hakimiyyəti tərəfə çəkmək» üçün 1917-ci ilin dekabrın II yarısında «Hümmət» təşkilatı nümayəndələrinin və Azərbaycan sosialistləri nümayəndələrinin Bakıda qurultayı çağırılmışdı. Qurultaya «Hümmət» və «Ədalət» bolşevik

təşkilatları ilə yanaşı, menşevik «Hümmət»in də nümayəndələri qatılmışdı.

Qurultay 1917-ci il dekabrın 17-də «İsmailiyyə» binasında N.Nərimanovun nitqi ilə açılmış və 5 gün davam etmişdi. Qurultayda iştirak edən 27 nəfərdən biri də bolşevik «Hümmət»çi B.Şahtaxtinski idi. Qurultayın işgüzar rəyasət heyətinə N.Nərimanov, Abbasəli Kazımzadə, İbrahim Heydərov və b., katibliyə isə Hüseyn Fars («Ədalət»in nümayəndəsi) və B.Şahtaxtinski seçilmişdilər.[14] Qurultay cari vəziyyət, inqilabın xarakteri, fəhlə nəzarəti, torpaq və milli məsələlər, partiyanın nizamnaməsi, təşkilati məsələləri müzakirə etmiş, «Hümmət» partiyasının 18 nəfərdən ibarət Mərkəzi Komitəsini seçmişdi. MK-ya seçilənlər arasında N.Nərimanov, M.Əzizbəyov, M.İsrafilbəyov, D.Bünyadzadə, S.M.Əfəndiyev, B.Sərdarov kimi tanınmış hümmətçilərlə yanaşı, B.Şahtaxtinski də var idi. N.Nərimanov MK-nın sədri, D.Bünyadzadə isə katibi seçilmişdilər.

Qurultay Zaqafqaziya müsəlman inqilabı və demokratik partiyalarının fəaliyyətini gələcəkdə əlaqələndirmək üçün həmin partiyaların nümayəndələrindən ibarət ümumi Mərkəzi Komitə seçmişdi ki, onun da sədri S.M. Əfəndiyev idi.[15]

1918-ci il yanvarın 7-də «Hümmət» təşkilatının M.Israfilbəyov (sədr), H.Sultanov və B.Şahtaxtinski (müavinlər), D.Bünyadzadə (katib) və I.Məhəmmədzadədən (xəzinədar) ibarət yenidən seçilən Mərkəzi Komitəsi kütlələr arasında fəaliyyətini daha da genişləndirmişdi.

Bu dövrdə «Hümmət» komitəsi fəhlələr arasında yığıncaqların təşkilinə, əhali arasında məruzə və mühazirələrin aparılmasına xüsusi diqqət yetirirdi. Bu məsələ təşkilatın 31 yanvar 1918-ci il tarixli ümumi iclasında müzakirə edilmiş, mitinqlərdə çıxış edəcək natiqlərin, «Hümmət» qəzeti redaksiya heyətinin yeni üzvləri və tərcüməçiləri müəyyənləşdirilmişdi. B.Şahtaxtinski Azərbaycan və rus dillərini mükəmməl bildiyi üçün tərcüməçilər qrupuna daxil edilmişdi.[16]

1918-ci ilin martın sonları, aprelin əvvəllərində azərbaycanlıların soyqırımından sonra Bakıda hakimiyyət tamamilə bolşevik-daşnak qüvvələrindən ibarət olan Bakı Sovetinin əlinə keçmişdi. Bakı Xalq Komissarlarının hakimiyyəti dövründə B.Şahtaxtinski əsasən «Hümmət» üzvü kimi təbliğat işləri ilə məşğul olmuş, Bakı Qəzasının kəndlərində Kəndli Deputatları Sovetlərinin yaradılması işində iştirak etmişdi. Bu dövrdə Bakı Sovetinin İcraiyyə Komitəsi yanında yaradılmış «Qeyri-şəhərlər komissiyası»nın və 2 may 1918-ci ildə təşkil olunmuş Kəndli Deputatları Sovetlərinin Səyyari İcraiyyə Komitəsinin tərkibinə N.Nərimanovla birlikdə B.Şahtaxtinskinin də seçilməsi onun bu sahədəki fəaliyyətinin genişliyini sübut edir.[17]

B.Şahtaxtinskinin bilavasitə iştirakı ilə 1918-ci ilin mayında Bakı Qəzası Kəndli Deputatları Sovetlərinin I qurultayı çağırılmışdı. Qurultayda qəzanın 38500 kəndlisini təmsil edən 81 nümayəndə iştirak edirdi.

Qurultayda hakimiyyət məsələsi və yerlərdə vəziyyət haqqında məsələ müzakirə olunmuşdur.

Kəndli qurultayı axırda Bakı Qəzası Kəndli Deputatları Sovetinin 15 nəfərdən ibarət İcraiyyə Komitəsini seçdi. İcraiyyə Komitəsinin tərkibinə N.Nərimanov, M.Əzizbəyov, D.Bünyadzadə, M.Məmmədyarov, M.Axundov, Həsən Mirzəyev, A.Yusifzadə və torpaq komissarı M.H.Vəzirovla birlikdə B.Şahtaxtinski də daxil edilmişdi.[18]

Bakı Kəndli Deputatları Qurultayının qətnaməsi üzrə İcraiyyə Komitəsinin üzvləri bərabər hüquqlu deputatlar kimi yeni yaranan Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin tərkibinə daxil edilmişdi. Kəndli Deputatları Soveti İcraiyyə Komitəsinin 7 üvzü isə B.Şahtaxtinski də daxil olmaqla Bakı Soveti İcraiyyə Komitəsinin heyətinə keçirilmişdi. Burada əsas məqsəd 1918-ci il mart soyqırımından sonra Azərbaycan kəndlilərini sovet hakimiyyətinə tərəf çəkmək idi.

Bakıda və başqa yerlərdə keçirilmiş kəndli qurultayları Azərbaycanın siyasi həyatında əhəmiyyətli hadisə olub, Bakı proletariatı ilə zəhmətkeş Azərbaycan kəndliləri arasında möhkəm ittifaq yaratmağın və kəndli kütlələrini siyasi həyatda fəal iştiraka cəlb etməyin mümkün olduğunu nümayiş etdirirdi.

Bakı Xalq Komissarları Sovetinin və Bakı Soveti İcraiyyə Komitəsinin göstərişlərinə əsaslanaraq Bakı Qəza Kəndli Deputatları Soveti İcraiyyə Komitəsi və şəxsən B.Şahtaxtinski və başqa rəhbər işçilər kəndlərdə yaranan sovet hakimiyyəti orqanlarının işini dürüst-düzgün təşkil etməyə ciddi səy göstərərək, öz əməli fəaliyyətləri ilə kəndli

sovetlərinin canlanıb qüvvətlənməsinə yaxından yardım edirdilər.

Həmin dövrdə Azərbaycan kəndliləri arasında bolşevik işinin ağırlığı əsasən M.Əzizbəyov, M.İsrafilbəyov, H.Sultanov, M.Məmmədyarov, B.Sərdarovla birlikdə B.Şahtaxtinskinin üzərinə düşürdü. Onlar zəhmətkeş kəndliləri sovet hakimiyyəti ətrafında birləşdirmək üçün fədakarcasına çalışırdılar. Lakin bolşeviklərin bu fəaliyyəti Bakı ətrafındakı qəzalardan kənara çıxmırdı, ayrı-ayrı qəzalarda olan bolşevik təşkilatları və qrupları isə zəif olduqlarından kəndli kütlələrinə lazımi təsir göstərə bilmirdilər.

1918-ci ildə Azərbaycanda kəndli məsələsinin həllində nöqsanlar buraxıldığına baxmayaraq, son dərəcə ağır və gərgin bir şəraitdə zəhmətkeş kəndliləri sovet hakimiyyətinin bayrağı altında toplamaq yolunda Azərbaycan bolşeviklərinin fədakarcasına fəaliyyətinin və təcrübəsinin çox mühüm əhəmiyyəti olmuşdur ki, bu məsələlərin də həllində B.Şahtaxtinskinin rolu böyükdür.

B.Şahtaxtinskinin Bakı XKS dövründəki fəaliyyətinə «Hümmət» təşkilatındakı fəaliyyəti kontekstdən kənarda baxmaq düzgün deyildir. Bir bolşevik kimi o, Azərbaycanın gələcəyini Sovet hakimiyyətindən kənarda təsəvvür etmədiyindən Bakı XKS-nin siyasətinin həyata keçirilməsində yaxından iştirak etmiş, hətta Azərbaycan-Türk qoşunları Bakını azad etmək üçün hərbi əməliyyatlar apararkən, o bolşevik hakimiyyətini qorumaq üçün fəaliyyət göstərmişdi.

1918-ci ilin aprelində Bakı XKS yarandıqdan sonra onun aparatında işləməyə başlayan B.Şahtaxtinski əks-inqilabla mübarizə adlanan komissiyada məsul vəzifədə çalışır və sovet orqanlarını hər cür xəyanətdən çəkindirmək məqsədilə qulluq sahiblərinin rüşvətxorluğu və xəyanəti işi ilə ciddi məşğul olurdu.

Həmin dövrdə «Hümmət»in partiyadaxili işi getdikcə qüvvətlənirdi. «Hümmət»in Bakı təşkilatı hələ may ayında qərara almışdı ki, ətraf kəndlərdə yerli şöbələr yaratmaq üçün nümayəndələr göndərilsin.

Bu mürəkkəb dövrdə B.Şahtaxtinski N.Nərimanovla çiyin-çiyinə çalışır, «Hümmət»in işində fəal iştirak edərək, onun liderlərindən birinə çevrilmişdi.

1918-ci ilin iyununda «Hümmət»in lideri Nəriman Nərimanov ağır xəstələndiyindən təşkilata bilavasitə rəhbərlik etmək imkanını itirdi. Həmin ayın sonlarında o müalicə olunmaq üçün Həştərxana getmişdi. Bakı limanında N.Nərimanovu Bakı Soveti rəhbərləri S.Şaumyan, P.Çaparidze, M.Əzizbəyov, eləcə də «Hümmət»in liderləri M.İsrafilbəyov, D.Bünyadzadə, H.Sultanovla yanaşı B.Şahtaxtinski də yola salmışdı.

1918-ci il iyunun 9-da «Hümmət»in ümumi yığıncağı (konfransı) keçirildi. N.Nərimanovun xəstəliyi ilə əlaqədar konfrans təşkilatın yeni heyətini seçdi. N.Nərimanov, M.Əzizbəyov və M.İsrafilbəyov «Hümmət» təşkilatının fəxri sədrləri seçildilər. Komitənin üzvlüyünə həmçinin D.Bünyadzadə,

M.Məmmədyarov, H.Sultanov, A.Amirov, S.Hüseynov, M.H.Talıbov və B.Şahtaxtinski seçildilər.

11 iyunda yeni komitənin birinci iclasında Rəyasət Heyəti seçildi. Həmin iclasda «Hümmət» təşkilatının komitə sədrliyi B.Şahtaxtinskiyə həvalə olunmuş, sədrin müavini Bəkir Əmirov, katib-xəzinədar isə D.Bünyadzadə seçilmişdilər.[19]

B.Şahtaxtinskinin «Hümmət»in sədri seçilməsi onun bolşevik xadimləri arasında olan yüksək nüfuzundan xəbər verirdi. Təşkilata rəhbər seçilməsində heç şübhəsiz N.Nərimanovun mövqeyi də əsas rol oynamışdır. B.Şahtaxtinskinin rəhbərliyi altında «Hümmət» təşkilatı daha da böyüyüb möhkəmləndi. 1917-ci ilin oktyabrında onun sıralarında 200 nəfər üzv var idisə, 1918-ci ilin yazında onların sayı artıq 1500 nəfərə çatmışdı ki, onun da əsas hissəsini fəhlələr təşkil edirdi. Həmin fəhlələr arasında ideya-siyasi iş genişləndirilir və onların içərisindən təcrübəli kadrlar hazırlayırdılar. Bu istiqamətdə iş başlıca olaraq «Hümmət» təşkilatı vasitəsilə aparılırdı.

Bu məqsədlə 1918-ci il iyunun 29-da «Müsəlman kütləsi içərisində iş aparmaqdan ötrü şüurlu və ideyalı yoldaşlar» hazırlamaq üçün «Hümmət»in yanında təbliğatçı və təşviqatçı kursları açıldığı elan edildi. Iyulun axırlarında isə xalq universiteti azərbaycanlı dinləyiciləri qəbul etməli idi. Hətta «Hümmət»in Bakı Komitəsi B.Şahtaxtinski, D.Bünyadzadə və başqalarından ibarət (cəmi 5 nəfər) mühazirəçi ayırmışdı. Onlar ictimaiyyətşünaslığa,

coğrafiyaya, ümumi tarixə, inqilabi hərəkat tarixinə dair mühazirələr oxumalı idilər. Universitetin açılışı 1918-ci il iyulun 26-da təyin edilsə də bu, baş tutmadı.

B.Şahtaxtinskinin «Hümmət»ə başçılıq etdiyi qısa dövr ərzində Azərbaycanda bir sıra mühüm hərbi-siyasi dəyişikliklər baş verdi. Qafqaz İslam Ordusu və Azərbaycan Milli Ordusunun 1918-ci ilin iyul-avqust ayları ərzində sovet qoşunlarına qarşı apardığı uğurlu əməliyyatlar nəticəsində cəbhədə əsaslı dönüş baş verdi. Onların Bakı Kommunası üzərində bir sıra qələbələri Bakıdakı siyasi və iqtisadi böhranı daha da dərinləşdirdi.

Mürəkkəb şəraitdə B.Şahtaxtinski ən əsas diqqətini azərbaycanlı kəndlilərin onsuz da ağır olan vəziyyətinin qismən yaxşılaşdırılmasına yönəltmişdi. 1918-ci il iyulun 18-də M.Əzizbəyovun sədrliyi, B.Şahtaxtinskinin katibliyi ilə Bakı qəzası KDS-nin İcraiyyə Komitəsinin iclası keçirilmiş, burada kənddə işlərin gücləndirilməsi və kəndlilərin həyat və məişətinin yüngülləşdirilməsi və yaxşılaşdırılması ilə bağlı tədbirlər müzakirə edilmişdi.[20]

Elmi obyektivlik prinsipi tarixi şəxsiyyətlərə birtərəfli yanaşmanı, onların fəaliyyətini ya dümağ, ya da qapqara rəngə boyamağı qəbul etmir. Bütün tarixi şəxsiyyətlər kimi, B.Şahtaxtinskinin fəaliyyəti də öz zamanının şərtləri daxilində, yaşadığı prosesin içində öyrənilməlidir.

Bu baxımdan 1918-ci ilin yayı B.Şahtaxtinskinin həyatında ən dramatik və təzadlı dövrlərdən biridir.

Faktdır ki, Azərbaycan-Türk qoşunlarının təzyiqi altında Bakıda Sovet hakimiyyəti yıxılarkən

B.Şahtaxtinskinin başçılıq etdiyi hümmətçilər anti — Azərbaycan mövqeyində dayanaraq bolşevik-daşnak Bakı Sovetinin müdafiəçiləri sırasında çıxış etmişdilər.

«Hümmət»in, «Ədalət»in üzvləri azərbaycanlılar arasında çıxış edərək «bəy-xan», «müsavat», «türk» ordusuna qarşı mübarizəyə səsləyir, Bakının müxtəlif hissələrində, kəndlərdə Azərbaycan hökuməti əleyhinə mitinqlər təşkil etməyə cəhdlər göstərirdilər.

«Hümmət» qəzetinin 30 iyul 1918-ci il tarixli nömrəsində «Hümmət» və «Ədalət» kommunist təşkilatları komitələrinin birgə qərarı dərc edilmişdi. Qərarda deyilirdi ki, Ümumbakı partiya təşkilatının (RSDF(b)P-nin Bakı Komitəsi) 27 iyulda keçirilmiş konfransında qəbul edilmiş qətnaməyə görə, partiyanın bütün üzvləri bu gündən etibarən məcburi qaydada Qırmızı Ordu sıralarına daxil olmalıdırlar. Qərar «Hümmət»in və «Ədalət»in bütün üzvlərinə xəbərdarlıq edirdi ki, səfərbərlikdən yayınanlar partiya üzvləri hesab edilməyəcək və onlardan üzvülük vərəqləri (biletləri) və digər partiya sənədləri alınacaqdır. Bu qərarın altında «Ədalət»in liderləri B.Ağayevin və B.Haşımzadənin, «Hümmət»in liderləri B.Şahtaxtinski və D.Bünyadzadənin imzası qoyulmuşdu.[21]

1918-ci il iyulun sonlarında, Bakı Soveti XKS-nin istefasından sonra hakimiyyətdə «Sentrokaspi» diktaturası olarkən B.Şahtaxtinskini biz yenə də sovet qoşunlarının ön mövqelərində görürük.

1918-ci il sentyabrın 15-də Bakı şəhəri azad edildikdən sonra Azərbaycan-Türk ordusuna qarşı

silahlı müqavimət göstərmiş bir sıra insanlar, o cümlədən kommunistlər məsuliyyətə cəlb olundular (M.Məmmədyarov, M.B.Qasımov, B.Əfəndiyev, A.B.Yusifzadə və b.). Həmin günlərdə B.Şahtaxtinski həbs edilərək Gəncəyə aparılmış və orada həbsxanada yatmışdı.

B.Şahtaxtinskinin həyatının bu məqamı ilə bağlı bir çox əsərlərdə onun Bakıda həbs edilərək üç ay Gəncədə həbsxanada yatdığı barədə məlumat verilir. Bu haqda B.Şahtaxtinskinin öz əli ilə yazdığı və N.Nərimanovun təsdiq etdiyi tərcümeyi-halında bu hadisə barədə dəqiq məlumat vardır. B.Şahtaxtinski qeyd edir ki, türklərin hücumu zamanı o, Saray kəndində həbs edilmiş (burada türk qoşunları ilə Bakı Soveti qoşunlarının təmas xətti keçirdi, görünür, B.Şahtaxtinski Sovet qoşunlarının yanında idi - F.İ.) və Gəncə həbsxanasına aparılmışdı. Həbsxanada 11 gün (3 ay yox - F.İ.) qaldıqdan sonra Bakıya getmək hüququndan məhrum olunmuş və azad edilmişdi. Azad edildikdən iki ay yarım sonra ona Bakıya gələrək ailəsini götürməyə və Azərbaycanı tərk etməyə icazə verilmişdi.[22]

1918-ci il Behbud ağa Şahtaxtınskinin Azərbaycanda baş verən siyasi proseslərdə bilavasitə fəal iştirakı baxımından çox mühüm bir il idi. Bu il, ümumiyyətlə Azərbaycan üçün çox əhəmiyyətli bir dövrün başlanğıcı oldu. Məhz həmin il mayın 28-də Azərbaycan tarixində ilk dəfə olaraq respublika tipli dövlət — Azərbaycan Xalq Cümhuriyyəti meydana gəldi. Bu dövlət Azərbaycanda demokratik inkişaf yolunun bünövrəsini qoymaqla bərabər,

«Azərbaycan» məfhumunun özünü milli dövlətçilik səviyyəsinə qaldırıb, müasir beynəlxalq münasıbətlər sistemində təsdiq etdi.

Bir kommunist olaraq, B.Şahtaxtinski liberal-mühafizəkar, o dövrün dili ilə desək, burjua-demokratik dəyərləri müdafiə edən və özünü bolşevizmə qarşı qoyan Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə qarşı kəskin müxalifət mövqeyindən çıxış etdi.

1918-ci ilin dekabrında Naxçıvana gələn B.Şahtaxtinski 1920-ci ilin yayına qədər burada ağır şəraitdə yaşamış və fəaliyyət göstərmişdir. Materialların azlığı onun bu dövr fəaliyyəti haqqında dolğun təsəvvür yaratmağa imkan verməsə də, müəyyən fikirlər söyləməyə əsas verir. Naxçıvana gəldikdən sonra B.Şahtaxtinski ictimai fəaliyyətlə yanaşı, partiya işi ilə də məşğul olmuşdur.

Həmin dövrdə Naxçıvanda hakimiyyətin bölüşdürülməsi uğrunda qızğın mübarizə gedirdi. Mübarizədə üç cərəyanın fəaliyyəti diqqəti cəlb edirdi.[23]

Birinci cərəyan tərəfdarları Naxçıvanın İran ilə birləşdirilməsini tələb edirdi. Bu cərəyanın başında Cəfərqulu xan dururdu. Şərurda hakimlik etmək istəyən Tağı bəy Səfiyev də onu müdafiə edirdi. Cəfərqulu xan Maku xanı ilə olan qohumluğundan istifadə edərək onun silahlı qüvvələrinə istinad edib, ölkədə təkbaşına ağalıq etmək istəyirdi.

İkinci cərəyanın başında Xəlil bəy və Böyük xan dururdu. Bu cərəyana Şərurda Tağı bəylə rəqabət aparan və orada ağalıq etmək arzusunda olan Məşədi

Ələsgər ağa Həmzəyev başçılıq edirdi. Onların məqsədi Naxçıvanı Türkiyə hökuməti altına vermək, «Arazboyu Türk hökuməti» yaratmaq idi.

Üçüncü cərəyana Mirzəlibəy Bəktaşov, Nəcəfqulu Nəcəfov, Əhməd Əzimov daxil idilər. Bu cərəyan tərəfdarları Naxçıvan zəhmətkeşlərinin istiqlaliyyət, nicat yolunu Sovet Rusiyasında, Sovet hakimiyyətində görürdü.

Məhz, B.Şahtaxtinski üçüncü cərəyanın nümayəndələrini və onların «Hümmət»çi tərəfdarlarını öz ətrafına toplayaraq, yerli əhalinin qüvvələrini birləşdirmiş, Naxçıvanı düşdüyü ağır vəziyyətdən çıxarmağa çalışmışdı.

Belə bir şəraitdə Naxçıvanın iqtisadi və mədəni həyatı ardı-arası kəsilməyən daşnak basqınları nəticəsində ağır vəziyyətə düşmüşdü. Daşnak dəstələri rayonlarda yerli xalq qüvvələrini əzərək mərkəzə (Naxçıvana) doğru irəliləyirdi.

Bu zaman Naxçıvanda imperialist müharibəsinə qarşı aparılan təbliğat işinə Naxçıvan «Hümmət» qrupu rəhbərlik edirdi. Naxçıvan və Culfa «Hümmət» qrupunun başında Mirzəlibəy Bəktaşov, Nəcəfqulu, Əhməd Əzimovla birlikdə Hüseynağa Novruzov, Mirheydərzadə, Nəsrullah Şeyxov və başqaları dururdular.[24]

«Hümmət» qrupunun çox gərgin təqiblər şəraitində gizli şəkildə fəaliyyət göstərməsinə baxmayaraq onun təbliğatçıları kəndlilər və şəhər yoxsulları arasında geniş siyasi iş aparmaqla, B.Şahtaxtinskinin köməyi ilə Naxçıvan şəhərində yaradılan dərnəkdə Qafqazda vəziyyət və cəbhə hadisələri ilə əlaqədar aktual məsələləri də müzakirə

edirdilər. Bununla əlaqədar olaraq Tiflisdən alınan siyasi ədəbiyyat və göstərişlər də təbliğ edilirdi. O zaman «Molla Nəsrəddin» curnalının Tiflisdə yaşayan əməkdaşlarından, naxçıvanlı Eynəlibəy Sultanov və Faiq Nemanzadə gürcü demokratları arasında yaxşı tanınmaqla Naxçıvan «dərnəyi» ilə əlaqəli olmuş və lazımi məlumatlar göndərmişlər.[25]

Ümumiyyətlə, 1918-1920-ci illərdə daşnakların Naxçıvana aramsız hücumları nəticəsində bölgənin sosial-iqtisadi və mədəni həyatı ağır vəziyyətə düşmüşdü. İrəvandan, Zəngəzurdan, Vedibasardan, Dərələyəzdən qovulmuş 500 min müsəlman qaçqının böyük bir hissəsinin Naxçıvana pənah gətirməsi vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Qaçqınlar arasında aclıqdan və xəstəlikdən ölənlərin sayı on minlərlə ölçülürdü. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinski mütəmadi olaraq Naxçıvan bölgəsində qaçqınların ağır vəziyyətdə olmaları barədə Azərbaycanın DİN-nə, XİN-nə və digər hakimiyyət orqanlarına məlumat verirdi.[26]

Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəliyi tərəfindən qaçqınlara müxtəlif yardımlar, o cümlədən pul yardımları edilirdi. M.Təkinski Naxçıvanda yerləşən qaçqınların, o cümlədən yerli əhalinin vəziyyəti ilə daha yaxından tanış olmaq və imkan daxilində onlara yardım etmək üçün nümayəndəliyin hərbi attaşesini 2 dəfə Naxçıvana göndərmiş və 400 min manat yardım etmişdi. M.Təkinski XİN-inə yazdığı məktubda bu barədə məlumat verərkən Milli Şuraya 300 min manat veriləcəyini, həmin pulların xərclənməsinin və

bölüşdürülməsinin Rəhim xan Naxçıvanlının nəzarəti altında olacağını bildirir və qeyd edirdi ki, Naxçıvan Milli Şurası ona hesabat və smetanı verəcək. Daha sonra Milli Şuranın daha 6-7 mln. manat istədiyini qeyd edən M.Təkinski müsəlmanların həyatını qorumaq, onların rəğbətini qazanmaq və özlərini Azərbaycan hökümətinin vətəndaşları kimi hiss etmələri üçün onlara böyük miqdarda pul yardımı göstərilməsini zəruri hesab etmişdi.[27]

Qaçqınlara yardım etmək məqsədilə Naxçıvan, Şərur, Ordubad rayonları üçün Naxçıvan Milli Şurasına 400 min manat verilsə də, bu məbləğ onların ehtiyacını ödəmirdi. Ona görə də, Azərbaycan hököməti bu bölgədə toplaşan çoxsaylı qaçqınların imkan daxilində problemlərinin qismən həllinə çalışırdı. Ermənilərin bu bölgəyə hücumları nəticəsində yerli əhalinin onsuz da ağır olan vəziyyəti daha da ağırlaşmış, çoxsaylı qaçqınların Naxçıvana axını isə dözülməz şərait yaratmışdı.

Ümumiyyətlə, qaçqınların sayı ilə bağlı arxiv sənədlərində və mətbuat səhifələrində müxtəlif rəqəmlərə rast gəlinir. «Azərbaycan» qəzetində Vedibasardan Ordubadadək ərazidə təxminən 70 minə qədər qaçqının məskunlaşdığı qeyd olunurdu.[28] Digər sənədlərdə bu rəqəm 30.741 göstərilir.[29] T.Makinskinin (AXC-nin Ermənistanda ilk diplomatik nümayəndəsi) 1919-cu il sentyabrın 9-da Milli Şuraya göndərdiyi «Ermənistanda müsəlman əhalisinin iqtisadi və siyasi vəziyyəti» haqqında məlumatında isə 40-50 min nəfər qaçqına ərzaq, tibbi və s. yardımların göndərilməsi xahiş olunurdu.[30]

Naxçıvan Qaçqınlar Komitəsinin sədri B.Şahtaxtinski 1919-cu il dekabrın 3-də bölgə general-qubernatoruna göndərdiyi məktubunda qaçqınların siyahıya alınmasının başa çatdığı və tabeçiliyində olan qəzalardakı qaçqınların sayının 39005 nəfər olduğunu bildirirdi.[31]

Eyni zamanda B.Şahtaxtinski Naxçıvandakı qaçqınların ağır vəziyyətindən geniş bəhs edərək, qaçqınların vəziyətinin fəlakətli olduğundan, çoxunun açıq havada gecələdiyi və müxtəlif otlarla qidalandıqlarından, soyuqların düşməsi ilə onların bu imkandan da məhrum olduqlarından yazır və qeyd edirdi ki, hər gün 40-a qədər ölüm halları qeydə almaq mümkündür. Xəstələri isə saymaqla qurtarmırdı. 40 min qaçqının sonsuz bir uçurumun kənarında və qarşısıalınmaz ölüm təhlükəsi altında olduğunu bildirən B.Şahtaxtinski, əgər tezliklə mərkəzdən təcili və real kömək gəlməsə, onların hamısının son nəfərinə kimi məhv olacağını proqnozlaşdırırdı.[32]

1919-cu il sentyabrın 21-də Şərur qəza rəisinin, sentyabrın 27-də Qaçqınlar Komitəsinin Ordubaddakı müvəkilləri M.Ağalarov və Ə.Fəttahovun B.Şahtaxtinskiyə, öz növbəsində bu məktublar əsasında B.Şahtaxtinskinin 1919-cu il dekabrın 3-də general-qubernator S.Cəmillinskiyə göndərdiyi məktubda bölgədəki qaçqınların ağır vəziyyətdə olmaları, Zəngəzurdan və başqa yerlərdən 1500 nəfər qaçqının Ordubada gəlməsi ilə daha da acınacaqlı şəraitin yaranması, həmçinin qaçqınların saxlanması üçün maliyyə-ərzaq imkanlarının çox aşağı səviyədə olduğu göstərilirdi.

Bölgədəki qaçqınların yerləşdirilməsi və təminatı sahəsindəki qüsurlar, qaçqınlar üçün ayrılan vəsaitdən sui-istifadə halları vəziyyəti daha da ağırlaşdırırdı. Müvafiq qurumlar arasındakı əlaqələrin düzgün qurulmaması, onlar arasındakı qarşılıqlı iradlar da qaçqınların problemlərinin həllini gecikdirirdi. 1919-cu ilin oktyabrında S.Cəmillinski tərəfindən Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsinə göndərilən məktubda göstərilir ki, «... mahalda aclıq və xəstəlikdən gündə 300 nəfərədək qaçqının öldüyü bir şəraitdə Azərbaycan hökümətinin qaçqınlar üçün hələ qışda ayırdığı 2 mln. manatın gec, yəni apreldə, həm də yalnız 400 manatın buraya çatması, onun da müəyyən hissəsindən sui-istifadə olunması hallarına yol verilməsi yerlərdəki xoşagəlməz vəziyyətdən xəbər verirdi.»

Eyni zamanda, Qaçqınlar Komitəsinin sədri olmaqla yanaşı B.Şahtaxtinski Naxçıvanda ictimai-təminat, mühacirlərə kömək komissiyasında, sonra isə sahibsiz uşaqlar evinin direktoru vəzifəsində də çalışmışdı.[33] Həmin dövrdə AXC Naxçıvanın taleyi ilə maraqlanır, özünün parlament yığıncaqlarında Naxçıvandakı vəziyyət barədə məsələlər müzakirə edir və əməli tədbirlər görürdü. Lakin bütövlükdə düşdüyü vəziyyətlə əlaqədar bu hökumət istənilən köməyi edə bilmirdi.

1919-cu ildə AXC-nin Naxçıvana müvəkkil təyin etdiyi Səməd bəy Cəmillinskinin Naxçıvanda, Ordubadda, Şərurda təsis etdiyi inzibati idarələr xalqın hərtərəfli tərəqqisi naminə olduqca faydalı, səmərəli işlər görürdülər. Məsələn, Behbud ağa

Şahtaxtinski Qaçqınlar Komitəsinin sədri kimi öz yurd-yuvalarından didərgin düşmüş soydaşlarının maddi təchizatı, onların yerləşdirilməsi sahəsində əlindən gələni edirdi.[34]

Qısa müddət ərzində 15 min nəfər qaçqın qəza mərkəzlərində və bir sıra kəndlərdə açılmış pulsuz yeməkxanalara təhkim olunmuş, Naxçıvan, Şərur və Ordubadda yetim qalmış uşaqlar üçün uşaq evləri açılmışdı.[35]

Hətta Naxçıvan qaçqınlarına yardım göstərmək, yetimxanalar, yeməkxanalar, məktəblər və i.a. təşkil etmək üçün Rusiyanın Qırmızı Xaç Cəmiyyəti özünün Zaqafqaziyadakı nümayəndəliyi vasitəsilə pul, ərzaq və dava-dərman ayırmışdı. Lakin Gürcüstanın menşevik hökuməti bu əmlakı və pulu müsadirə etmişdi.

Buna baxmayaraq, Qaçqınlar Komitəsi B.Şahtaxtinskinin rəhbərliyi altında Naxçıvan Inqilab Komitəsi ilə birlikdə Təbriz şəhərində Naxçıvanın ticarət nümayəndəliyini yaratmış, qaçqınları çörəklə, ev əşyaları ilə təmin etmək üçün tez-tez Azərbaycan hökumətinə, XI Qızıl Ordunun Hərbi Şurasına, RSFSR hökumətinə, Təbriz hakiminə, Maku sərdarına, Xoy hakiminə müraciətlər etmiş, iqtisadi və ticarət əlaqələrini möhkəmləndirməyə çalışmışdı.[36]

Beləliklə, B.Şahtaxtinskinin XX əsrin əvvəllərindən Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynaması, xüsusilə «Hümmət» təşkilatındakı 1917-1918-ci illərdəki fəaliyyəti, təşkilatçılıq sahəsində topladığı qiymətli tarixi təcrübə,

Naxçıvandakı fəaliyyəti onun sonrakı dövlətçilik fəaliyyətində mühüm rol oynamışdır.

## §.2. Behbud ağa Şahtaxtinskinin publisistik fəaliyyəti

B.Şahtaxtinskinin 1920-ci ildə Azərbaycan Xalq Komissarları Sovetinin Fəhlə-Kəndli Müfəttişliyinə öz imzası ilə təqdim olunan və Azərbaycan Respublikası XKS sədri N.Nərimanov tərəfindən təsdiq olunan tərcümeyi-halında yazılır ki, o 1907-ci ildən jurnalistlik fəaliyyəti ilə məşğul olmuş, bir müddət «Baraban» jurnalının redaktoru olmaqla, müxtəlif mövzularda yazdığı publısistik məqalələri ilə dövrü mətbuatda çıxış etmişdir.[37]

Sonralar müxtəlif mövzularda yazdığı publisist məqalələri ilə dövrün mətbu orqanları olan «Zakavkazye», «Nicat», «Kaspi», «Azərbaycan», «Kommunist», «Bakinski raboçi» və s. qəzetlərində çıxış edərək, dövlətin, millətin və xalqın taleyi məsələləri ilə bağlı öz maraqlı mülahizələrini bildirmişdir.

XX əsrin əvvəllərində «Sakartvelo» (Gürcüstan) adlanan inqilabçı-federalist-sosialistlər partiyasının orqanı kimi nəşr olunan «Zakavkazye» (1906-1914) qəzeti o dövrdə, ümumən Zaqafqaziyada nəşr olunan rusdilli mətbuat orqanları sırasında ən mütərəqqi yol tutan qəzet olmuşdur. Xüsusilə, Azərbaycan ictimai-siyasi və ədəbi-mədəni fikrini «Zakavkazye» qəzeti qədər demokratik mövqedən ardıcıl şəkildə təbliğ edən ikinci bir rusdilli mətbuat orqanının adını çəkmək çətindir.[38] «Zakavkazye» qəzetinin Azərbaycan həyatı ilə əlaqədar məfkurəvi

istiqamətini düzgün müəyyənləşdirmək üçün özünün siyasi və publısist məqalələri ilə bütün Zaqafqaziyada böyük şöhrət qazanmış B.Şahtaxtinskinin həmin qəzetdəki fəaliyyətinə nəzər salmaq zəruridir. Çünki onun siyasi-publisist məqalələri Şərq xalqlarının azadlıq mübarizəsi ilə müəyyən qədər səsləşir. Yaxın Şərqdə inqilabi-azadlıq fikir və ideyalarının müdafiəçisi olan B.Şahtaxtinski siyasi-publisist fəaliyyətində olduğu kimi, inqilabi fəaliiyyətində də həmin ideyalara sadiq qalmışdır. Onun «Yaxın Şərqdə baş verən hadisələrin vəziyyətinə dair»[39] adlı məqaləsində də bu məsələ realistcəsinə işıqlandırılmışdır.

B.Şahtaxtinski publisist yazılarında rus burjua şovinistlərini kəskin tənqid atəşinə tutmuş, Azərbaycan da daxil olmaqla bütün müsəlman Şərqinə qarşı yönəlmiş iftira və böhtanları ifşa edərək özünün «Poxod protiv musulğman»[40] («Müsəlmanlara qarşı yürüş») məqaləsində çarizmin lakeyləri - şovinistlərə tövsiyə edirdi ki, ruslaşdırma siyasətinin təbliğinə deyil, böyük rus xalqı ilə dünya xalqlarının, o cümlədən müsəlman, Şərq xalqlarının əbədi dostluğuna çalışmaq lazımdır.

Ümumiyyətlə, B.Şahtaxtinskinin bu səpgidə yazılmış siyasi publisist məqalələri «Zakavkazye» qəzetinin məfkurəvi istiqamətinə daha çox uyğun olub, böyük təsirə malik idi.

Yuxarıda qeyd etdiyimiz kimi, B.Şahtaxtinskinin, xüsusilə «Müsəlman Maarifçilik Cəmiyyəti»nin I.B.Aşurbəyovun redaktorluğu ilə nəşr

etdirdiyi «Nicat» qəzetinin 1910-1911-ci il tarixli saylarında çap olunan məqalələri həmin dövrün ictimai-siyasi mühitinin öyrənilməsi üçün çox maraqlıdır. Onun «Gənc türklərin siyasətinə dair»[41], «Qan intiqamı»[42], «Panislamizm»[43] kimi məqalələrindən aydın olur ki, XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi şərait mühüm proseslər və hadisələrlə zəngin olmuş, burada bir sıra cərəyan və hərəkatların yaranması gərgin ideya məfkurə mübarizəsi dövrünü yaşamışdır.

Məlumdur ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində çoxmillətli imperiyaların «millət və milliyyətçilik» fikirləri qarşısında dağılmağa başladığı, «Hürriyyət, demokratiya, bərabərlik» kimi məfhumların ön plana çıxdığı, tarixin səhnəsinə hüquqlarının qanunla təmin etməyə çalışan fərdlərin[44] (Ziya Göyalp, Namiq Kamal, Ziya Paşa və s.) və bunlardan meydana gələn millətlərin doğulduğu bir dövrdə Türkiyədə «Gənc türklər» hərəkatı meydana gəlmiş və onlar bir müddət Türkiyənin siyasi və iqtisadi həyatına rəhbərlik etməklə burada yaşayan müxtəlif xalqlar və millətlərin mənafeyini də Türkiyə naminə müdafiə etmişlər.

B.Şahtaxtinski yazırdı: «Türkiyədə çevriliş zamanı öz şüarlarını bəyan edən bütün millətlər Vətənə məhəbbət hissindən çıxış etmişlər. Bu şüarlar gənc türklərin siyasi proqramına uyğun gəlirdi. Gənc türklər çox istəyirdilər ki, Türkıyədə yaşayan bütün xalqlar Vətənin qüdrətlənməsində eyni dərəcədə maraqlı olsunlar. Baxmayaraq ki, Türkiyə xalqları dil,

din, adət-ənənə, mədəniyyət və digər milli xüsusiyyətləti ilə bir-birindən kəskin şəkildə fərqlənirlər. Onlar tərəfindən azacıq səmimiyyət olduğu halda, gənc türklər birgə iş üçün əsas tapa bilərdilər... Əgər qonşu Balkan dövlətləri onların içərisində separatizmi hər cür rəğbətləndirməsə və ya inkişaf etdirməsə idilər, çox güman ki, Türkiyədə yaşayan bu xalqlar səmimiyyət göstərərdilər».[45]

Tarixdən bəllidir ki, gənc türklərin hakimiyyət illəri Osmanlı Türkiyəsinin dağılmağa başladığı və yeni bir «milli dövlətin» rüşeyminin yarandığı dövrdür. Bu dövrdə hakimiyyətə gələn gənc türklər tərəfindən bir çox sahələrdə ilk addımlar atılmağa başlanmışdı. İqtisadi baxımdan Türkiyədə iş yerlərinin millıləşdirilməsi, bütün şirkətlərdə yazışmaların türkcə aparılması, xarici ölkələrlə əlaqədə kadr hazırlığı, dövlətçilik prinsiplərinin təməlinin qoyulması, ordunun yenidən qurulması, dil sahəsində təmizlik siyasəti aparılması, Türkiyədən kənarda yaşayan müxtəlif türk xalqları ilə əlaqələrin qurulması, milli kitabxana, arxiv, musiqi və coğrafiya institutları kimi mədəniyyət qurumlarının yaradılması üçün islahatlar aparılmışdı.[46]

B.Şahtaxtinski yazırdı: «Gənc türklər Türkiyə xalq kütlələrinin dinc birgə yaşayışı və mədəni quruculuq işi üçün əsas baza yaratmaq üzərində ürəkdən çalışırdılar».[47]

Lakin, «gənc türklər» nümunə ola biləcək tarixi təcrübədən məhrum olduqlarından və iqtidar

təcrübəsinə malik olmadıqlarından məğlubiyyətə uğradılar.

B.Şahtaxtinskinin fikrincə, «Yenidən «gənc türklər»in siyasətində üslubsuz struktura gətirib çıxaran formasız fəaliyyət bərqərar oldu. Daha bir neçə xoşagəlməz hadisələrin mövcudluğu «gənc türklər»in siyasətində axırıncı dönüşə gətirib çıxardı. Bu isə hakim xalq olan türklərin üstün hüququnu qoruyub saxlamaq anlamında milli əlahiddəlik siyasəti idi ki, bu da Türkiyədə yaşayan digər millətlərin narazılığını doğurur».[48]

Gənc türklərin iqtidar illərindən bəhs edən B.Şahtaxtinski yazırdı ki, bu dövr daha mükəmməl bir təcrübə idi və Türkiyənin sonrakı ictimai-siyasi həyatı üçün yetkin bir siyasi məktəb rolunu oynamışdı. Bu mərhələdə meydana çıxan yeni fikir və təcrübələr respublika dövrü inqilablarının təməlini təşkil etmişdi.[49]

B.Şahtaxtinski məqalələrində xüsusi yeri xalqın maariflənməsi, cəhalətdən çıxması mövzusuna ayırır və bu kontekstə dini təhsil və ruhanilərin cəmiyyətdə rolu barədə fikirlərini oxucu ilə bölüşür.

«Nicat» qəzetində çapdan çıxmış «Qan intiqamı» məqaləsində o qeyd edir ki, «bizim, ümumiyyətlə, çatışmazlıqlarımızla, xüsusən «qan intiqamı» kimi adətimizlə mübarizə aparmaq çox çətindir.

Müsəlman cəhaləti ilə mübarizə aparmaq müsəlman ruhanilərinə qarşı kampaniya aparmaq

deməkdir ki, bu da təbiidir. Çünki həyatımızda ruhaniliyin üstün rolu bizim cəhalətimizlə sıx bağlıdır.

Bizim tərəqqipərvər ünsürlərimizin kəmiyyət və keyfiyyəti elədir ki, iki cəbhədə mübarizə aparmaq, demək olar ki, mümkün deyil.

Ruhanilərimiz tərəfindən müsəlmanların oyanışına vurulan öldürücü zərbələrin qarşısını almaq üçün biz Qafqaz müsəlmanlarına Qafqazda iki yaxşı təchiz olunmuş «Ruhani seminariyası» lazımdır. Bu seminariya mövcud olarsa, biz müsəlmanlarımızı uzaq Fərat sahillərində yerləşmiş şəhərlərə ruhani təhsili almaq üçün getmək və oradan tərəqqi və sivilizasiya ilə mübarizə aparmağa yönəlmiş üsullarla silahlanmış şəkildə qayıtmaq imkanlarından məhrum etmiş olarıq.

Qafqaz ruhani seminariyasının yetirmələri kütlələrə ən yaxşı idealları təlqin etməsələr də, bu sahədə başqalarına müqavimət də göstərməzlər.

Bizim ruhanilər müsəlmanların oyanışı tərəfdarı olduqda və ya bu sahədə neytral mövqe tutduqda isə onda bizim cəhalətimizin öhdəsindən gəlmək çətin olmayacaq. Çünki mollaların əks-təsiri aradan götürüldükdə elə həmin müsəlman kütlələrinin öz vəsaitləri hesabına onların məskunlaşdığı bütün yerlərdə ümum açıq xalq məktəbləri şəbəkəsi yaratmaq olar. Xalq kütlələrinin təhsil və maarifinin güclü təzyiqi altında bizim cəhalətimiz bizi tərk edə bilər.

Öz-özlüyündə aydındır ki, bu işin sürətlənməsi bizim tərəqqipərvər adamlarımız və ziyalılarımızın

birgə fədakar əməyindən asılıdır. Ancaq bütün bədbəxtçiliyimiz ondadır ki, biz bu işi görmürük».[50]

1912-ci ildə B.Şahtaxtinski İsabəy Aşurbəyovun naşiri olduğu «Baraban» curnalını buraxmağa başlayır. Curnal həftəlik, yumoristik mətbuat orqanı idi. Lakin bir neçə nömrəsi buraxıldıqdan sonra B.Şahtaxtinski curnalın redaktorluğundan getmiş, 16-cı nömrədən etibarən curnal Şibayevin redaktorluğu ilə çıxmağa başlamışdı.[51] Görünür, curnalın istiqaməti (əsasən məişət mövzusunda yumoristik novellalar dərc edilirdi - F.İ.) B.Şahtaxtinskini təmin etmədiyindən o, redaktorluqdan imtina etməli olmuşdur.

Xalqın maarifləndirilməsi istiqamətində B.Şahtaxtinskinin qadınların azad edilməsi mövzusundakı fikirləri də böyük maraq doğurur. Hələ 1917-ci ilin mayında o dövr Azərbaycanın ən nüfuzlu və populyar qəzeti olan «Kaspi» qəzetində B.Şahtaxtinskinin «Müsəlman qadının emansipasiyasına dair» məqaləsi çıxmışdı. Müəllif orada qeyd edirdi ki, uşaqlarının həqiqi tərbiyəçisi yalnız ətraf həyatın şəraiti barədə kifayət qədər məlumata malik, savadlı ana ola bilər. Bu fikir bizimçün yolgöstərən ulduz olmalıdır. Yalnız müsəlman qadının azad edilməsi ilə geridə qalmış müsəlmanların sivilizasiyası və tərəqqisinin böyük bünövrəsini qoymaq olar. Qapalığın dəhşətli adətləri müsəlman qadında insana xas olan bütün istəkləri, fikirləri, təşəbbüsləri öldürürdü. Bəlli olduğu kimi, kədərli keçmişdə müsəlman qadının qapalı həyat tərzi şəriətə arxalanırdı və buna görə də bu bəla ilə

mübarizə nəinki lazımsız, hətta yolverilməz bir iş sayılırdı. Lakin müsəlman mətbuatının səsini ucaltdığı 1905-ci ildən etibarən, təkzibedilməz faktlarla sübut olunmuşdur ki, müsəlmanların xarici aləmdən özünü-kənarlaşdırması heç də şəriətin hökmü deyil, o yalnız bizlərə qaranlıq keçmişdən irsən qalmış iyrənc bir adətdir. Baxmayaraq ki, bütün müsəlman avtoritetlərinin isbat etdiyi kimi, şəriətə düzgün şəkildə əsaslandığımız halda müsəlman qadın hər cür dustaqlıqdan azad olmalıdır. Lakin bu dustaqlıq hələ də müsəlman qadınların böyük əksəriyyətini tərk etməyib. Bu acınacaqlı hal ilk əvvəl adətin bəzən qanundan güclü çıxması ilə izah edilməlidir.[52]

O qətiyyətlə bildirirdi ki, yaxşı gələcək uğrunda mübarizədə biz heç zaman mövhumatçıların qeybətlərinə fikir verməməliyik.

B.Şahtaxtinskinin «Kaspi» qəzetində işıq üzü görmüş «Müsəlman qadınların seçkilərdə iştirakına dair» adlı başqa bir məqaləsində müsəlman qadınların seçki hüquqları müdafiə edilirdi. Bu məqalə sahə ərzaq komitələrinə seçkilər ərəfəsində yazılmışdı və burada müəllif müsəlman qadınların seçkilərdə iştirakı məsələsi ətrafında yaranmış vəziyyətə öz münasibətini bildirmişdi. B.Şahtaxtinski yazır ki, Bakı Müsəlman Ictimai Təşkilatlarının Komitəsi (BMITK) qarşıdakı seçkilərdə qadınlar üçün ayrıca məclis otaqlarını ayırmağı təklif edib, cavabında isə Mərkəzi Seçki Komissiyası ciddi səhvə yol verərək BMITK-ə təklf etmişdi ki, müsəlman qadınların seçkilərdə iştirakı məsələsinin müzakirəsini müsəlmanların ümumi

məclisinə çıxartsın. B.Şahtaxtinski irad tutur ki, Bakı şəhəri müsəlmanlarının ümumi məclisi qanunverici orqan deyil, seçki hüquqları isə milliyyətindən asılı olmayaraq bütün vətəndaşlara, o cümlədən qadınlara Rusiyanın Müvəqqəti hökumətinin qərarı ilə verilib, buna görə də müsəlmanların ümumi məclisinin qərarının heç bir əhəmiyyəti ola bilməz.[53]

Müəllif xatırladırdı ki, seçki komissiyalarında hətta seçki hüququnun yalnız emansipasiya olmuş qadınlara verilməsi haqqında təkliflər irəli sürülmüşdü.

«Biz əvvəl təəccüblənirdik ki, qara camaat hər komissiyaya, komitəyə, qurultaya və s. qanunverici funksiyalara malik təşkilatlar kimi baxır.

Təəssüf ki, biz boynumuza almalıyıq ki, bu cür xəstəliklərə hətta maariflənmiş insanlar da mübtəla olublar». B.Şahtaxtinskinin dərin inamına görə MİK-nin bu təklifi, eləcə də orada məsələyə dair müzakirələrin aparılması bu qanunvericiliyin əsas ehkamlarına tamamilə ziddir, «azad respublikanın vətəndaşı kimi» MK öz tərəfindən bu məsələlərə diqqət yetirəcək.[54]

Bəllidir ki, XIX əsrin son illəri dünya müsəlmanları arasında siyasi-milli oyanma prosesinin dərinləşməsi, millətlərin təşəkkül tapması, bunların nəticəsində isə bir sıra mühüm cərəyan və hərəkatların yaranması ilə səciyyələnir. Yusif Akçura oğlunun 1928-ci ildə Istanbulda çapdan çıxan «Türk fikri, türk hərəkatı, türk ocaqları» əsərində yazdığı kimi, «millət» anlayışı Avropada meydana gəlmiş, ilkin olaraq ən yüksək dərəcədə, Avropa ilə sıx əlaqələrdə

və qarşılıqlı münasıbətlərdə olan, türk tayfaları tərəfindən mənimsənilmişdir. Bu, çoxlu türk tayfaları içərisində olan Qafqazdakı azəri türklərinə də aiddir.[55]

Bu dövrdəki gerilik və tənəzzül, müstəmləkə əsarəti, islahatların uğursuzluğu və s. Yaxın və Orta Şərq ölkələrində dinə, islama və millətçiliyə-türk birlıyınə arxalanmağı şərtləndirirdi. Məhz bu və digər amillər zəminində bir sıra ideologiya və hərəkatlar, o cümlədən Güney və Quzey Azərbaycanı da əhatə edən panislamizm formalaşmağa başladı. Bu ilk növbədə türk xalqlarının müsəlman dininə itaət etmələrilə bağlı idi. Həmçinin islamçılığın ideoloqları belə bir qarşılıqlı tezisdən çıxış etmişlər ki, islamın yaşaması üçün ona itaət edən millətlərin özünüdərketməsi vacibdir, türk xalqlarının dünyagörüşündə və mədəniyyətində islam mühüm yer tutur. Lakin ətraf ictimai-siyasi mühitin təsir və təzyiqinə reaksiya olan panislamizm vahid doktrina yarada bilmədi. Çünki uzun müddət hərəkatın xarakterini, strategiya və taktikasını müəyyənləşdirmək mümkün olmadı.[56]

Bütün bunları təhlil edən, B.Şahtaxtinski yazırdı: «...Nəzərə almaq lazımdır ki, müasir islam necə ki, hamı təsdiq edir, özündə iri siyasəti birləşdirir ki, bununla hesablaşmamaq olmaz. Belə hərəkata şərait yaratmaq, elə bil ki, könüllü bizim siyasi təsirimizi bizimlə rəqabət aparan dövlətin xeyirinə vermiş oluruq ki, yüzilliklərdə külli miqdarda Asiyada qurbanlar vermişik. Yaddan çıxarmaq olmaz ki, Avropada islama xidmət edənlər, hər hansı münasib şəraitdə Rusiyaya düşmənçilik münasibəti yaratmaq

və onun hər hansı atdığı ehtiyatsız addımından Asiya xalqlarında düşmənçilik əhval-ruhiyyəsi yaradır».[57]

Sözsüz ki, panislamizm Azərbaycanı Avropa ilə, birinci növbədə Rusiya ilə üz-üzə qoyurdu. Bundan da düşmənlər öz məqsədləri üçün səmərəli şəkildə istıfadə etmək istəyirdilər. Əslində isə Azərbaycanda Rusiyaya qarşı panislamizm siyasəti yeridilməmişdir.

B.Şahtaxtinski yazırdı: «Nə qədər başqa ölkələrin diplomatları çevik və dözümlüdürsə, bir o qədər də bizim siyasi rəhbərlərimiz inadcıl və küsəyəndirlər. Bu siyasi burulğan içərisində üstünlük bizim rəqibimizin xeyrinədir, axırıncının köməyinə Rusiyada «vətənpərvər» bayrağı altında birləşmiş müxtəlif rütbə subyektləri çıxış edirlər...

Ola bilsin ki, onların çıxışları provokator fantaziyası ilə bağlı deyil, ola bilsin ki, onlar «nə yaradırlar büruzə vermirlər», ancaq fakt odur ki, onlar özlərinin kinli xəbərləri ilə guya «vətənpərvərlik» hissi ilə rus işinə daha çox ziyan vurur, nəinki qəddar düşmən. Xalq hikməti bu hadisəyə belə hökm verib: «Ağılsız dost düşməndən qorxuludur».

Təkrar edirik ki, müsəlmanlar arasında ruslara aid panislamist hərəkatı heç vaxt olmayıb və ola da bilməz».[58]

B.Şahtaxtinskinin bu məqalələrindən görünür ki, XX əsrin əvvəllərində Azərbaycan cəmiyyəti çoxlu ziddiyyətlər və problemlərlə üzləşmişdir. Məhz bu dövrdə həmin problem və ziddiyyətlərin Azərbaycanın həyatı və siyasi mübarizəsi ilə

əlaqələndirilib açıqlanmasında böyük rolu olan görkəmli şəxsiyyətlərdən biri də Behbud ağa Şahtaxtinski olmuşdur. Onun jurnalistlik fəaliyyəti geniş olub, həmin dövrdə daha çox siyasi problemlərin təhlilinə və çıxış yollarının müəyyən edilməsinə yönəldilmişdi.

1917-ci ilin inqilabi hadisələrindən sonra B.Şahtaxtinskinin publisist kimi fəaliyyətinin yeni mərhələsi başlandı.

Fevral inqilabının qələbəsindən sonra Azərbaycan milli hərəkatı keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil oldu. Müxtəlif siyasi və ideoloji istiqamətli təşkilatlar və partiyalar yaranmağa başladı. Lakin zəif olduqlarına görə onlardan heç biri hələlik milli hərəkata vahid şəkildə rəhbərlik etmək iqtidarında deyildilər. Buna görə də təbii olaraq Azərbaycan ictimaiyyətinin müxtəlif dairələri milli qüvvələrin konsolidasiyasına nail olmaq məqsədi ilə müxtəlif siyasi qüvvələrin nümayəndələrinin daxil olduğu əlaqələndirici orqan yaratmağa səy göstərirdilər. Bu səylərin nəticəsində 1917-ci il martın 29-da Azərbaycan Milli hərəkatının siyasi mərkəzi rolunu oynayacaq Bakı Müsəlman İctimai Təşkilatlarının Müvəqqəti Komitəsi (BMİTMK) yarandı. Müvəqqəti Komitənin sədri müsavatçı M.H.Hacınski, onun müavini isə M.Ə.Rəsulzadə seçildilər.[59]

Öz ideyalarını təbliğ etmək üçün BMİTMK «Kaspi» (rus dilində) və «Açıq söz» (Azərbaycan dilində) qəzetlərində komitənin xəbərlərini dərc etmək qərarına gəlmişdi. B.Şahtaxtinski «Kaspi» qəzetində, «Bakı Müsəlman İctimai Təşkilatlarının

Xəbərləri»ndə bir sıra məqalələrlə çıxış etmişdi. Bu məqalələr həm Azərbaycan və Rusiyanın daxilində gedən ictimai-siyasi proseslərə, həm də beynəlxalq məsələlərə həsr edilmişdi.

B.Şahtaxtinskinin burada ilk məqaləsi «Kaspi» qəzetinin 103-cü nömrəsində dərc olunmuş «К задачам момента» adlanırdı[60] («Bir anın məsələlərinə dair»). Məqalədə Rusiya müsəlmanlarının vəziyyətindən danışan müəllif qeyd edirdi ki, monarxiyalı Rusiyanın işğalçılıq siyasəti Rusiya müsəlmanlarının onsuz da ağır olan həyat şəraitini ağırlaşdırmış, rus bürokratiyası isə müsəlmanları həmişə şübhə altında saxlamışdır. Belə şəraitdə təəccüblü deyildir ki, müsəlmanlar siyasi cəhətdən mütəşəkkil deyillər. Daha sonra müəllif göstərir ki, siyasi qeyri-mütəşəkkilik müsəlmanların say çoxluğu ilə kompensasiya edilir, ona görə də məqamın vəzifələrini düzgün başa düşəcəyi təqdirdə çoxmilyonluq Rusiya müsəlmanları rus azadlığının möhkəmləndirilməsinə dəyərli xidmət göstərə bilər. Müəllifin nəzərincə, rus müsəlmanların siyasi proqramı ümumən bütün sol demokratiyanın siyasi platforması ilə üst-üstə düşür. Bu platformanın əsas şüarlarından biri isə azad Rusiyanın işğalçılıq siyasətindən əl çəkməsidir. Bu şüar Rusiya müsəlmanlarının siyasi proqramının fundamentini təşkil edir. B.Şahtaxtinski əminliklə bildirirdi ki, yalnız demokratik respublika müsəlmanların mədəniyyət, sivilizasiya və tərəqqi sahəsində irəliləmələri üçün dönüş nöqtəsi olan azadlığı bəxş edə bilər.

Bu fikirləri digər məqaləsində «Структура мусульманской действительности»[61] («Müsəlman gerçəkliyinin quruluşu») də inkişaf etdirərək B.Şahtaxtinski yazırdı ki, Rusiya, İngiltərə, Fransa kimi dövlətlərin timsalında müsəlman xalqlarına qarşı yeridilən təkcə Rusiyada deyil, Asiyanın bütün bölgələrində müsəlmanların həyatını cəhənnəmə çevirən müstəmləkə, imperiya siyasəti ifşa edilməli və Rusiya müsəlmanlarının mütləqiyyət quruluşuna nifrəti təbii sayılmalıdır.

Eyni zamanda B.Şahtaxtinski müsəlmanların onlara zülm etməkdə Rusiya mütləqiyyətilə uğurla rəqabət aparan imperialist respublikalarına da mənfi münasibətlərini təbii hesab edərək qeyd edir ki, Rusiyada yalnız demokratik respublikalı idarəetmə obrazı müsəlmanlara azad həyat şəraiti verə bilər və onları siyasi və digər zülmlərdən azad edə bilər.

B.Şahtaxtinskiyə görə müsəlmanların əsas şüarı ərazi-federativ əsaslı demokratik respublika olmalıdır. Müəllif belə bir fikri yenə də vurğulayır ki, müsəlman gerçəkliyinin strukturu tələb edir ki, müsəlmanlar Rusiyada demokratik respublika qurulmasını istəyirlərsə, imperialist partiyaları deyil, sol demokratiyanı müdafiə etməlidirlər.

Digər məqalələrində - «Одно из двух»[62] («İkisindən biri»), «Политическое недомыслие»[63] («Siyasi düşüncəsizlik») B.Şahtaxtinski Avropada cərəyan edən prosesləri təhlil obyekti seçmiş, iri dövlətlərin proteksionizm siyasətini yeni müstəmləkəçilik kimi xarakterizə etmişdir.

Onun «Azərbaycan» (rus dilində) qəzetində çap etdirdiyi «Отклики жизни» («Həyatın əks-

sədaları»)[64] məqaləsində təhsil, elm və mədəniyyətin millətin və xalqın çətin dövrlərində nə qədər vacib olduğu qeyd edilirdi.

Məlumdur ki, XX əsrin əvvəllərində Azərbaycanda hümmətçilik ideologiyasi əsasında yetişən qabaqcıl fikir nümayəndələrinin bir qismi bütün xalqların birliyinə nail olmaq üçün əvvəlcə ictimai, iqtisadi və maddi sahələrdə geri qalan xalqların tərəqqisinə daha çox üstünlük verirdilər ki, bu da Avropanın qabaqcıl xalqlarının elmi-mədəni səviyyəsinə yüksəlməyi nəzərdə tuturdu. Görünür ki, onların «avropalaşmaq», yəni «müasirləşmək» şüarı da bu məqsədi daşımışdır.

Təhsil, elm və mədəniyyətin millət və xalqın ən çətin dövrlərində belə nə qədər vacib olduğunu qeyd edən B.Şahtaxtinski yazırdı ki, «mənəvi, intellektual və elmi qüvvələrə malik olan millət xarici təsirlər altında zorla cəlb edildiyi müharibə şəraitinə və çətinliklərinə belə asanlıqla uyğunlaşa bilir, döyüş meydanında həmişə mədəniyyət və elmin yaratdığı texnika qarşısında baş əyməyə layiq olan igidlik və qüdrətli elmi qəhrəmanlıq qələbə çalır».

Təqribən 1560 gün çəkən birinci dünya müharibəsində 10 milyon adamın həlak olması və 20 milyon adamın isə yaralanması, müharibədə vuruşan başlıca dövlətlərin milli sərvətinin orta hesabla 1/3 hissəsinin dağıdılması səbəblərini araşdıran B.Şahtaxtinski belə nəticəyə gəlmişdir ki, «külli miqdarda olan faktlar onu sübut edir ki, biz yeni, daha dəhşətli müharibənin baş verməməsini nəzərə

almalıyıq və bununla əlaqədar özümüzün geniş anlayışlı milli və dövlət maraqlarımızın təmin olunmasını bu istiqamətə yönəltməliyik. Müasir müharibədə insan və başqa qüvvələrin çoxluğu həlledici əhəmiyyət kəsb etmir. Ona görə ki, müharibə (birinci dünya müharibəsi nəzərdə tutulur - F.I.) sübut etdi ki, xalqların mübarizəsində qələbə o xalqa məxsusdur ki, daha yüksək mədəniyyətə, sivilizasiyaya və elmi qüvvələrə malikdir və bunlar bir xalqın başqa xalqlara qarşı nəinki qələbə rəhnidir və eləcə də bu xalqın həqiqi xoşbəxtlik rəmzidir...

Müsəlmanlar bütün bunlardan nəticə çıxarmalı və dərk etməlidirlər ki, malik olduğumuz sivilizasiya müasir bəşəriyyəti narahat edən məsələləri özündə əks etdirmir və bizim milli tərəqqimizin yolunu düzgün təmin etmir».

B.Şahtaxtinski qeyd edir ki, «həyatın şərtlərini köhnəlmiş, keçmişin çərçivəsinə yığmaq olmaz. Indi vəziyyət elə gətirib ki, əgər tərbiyə və təhsil işi lazımi qədər yüsəkliyə qalxmasa, bizim millətin nəinki siyasi, hətta fiziki varlığı da şübhə altına alınar».

Uzun müddət müsəlman sosial-demokrat «Hümmət» təşkilatının fəal üzvlərindən olan və «bütün cahan füqərayi - kasibəsi, birləşin!» şüarı ilə eyni adlı qəzetin çap edilməsində iştirak edən B.Şahtaxtinski xalqın siyasi-milli şüurunun, vətənpərvərlik hissinin inkişaf etdirilməsindən və xalqın özünü dərk etməsinin yollarından və vasitələrindən bəhs edərkən N.Nərimanovun «Bir millət özünü tanımayınca, hüququnu düşünməz.

Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır» proqramını öz fəaliyyətinin əsas istiqaməti kimi qəbul etmişdir.

B.Şahtaxtinski mətbuat orqanlarının yaranmasına xüsusi diqqət yetirmiş, mətbuatı ictimai həyatda ən yaxşı təkanverici qüvvə kimi qiymətləndirmişdir. O, yazırdı: «Mətbuat ictimai həyatı canlandırır, ictimai rəy yaradır və onu təmizləyir. Mətbuatın yaradıcı və tərbiyəvi əhəmiyyəti hamı tərəfindən etiraf edilib və bizdən başqa bütün ölkələrdə özünə layiqli yer tutub. Mətbuatın əhəmiyyəti bununla bitmir. O həm də xarici və bəzən də daxili düşmənlərə qarşı mübarizə vasitəsi kimi də zəruridir. Əbəs yerə mədəni xalqlar tərəfindən mətbuat altıncı dünya dövləti adlandırılmayıb. Bunu 3 milyonluq erməni xalqına rəhbərlik edən daşnaklar çox gözəl nəzərə alıblar. Hansılar ki, mətbuat işinin düzgün qurulması nəticəsində yarım əsr içərisində 300 milyonluq müsəlman dünyasına qarşı işğalçı müharibə aparır və daim müsəlmanları Avropanın gözü qarşısında hörmətdən salır. Bizdə mətbuat orqanlarının olmaması elə şərait yaradıb ki, Avropanın və Amerikanın ictimai rəyi bizi bizsiz məhkum edib. Biz heç vaxt üstümüzə yağdırılan böhtanı təkzib etmək iqtidarında olmamışıq. İndi yenə də daşnaklar mətbuat orqanlarının səhifələrinə onlar tərəfindən dörd il ərzində (yəni birinci dünya müharibəsi illərində - F.I.) döyüş meydanlarında oynanılan əks-müsəlman mübarizəsini köçürmək

istəyirlər və bu suallar üzərində düşünəndə bizi dəhşət bürüyür».

Müasir dövrdə erməni fitnə-fəsadlarının həyata keçirilməsində daha bir əsrlik «qara ləkəli» uydurmaları da nəzərə alsaq, onda B.Şahtaxtinskinin hələ keçən əsrin əvvəllərində dediyi sözlərin bu gün üçün nə qədər əhəmiyyətli olduğunu bir daha dərk edərik.

B.Şahtaxtinski «Həyatın əks-sədaları» məqaləsinin sonunda yazır: «Özünəməxsus mədəniyyəti olmayan millət müstəqil ola bilməz».[65]

B.Şahtaxtinskinin mahir diplomat olması həmin dövrdə Rusiyanın Şərqdə yeritdiyi siyasətin mahiyyəti ilə bərabər, Şərqin ümumi vəziyyəti və gələcəyi haqqında da ona mülahizə və fikir yürütməyə imkan vermişdir. Bu mənada onun «Kommunist» (rus dilində) qəzetində çap olunan «Советская политика на Востоке»[66] («Şərqdə sovet siyasəti») və «К моменту» («Bu ərəfədə) «О революционном движении на Востоке»[67] («Şərqdə inqilabi hərəkat haqqında») məqalələri diqqətəlayiqdir. Bu məqalələrdə B.Şahtaxtinski həmin dövrdə Rusıyanın Şərqdə yeritdyi siyasətin mahiyyəti ilə bərabər, Şərqin ümumi vəziyyəti və gələcəyi haqqında da mülahizələr irəli sürür.

Məlumdur ki, Rusiyanın birinci dünya müharibəsində iştirakının əsas məqsədlərindən biri də Istanbulu, Dardanel və Bosfor boğazlarını, Türkiyənin ermənilər yaşayan torpaqlarını, Avstriya və Macarıstan tabeliyində olan Qalısiyanı işğal etmək,

Balkanlarda mövqeyini daha da möhkəmləndirmək idi. Hətta bəzi qüvvələr bunlardan başqa müharibə vasitəsilə Rusiyanın yeni torpaqlar əldə etmək proqramını da işləyib hazırlamışdılar ki, buraya da Türkıyənin əsasən Qara dəniz sahili torpaqlarının əksəriyyətinin Rusiyaya birləşdirilməsi nəzərdə tutulurdu.

Lakin birinci dünya müharibəsinin fəal iştirakçılarından olan Rusiyanın müharibədə məğlubiyyəti bu planları pozmuş, onu sosial-iqtisadi və siyasi cəhətdən daha acınacaqlı vəziyyətə salmışdır. Faktdır ki, Türkiyədə isə Osmanlı imperiyası dağılmış, onun tərkibində olan Suriya, Livan, Fələstin və Iraq vilayətləri Ingiltərənin və Fransanın idarəçiliyinə verilmişdi. Bir çox əzəli torpaqlar isə Fransa, Yunanıstan, Italiya, daşnak Ermənistanı arasında bölüşdürmüş, Dardanel və Bosfor boğazları isə bütün ölkələr üçün açıq qapı elan olunmuşdu. Hətta Türkiyə öz müstəqilliyini itirmək təhlükəsi qarşısında qalmışdı.[68]

Bütün bu məğlubiyyətin səbəblərini araşdıran B.Şahtaxtinski «Şərqdə inqilabi hərəkat haqqında» məqaləsində yazır: «Türkiyə xalqı rus xalqı kimi axırıncı illərə qədər öz ağlı və iradəsi olmadan imperializm yolu ilə gedirdi. Indi Türkiyə onda olan həqiqət və hüquq hisslərini məhv edənləri özündən kənarlaşdırıb və artıq öz şüarını «Pannasional» adlı mühüm bir qərarda elan etmişdi. Osmanlı Məclisi tərəfindən işlənmiş bu qərar Anadolunun iyirmi səkkiz yaşayış məntəqəsində keçirilən xalq

iclaslarında müzakirə edilmiş və qəbul olunmuşdu. Əslində bu qərarla türk xalqı başqa millətlərlə məskunlaşmış və onun hakimiyyəti altında olan Ərəbistan, Suriya, Mesopotomiya, Misir və başqa ölkələrdən əbədi olaraq imtina etmişdi...

Indi Türkiyənin Böyük Millət Məclisi Anadolunun qərbində yerləşən Antanta tərəfindən işğal edilmiş əraziləri müharibə yolu ilə geri almalıdır. Baxmayaraq ki, türk xalqı müharibə aparmaqdan yorulub, lakin şəraitdən asılı olaraq Antantaya qarşı başlanmış müharibəni davam etdirməlidir. Ona görə ki, «Pannasional» qərarı ilə o, geriyə aparan bütün yolları kəsmişdi. Sovet ölkələri ilə bağlanmış razılaşma əsasında Şərqi Anadoluya qaytarılmış vilayətlərdə döyüşkən və çox qədim müsəlman əhalisi yaşayır. Hansı ki, Türkiyə üçün Antanta ilə mübarizədə bu xalqlar ona mühüm dayaq ola bilər».[69]

Məlumdur ki, Birinci Dünya müharibəsində Rus imperiyasına nökərçilik edən və ona xilaskar kimi baxan «Daşnaksütyun» partiyası bu müharibədən «Böyük Ermənistan» uğrunda mübarizə üçün istifadə etmək məqsədini güdmüş, Rusiyaya arxalanaraq ərazi iddiası ilə Türkiyədə üsyan hazırlamağa, hətta Ərzurum, Qars və başqa vilayətlərdə türklərə divan tutmağa başlamışdılar. Ərazisinin parçalanması təhlükəsini görən Türkiyə hökuməti 1915-ci ilin yazında onları cənub-qərb vilayətlərinə, Mesopotomiyaya köçürmüşdü.[70]

Bütün bunları nəzərə alan B.Şahtaxtinski həmin məqalədə yazır ki, «təəssüflər olsun ki, erməni-türk

münasibətlərinə aid siyasi məsələlər və problemlər hələ də həll edilməyib. Türk və erməni xalqları özləri bilavasitə «könüllü və xoşluqla» razılaşma yolu ilə mənfur keçmişlərini ataraq bu labirintdən çıxmalıdırlar».[71]

1917-1920-ci illərdə Cənubi Azərbaycanda Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə güclü milli-azadlıq və demokratik inqilab baş vermişdi. 1920-ci il aprelin əvvəllərində başlanan Təbriz üsyanının qələbəsi nəticəsində Cənubi Azərbaycanda milli hökumət yaradılmışdı. O, tarixdə «Azadıstan» adı ilə məşhur idi. Lakin hökumət 1920-ci il sentyabrın ortalarında süqut etmişdi. Əslində bu inqilab Birinci Dünya müharibəsi dövründə Iran və Cənubi Azərbaycan torpaqlarını Antanta və alman-türk bloku qoşunları tərəfindən hərbi əməliyyatlar meydanına çevirən qüvvələri qorxuya salmış, Ingiltərənin Irandakı nümayəndələrini və onlarla əlbir olan Iranın mərkəzi hökumətini son dərəcə narahat vəziyyətdə saxlamışdı.[72]

Belə bir şəraitdə Rusiyanın Irana qarşı yeritdiyi siyasət haqqında B.Şahtaxtinski yazırdı: «Iranla imzalanmış müqavilə əsasında Sovet Rusiyası Iranın pul öhdəçiliklərindən, konsessiyalarından, Iranda çəkilmiş şosse və dəmir yollarından, teleqraf xətlərindən və başqa dövlət miqyasında olan kapital qoyuluşundan imtina etmişdi. Çünki, Rusiya xarici siyasətinin belə təzahürü ingilis oriyentasiyasının hər cür nüfuzunu aşağı salırdı. Bu isə o demək idi ki, ingilislər Iranın ərazisində ancaq süngülər vasitəsilə

qala bilərdi. Lakin türk milli inqilab hərəkatının müvəffəqiyyətləri Şərqin başqa xalqları kimi Irana da yoluxdu və onlar həyat şəraitlərinə təkidlə fəallıq və ağıllı münasibət bəsləməyə başladılar. Tezliklə böyük inqilabın bəşəriyyət qarşısında qoyduğu məsələlərin Şərq xalqları tərəfindən də düzgün anlayışı Ingiltərəni, kapitalın və imperializmin başqa yırtıcılarını da məcbur edəcək ki, onlar yad ölkələrdən öz qoşunlarını qeyd-şərtsiz çıxarsınlar. Bütün məlumatlar onu təsdiqləyir ki, Şərq ölkələrinin əhalisi zəmanənin şəraitini artıq çox düzgün başa düşürlər».

Cənubi Azərbaycandakı milli-azadlıq və demokratik hərəkatı, Şimali Azərbaycanda yaranan XC-nin xalq hakimiyyətinin respublika formasını və Türkiyə azadlıq hərəkatının tarixi əhəmiyyətini nəzərə alan B.Şahtaxtinski «К моменту» məqaləsində yazır: «... Qərb ölkələrinin əksər fəhlələri hakimiyyəti öz əllərinə almaq zamanına yaxınlaşır. Antantanın bizimlə mübarizə aparmaq üçün öz ordusu yoxdur və o, yad orduların köməyi ilə onu aparmalıdır. Lakin məlumdur ki, bizə qarşı qaldırılan bütün qüvvələr bizim tərəfdən qətiyyətlə məhv olunubdur — birisi sülh bağlamaq yolu ilə, başqaları isə darmadağın edilməklə.

Antanta mübarizəni hər yerdə uduzaraq canını qurtarmaq məqsədilə Şərqdə bizə qarşı çətin bir döyüş cəbhəsini əmələ gətirmək istəyir. Biz onun əlindən bu silahı da qopara bildik. Buna sübut Yaxın Şərq ölkələrinin hamısı ilə bizim bağlanmış sazişlər və öz azadlığı uğrunda Antantaya qarşı Anadolu tərəfindən aparılan qanlı müharibədir.

Əgər bütün bunlara biz menşevik Gürcüstanı və daşnaq Ermənistanı da əlavə etsək, onda hamı üçün aydın olar ki, Şərqdə Antanta bizim tərəfimizdən tam tərksilah edilib və biz Yaxın Şərqin azad olunması və onun zəhmətkeşlərinin yeni dünya yaradılması uğrunda ümumi işinə qatılması ərəfəsindəyik. Şərqin azad edilməsi bəşəriyyət üçün çox mühüm olan dünya probleminin həll edilməsi deməkdir. İndiki zamanda Şərqin inqilabi qüvvələrinin yaranması və təşkili üçün ən əlverişli şərait yaranmışdır. Şərqdə milli inqilaba əhəmiyyət verməmək hücum edən düşmənin əlinə öz silahını təhvil verməyə bərabərdir. Şərqin milli inqilabı demokratik inqilabla sıx bağlıdır. Xaricilər tərəfindən zorakılıq və istismarçılıq ləğv ediləndən sonra, orada iti sürətlə yaranan demokratik çevrilişin qaçılmazlığı gələcəkdə Şərq gerçəkliyi çərçivəsində siyasi işin aparılmasına imkan verəcəkdir».[73]

Şərqdə tarixi hadisələrin sonrakı gedişi, xüsusilə 1923-cü ildə Lozanna sülh konfransında Qərb dövlətləri tərəfindən Türkiyənin müstəqilliyinin tanınması B.Şahtaxtinskinin nə qədər uzaqgörən siyasətçi olduğunu sübut etdi.

Göründüyü kimi, B.Şahtaxtinskinin publisistik fəaliyyəti geniş olub və daha çox siyasi və mənəvi problemlərin təhlilinə və çıxış yollarına yönəldilmişdi. Belə şəxsiyyətlərin dövlət, millət və xalq qarşısında xidmətləri danılmaz və unudulmazdır.

# II FƏSIL
# BEHBUD AĞA ŞAHTAXTINSKININ DIPLOMATIK FƏALIYYƏTI

## § 1. Behbud ağa Şahtaxtinski və Moskva müqavilələri

B.Şahtaxtinskinin siyasi fəaliyyətinin mühüm istiqamətini onun diplomatik fəaliyyəti təşkil edir. Əslində Azərbaycanın düşdüyü mürəkkəb geosiyasi şərait, onun maraqlarının qorunması vacibliyi B.Şahtaxtinskini «zorən» diplomat etsə də, o, onun üçün tamamilə yeni olan bu fəaliyyət sahəsində əldə etdiyi nəticələr, qazandığı uğurlar sayəsində öz adını tarix boyu xalqımızın ən mahir və təcrübəli diplomatları siyahısına yazdırmağa nail oldu. B.Şahtaxtinskinin bu sahədəki xidmətləri Azərbaycanın gələcək taleyində mühüm rol oynadı.

Azərbaycan sovetləşəndən sonra onun qarşısında duran ən mühüm məsələlərdən biri də Sovet Rusiyası ilə münasibətlərin hansı formada tənzimlənməsi idi. Rusiya bolşevik hökuməti də Sovet Azərbaycanı ilə əlaqələrin qurulması üçün müvafiq addımlar atmışdı.

B.Şahtaxtinski Naxçıvandan Bakıya gəldikdən 9 gün sonra Azərbaycan KP MK nümayəndəsi və Azərbaycan SSR-in RSFSR-də fövqəladə nümayəndəsi kimi III İnternasionalın II qurultayında iştirak etmək üçün Moskvaya ezam edildi.

1918-1921-ci illərdə Zaqafqaziyada mürəkkəb siyasi vəziyyət mövcud olmuşdur. Üç respublika -

Azərbaycan, Gürcüstan və Ermənistan, dörd xarici dövlətin — yəni Türkiyə, Rusiya, Ingiltərə və ABŞ-ın regionda yeritdiyi siyasətin düyün nöqtəsinə çevrilmişdi. Daşnak Ermənistanı «Böyük Ermənistan» yaratmaq xülyası ilə Azərbaycana qarşı torpaq iddiası ilə çıxış edirdi.

1920-ci il mayın 20-də RK(b)P MK-nın qəbul etdiyi qərarda Xalq Xarici İşlər Komissarı G.V.Çiçerinə tapşırıldı ki, qarşılıqlı münasibətləri müəyyənləşdirmək üçün danışıqlara başlamaq təklifi ilə Azərbaycan Sovet hökumətinə müraciət etsin. RSFSR hökumətinin Xalq Xarici Işlər Komissarı G.V.Çiçerin öz imzası ilə Azərbaycan SSR hökumətinin başçısı N.Nərimanova xüsusi nota göndərərək «ümumi məqsədlərə nail olmaq naminə öz müntəzəm əməkdaşlığı yolunda hər iki respublikanın birgə fəaliyyətini asanlaşdıran daimi qarşılıqlı münasibət formaları yaratmaq haqqında» danışıqlara başlamağı təklif etdi.[74] Notada danışıqlar aparmaq üçün Moskvaya Azərbaycandan daimi nümayəndə göndərilməsinin vacibliyi göstərilirdi: «Rusiyanın Sovet hökuməti zənn edir ki, məqsədlərimizin birliyi və fəhlə-kəndli quruluşunun həmrəyliyi, təbii hər iki qardaş respublikanı - Rusiya və Azərbaycan respublikalarını rəsmiləşdirilmiş sarsılmaz əlaqələr yaradılmasına gətirib çıxara bilər və bu əlaqələr ümumi sovet siyasəti yolunda daimi əməkdaşlığı asanlaşdırar».[75]

1920-ci ilin əvvəllərində Azərbaycan İnqilab Komitəsi B.Şahtaxtinskini Azərbaycan SSR-in

RSFSR-də fövqəladə və səlahiyyətli nümayəndəsi təyin etdi.

1920-ci il iyulun 13-də AK(b)P MK bürosu siyasi, hərbi və iqtisadi xarakterli bir sıra məsələləri aydınlaşdırmaq üçün Azərbaycan SSR-in nümayəndəsi kimi Moskvaya - RSFSR Xalq Komissarları Sovetinə gedəcək B.Şahtaxtinskinin məruzəsi haqqında məsələni müzakirə etdi. Azərbaycan SSR ilə RSFSR arasında qarşılıqlı münasibətlər və B.Şahtaxtinskiyə veriləcək direktivlər barəsində məsələlər iyulun 15-də AK(b)P MK bürosunda yenidən müzakirə olundu və büro xüsusi komissiyaya təklif etdi ki, Azərbaycan SSR-in RSFSR-dəki nümayəndəsi B.Şahtaxtinski üçün direktivlərin müddəalarını işləyib hazırlasın.[76]

15 iyul 1920-ci ildə Azərbaycan Inqilabi Komitəsinin sədri N.Nərimanovun imzası ilə Bakı rayonu fəhlə və qırmızı əsgər şurasının icraiyyə komitəsinin üzvü, Azərbaycan Xalq Ədliyyə Komissarı Behbud ağa Şahtaxtinskiyə mandat verildi ki, o Azərbaycan SSR Inqilab Komitəsi tərəfindən RSFSR hökuməti ilə bütün siyasi və iqtisadi məsələlər üzrə danışıqların aparılması və sonrakı ratifikasiya şərtilə ASSR adından istənilən müqavilələr və öhdəliklərin imzalanması üçün fövqəladə səlahiyyətli nümayəndə təyin edilir.[77]

Azərbaycan SSR-in Sovet Rusiyasındakı fövqəladə və səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin başçılıq etdiyi missiyaya aşağıdakı şəxslər daxil edilmişdi: V.T.Slivak (B.Şahtaxtinskinin

katibi), A.G.Timofeyev (katibin köməkçisi), N.I.Solovyov (Xalq Təssərrüfatı Şurasının təmsilçisi), Qasım Camalbəyov, V.N.Xudatov və S.F.Stepanov (Xalq Torpaq Komissarlığının təmsilçiləri), Məmməd Həsən Hacınski (maliyyə işləri üzrə mütəxəssis), I.Ismayılov (Xalq Maarif Komissarlığının təmsilçisi), Fətulla Rüstəmbəyov (neft işləri üzrə mütəxəssis), Məmmədəli Muradəliyev (təsərrüfat hissəsinin müdiri), Fatma Şahtaxtinskaya (reminqtonçu), Ə.Dadaşoğlu (aşpaz).[78]

AKP MK Bürosunun 15 iyul 1920-ci il iclasında Rusiya ilə qarşılıqlı münasibətlər məsələsi müzakirə olunaraq daha bir mühüm qərar çıxarıldı. Qərara alındı ki, Azərbaycan Sovet Rusiyasının federativ hissəsidir. Buna əsaslanaraq, A.Mikoyan, N.Nərimanov, V.Andreev və S.Orconikidzenin tərkıbində olduğu komissiyaya təqdim edilmək üçün Azərbaycanın Sovet Rusiyası və III Internasionalın 2-ci Konqresindəki nümayəndəsi B.Şahtaxtinski tərəfindən müvafiq direktiv hazırlansın.[79]

1920-ci ilin iyulunda A.Mikoyanın imzası ilə AKP MK adından B.Şahtaxtinskiyə mandat verildi ki, o Kominternin II qurultayına (Konqresinə) AKP-nin səlahiyyətli nümayəndəsi kimi göndərilir.

Bu andan başlayaraq Behbud ağa Şahtaxtinskinin həyatında çox əlamətdar, fəal diplomatik missiyası ilə bağlı mərhələ başlandı. Demək olar ki, diplomatik sahədə apardığı mübarizə illəri onun həyatının ən şanlı hissəsi oldu, çünki məhz bu dövrdə o, vətəni Azərbaycana misilsiz xidmətlər

göstərmiş oldu, Azərbaycanın bir sıra ayrılmaz torpaqlarının müdafiəsi yolunda böyük nailiyyətlər əldə etdi. Əqidəli kommunist olmasına baxmayaraq, B.Şahtaxtinski Azərbaycanın milli taleyini müəyyənləşdirən məsələlərin, ilk növbədə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi məsələsinin həllində sırf vətənpərvərlik mövqeyi nümayiş etdirmiş və bununla da ərazi problemlərinin, başlıcası Naxçıvanla bağlı problemin həllində millətə böyük fayda gətirdi, qədim torpaqlarımızın Azərbaycanın tərkibində qalmasını əzmkar faəliyyəti ilə şərtləndirən şəxsiyyətlərdən biri oldu.

Moskvada B.Şahtaxtinski geniş fəaliyyətə başladı. V.İ.Leninə, həmçinin Xalq Xarici İşlər Komissarlığına göndərdiyi bir sıra məruzə və məktublarında o, Sovet Azərbaycanında, ümumiyyətlə Şərqdəki vəziyyəti incəliklərinə qədər xarakterizə etmiş, Azərbaycan SSR-lə RSFSR arasında münasibətlərin möhkəmləndirilməsinə, Sovet Azərbaycanın daxili və beynəlxalq vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş konkret tədbirlər irəli sürmüşdü.

Azərbaycanın fövqəladə və səlahiyyətli nümayəndəsi kimi fəaliyyətə başlayandan sonra Behbud ağa Şahtaxtinski Sovet Rusiyasının Xalq Xarici Işlər Komissarına məktubunda yazmışdı ki, Azərbaycan SSR hökuməti Kommunist federasiyasının tərkibinə daxil olmaq qərarına gəlmişdir. «Azərbaycan kommunistləri dərk edirlər ki, onların borcu tək Azərbaycanda deyil, bütün müsəlman Şərqində böyük inqilabi iş görməkdən

ibarətdir». Bununla belə Şahtaxtinski xəbərdarlıq edirdi ki, «Azərbaycan və Iranda siyasi səhvlər buraxılarsa, Şərqdəki vəziyyət bizimçün ən yaxın zamanlarda pisləşə bilər. Bunu nəzərə alaraq, bizim Şərq siyasətimiz maksimum dərəcədə enerjili olmalıdır. Azərbaycanın timsalında biz Şərqə göstərməliyik ki, Sovet Rusiyasının siyasəti xalqlara nə verə bilər və bununla da Sovet hakimiyyətinə qarşı düşmən təblığatının qarşısını almalıyıq. Azərbaycanın fövqəladə və səlahiyyətli nümayəndəsi kimi Sizin diqqətinizə RSFSR və ASSR arasında qarşılıqlı münasibətlərin qurulması prinsiplərini təklif etməyi özümə borc bilirəm. Zaqafqaziyada və ümumiyyətlə Şərqdə vəziyyətin mürəkkəbliyini nəzərə alaraq tərəfimdən qoyulmuş məsələləri ən qısa müddət ərzində müzakirə və həll etmənizi xahiş edərdim».

Həmin məsələləri B.Şahtaxtinski belə xarakterizə edirdi:

1. Beynəlxalq vəziyyət imkan verən kimi Sovet Azərbaycanı federasiyaya daxil olacaq. Federasiyanın tərkibinə Azərbaycanın rəsmi daxil olmasına qədər o, müstəqil qalmalı və Rusiya ilə ittifaq müqaviləsini bağlamalıdır. Hal-hazırda Azərbaycanın müstəqil qalması həm də ona görə lazımdır ki, Ermənistan və Gürcüstan da hələlik müstəqildirlər və Sovet hakimiyyətinin düşmənləri qeyd edirlər ki, Rusiya ilə ittifaqdan imtina etmiş Ermənistan və Gürcüstan Antantanın köməyi ilə nəinki müstəqilliklərini qoruya və ağır iqtisadi çətinliklərdən özünü qurtara bilmişlər, həmçinin Qızıl Ordunun gəlişindən əvvəl şərtsiz

olaraq Azərbaycana məxsus əraziləri əldə ediblər. Belə şayiələr Türkiyə və Irana çataraq Şərqin azad edilməsi işinə böyük mənəvi zərbə vura bilər.

2. Çevrilişdən əvvəl Azərbaycana məxsus olan ərazilər - Zaqatala dairəsi, Qarabağ, Naxçıvan diyarı - onun tərkibində qalmalıdır. Bu ərazilər Müsavat hökuməti vaxtında mübahisəsiz Azərbaycana məxsus idi və tarixi, etnoqrafik, iqtisadi baxımdan onunla sıx bağlı olmuşdur. Buna görə də Rusiya mənəvi və siyasi nöqteyi-nəzərdən bu torpaqları Azərbaycandan qoparmamalı və burada, Şərqin qapısında, artıq mövcud olan sovet idarələrini əhalisinin gözü qarşısında daşnaklar və gürcü menşevikləri tərəfindən xarabaya döndərməyə imkan verilməməlidir.

3. Azərbaycan Sovet Respublikası hökumətinin nüfuzunun qorunması və ona vahid plan üzrə daxili siyasəti aparmaq imkanının verilməsi üçün Azərbaycanda fəaliyyət göstərən Qızıl Ordu onun daxili işlərinə qarışmamalı və əhalinin maraqlarına toxunan bütün məsələlərdə Azərbaycan Inqilab Komitəsinin qərarı ilə hesablaşmalıdır. Bu, yerli əhalinin gözündə Rusiyanın Sovet Azərbaycanına etimad və hörmət etməsinin ən bariz sübutu ola bilər. Eyni zamanda bu, Qızıl Orduya diqqətini hərbi işlərdə cəmləşdirməyə və risq etmədən Azərbaycan xalq kütlələrinin özünəməxsus həyat tərzi ucbatından yeni və naməlum siyasi və iqtisadi məsələlərlə başını qarışdırmamağa imkan verəcək.

4. Azərbaycanın xalq təsərrüfatı fəaliyyətinin əsasına istər daxili, istərsə də xarici iqtisadi sahədə Rusiya ilə tam birləşmə prinsipini qoymaq lazımdır...

5. Mərkəzlə Azərbaycan arasında qarşılıqlı münasibətlərin dəqiq müəyyənləşdirilməsi gərəkdir, çünki bəzi xalq komissarları Mərkəzdən Azərbaycana yerli hökumət orqanlarını müsadirə və nəzarət etmək hüququ verən mandatlara malik şəxsləri göndərir. Bunun nəticəsində yerli hakimiyyət orqanlarının fəaliyyətinə mərkəzin qarışması baş verir və hökumət xalqın gözündə diskreditasiya olunur.[80]

B.Şahtaxtinskinin Azərbaycanın fövqəladə və səlahiyyətli nümayəndəsi kimi fəaliyyətə başlaması dövründə ikitərəfli, Sovet Azərbaycanı ilə Sovet Rusıyası arasında münasibətlərin xeyli inkişaf etdirilməsi ilə müşahidə olunurdu.

1920-ci il iyunun axırında Azərbaycan SSR-in xarici işlər komissarı M.D.Hüseynov Sovet Rusiyası və Sovet Azərbaycanının qarşılıqlı münasibətləri məsələlərini aydınlaşdırmaq, onların arasında sıx ittifaq yaratmaq, habelə beynəlxalq məsələlər barədə fəaliyyət planını razılaşdırmaq və işləyib hazırlamaq məqsədilə Moskvaya getdi.

1920-ci il iyulun 26-da Moskvaya gələn Azərbaycan SSR-in xalq xarici işlər komissarı M.D.Hüseynovu Azərbaycan SSR-in daimi nümayəndəsi B.Şahtaxtinski ilə birlikdə V.I.Lenin və G.V.Çiçerin qəbul etdilər.

1920-ci il iyulun 10-da AK(b)P MK-da RSFSR hökuməti nümayəndəsinin Şərqdə, o cümlədən

Qafqazda siyasət haqqında məruzəsi dinlənildi.[81] Aydın olurdu ki, Azərbaycan digər Zaqafqaziya respublikalarında Sovet hakimiyyətinin bərqərar olunması yolunda bolşeviklər üçün mühüm bir alət, vasitə, hərbi əməliyyat meydanına çevrilmişdir. Lakin bu yolda ən kəskin problem kimi, Azərbaycanla qonşu ölkələr, ilk növbədə Ermənistan arasında ərazi mübahisələri dururdu.

1920-ci il iyulun 12-də AK(b)P MK Ermənistanla münasibətlər haqqında məsələni müzakirə edərək, onunla danışıqları davam etdirməyi və həmin danışıqlarda RSFSR ilə Azərbaycan SSR missiyalarını birləşdirməyi qərara aldı.[82] Elə həmin vaxt Türkiyə qoşunlarının hələ də qaldığı Naxçıvan haqqında məsələ müzakirə olundu.

Sovet Rusiyasının Azərbaycan ilə Ermənistan arasında münaqişələrinin həllində konkret hərəkətlərində ermənipərəst əhval-ruhiyyəsi xüsusilə, Naxçıvan diyarına münasibətdə özünü aydın göstərirdi. Ermənilərə ənənəvi meyl, himayədarlıq amili ilə yanaşı, Sovet Rusiyasının ermənipərəst mövqe tutmasında konkret geosiyasi motivlər də özünü büruzə verirdi. Azərbaycanı artıq ələ keçirmiş rus bolşevikləri erməni xalq kütlələrini öz tərəfinə çəkmək üçün Ermənistanı torpaq hədiyyələri ilə şirnikləndirməyi məqsədəuyğun saymış və Zaqafqaziyadakı geosiyasi mübarizədə bu amildən lazımınca istifadə etməyi zəruri hesab etmişdilər.

Şərq cəbhəsi komandanlığının əmri ilə Naxçıvan diyarının müdafiəsinə köməyi təşkil etmək

məqsədilə 1920-ci ilin mayından etibarən təqribən səkkiz ay Naxçıvanda olmuş general Veysəl Ünüvar qeyd edirdi ki, «Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ruslar ikiüzlü siyasət yeridirlər. Ermənilərə xoş olsun deyə ruslar imkan daxilində bütün vasitələrdən istifadə edirdilər».[83]

RSFSR hökuməti Azərbaycanla bərabər Türkiyəyə qarşı da ikili siyasət yeridirdi. Belə ki, bir tərəfdən XI Ordu komandanlığı Bakıdan Türkiyə hökumətinin Şərq cəbhəsi komandanına məktub göndərərək (1920-ci ilin iyulunda) «Azərbaycana və Türkiyəyə münasibətdə Ermənistan tərəfindən hər hansı düşmənçilik hərəkətlərinin dayandırılmasını labüd şərt kimi irəli sürür[84], digər tərəfdən XI Orduya komandanlığın əmri ilə (1920-ci iyul-avqust) erməni ordusuna hücum etmək əmri vermir».[85]

Əslində bu regionda Rusiyanın ikili mövqeyi, onun «vahid və bölünməz» imperiya maraqlarından irəli gəlirdi. Bu haqda sonralar Behbud Şahtaxtinski demişdi ki, Azərbaycan Türkiyə ilə Rusiya arasında bir əlaqə vəsiləsidir. Şərqin oyanması üçün gələcək bəşər məqsədinin körpüsüdür. Iki tərəfdən dartılan sallaq vəsilədir. Rusların at oynatmaq istədikləri körpüdür.

Azərbaycanın fövqəladə nümayəndəsi və AKP-nin səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski Sovet Rusiyasının bəzi Azərbaycan torpaqlarının Ermənistana verilməsi planlarını çox gözəl bildiyindən 4 avqust 1920-ci ildə RSFSR XKS-in sədri V.Leninə və

xalq xarici işlər komissarı G.Çiçerinə məktub göndərdi. Məktubda deyilirdi:

«Ermənistanla sülhün bağlanılması ilə bağlı məlumatları nəzərə alaraq, mən aşağıdakıları bildirməyi özümə borc bilirəm:

1. Ermənistana demək olar ki, bütün Naxçıvan diyarının və Şahtaxtı-Irəvan dəmiryol xəttinin verilməsi daşnaklara Bakı dəmiryolunu istifadə etməyə və Maku xanlığından köhnə ehtiyatdan 8 mln. pud, təzə məhsuldan 3 mln. pud buğda, 20 mindən az olmayaraq iri qaramal, milyonlarla pud quru meyvələr çıxarmağa imkan verəcək. Azərbaycan və Sovet Rusiyasına, şübhəsiz ki, lazım olan bu ehtiyatlar daşnaklar tərəfindən ən qısa müddət ərzində dəmiryol vasıtəsilə çıxarılacaq.

2. Daşnaklara Şahtaxtı-Maku, Şahtaxtı-Irəvan, Culfa-Təbriz dəmiryollarının və Urmiya gəmiçiliyinin verilməsi ilə zəngin Iran ehtiyatlarının Ermənistan, Gürcüstan və Avropaya sərbəst ixracı baş verəcək ki, daşnaklar, Iran kapitalistləri və Ingiltərə buna üç il ərzində səmərəsiz nail olmağa çalışırdılar.

3. Bu ehtiyatların köməyilə daşnak hökuməti erməni xalqının narazılığını sakitləşdirmək, Antantanın gücünə inamını möhkəmləndirmək, Sovet Rusiyasına qarşı öz nüfuzunu qaldırmaq və tək özünün deyil, gürcü ordusunu da əla təmin etmək imkanı əldə edəcəkdir.

4. Ermənistana Şahtaxtı-Irəvan (100 verst) və Şahtaxtı-Culfa dəmiryol xətlərinin nəqliyyat vasitələrinin hamısı ilə birgə keçməsi daşnakların

əlinə bütün Iran Azərbaycanını keçirir, onları Irandakı ingilis qüvvələri ilə birləşdirir, bizi isə türk inqilabi hərəkatı ilə istənilən əlaqədən məhrum edir.

5. Naxçıvan diyarı böyük siyasi, iqtisadi və strateji əhəmiyyətə malikdir, çünki buradan bir dəmiryol xətti İranın Maku xanlığına və oradan Türkiyənin Bayəzid şəhərinə, digəri isə Iranın Təbriz şəhərinə aparır. Beləliklə, mühüm dəmir yolu məntəqəsi kimi Naxçıvan diyarı bizi Türkiyə ilə və Iranın zəngin əraziləri ilə birləşdirir. Daşnakların xeyrinə bu vacib birləşdirici məntəqədən Azərbaycan və Rusiya imtina etməməlidirlər.

6. Naxçıvan diyarının əhalisi 1918-ci ildə türklərin gedişindən sonra müvəqqəti olaraq Araz Respublikasının yaradılmasını elan etmişdi. Bir neçə il ərzində Naxçıvan diyarının əhalisi öz müstəqilliyini daşnaklardan qoruyurdu... Diyarı ələ keçirmiş Ingiltərənin müdaxiləsi nəticəsində diyar zorla, əhalinin etirazına baxmayaraq, daşnaklara verildi. Ancaq ingilis qoşunları buranı tərk etdikdən dərhal sonra üsyan başladı. Nizami daşnak qoşunları... darmadağın edildilər... Bu diyarın daşnaklara verilməsi xalqların özünütəyin prinsipini və Sovet Azərbaycanının hüquqlarını açıq pozur.

7. Naxçıvan diyarının xalqı Sovet quruluşunu tətbiq etdi, kommunistlərin simasında xilaskarlarını gördü, o ağlına gətirməzdi ki, Sovet Rusiyası, əhalinin iradəsinə qarşı çıxaraq, diyarı daşnaklara verəcək, hərçənd ki, onların hakimiyyəti altında nəinki Sovet quruluşu məhv edilir, həmçinin daşnak Ermənistanın

ərazisində yüzlərlə müsəlman kəndlərinin başına gəldiyi kimi, əhalinin fiziki mövcudluğuna açıq-aydın təhlükə yaranır. Ümid edirəm ki, Sovet Rusiyasının hökuməti mənim bəyanatımı diqqətsiz qoymayacaq və Sovet Azərbaycanının və Sovet Rusiyasının özünün hüquqları və maraqlarının pozulmasına yol verməyəcək. Zənnimcə, yaranmış vəziyyətdən ən yaxşı çıxış yolu Azərbaycanla Ermənistan arasında ərazi mübahisələrinin tam həllinə qədər bütün Naxçıvan diyarının əvvəlki sərhədlərə kimi Qızıl Ordu tərəfindən tutulmasıdır».[86]

B.Şahtaxtinskinin bu məktubu, sözsüz ki, çox mühüm siyasi bir sənəd idi. Azərbaycanın çətin bir dövründə, onun ərazilərindən məhrum edilməsi ehtimalının yüksək olduğu bir şəraitdə diplomat B.Şahtaxtinski Sovet Rusiyasının başçısı qarşısında ərazilərin itirilməsi ilə razılaşmayacaq bir xalqın iradəsini qoydu. Əlbəttə, bu mövqe bəzi hallarda həlledici rol oynamırdı, çünki kiçik bolşevik Azərbaycan böyük bolşevik imperiyasına çevrilən Rusiyanın əlində bir vint idi. Lakin B.Şahtaxtinskinin söylədiyi fikirlər, ortaya atdığı prinsipial siyasi-diplomatik mövqe nəzərə alınmaya bilməzdi və nəticədə o, baş verən hadisələr və proseslərə bilavasitə təsir göstərmiş oldu.

Azərbaycan Respublikası hökumətinin səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin Sovet Azərbaycanının vəziyyəti haqqında gətirdiyi materiallarla tanışlıqdan sonra G.V.Çiçerin 1920-ci il avqustun 4-də RK(b)P MK Siyasi bürosuna məktubla

müraciət etdi. Məktubda «bizim Qızıl Ordu hissələrinin yerli komandirləri Azərbaycan hökuməti ilə əsla hesablaşmırlar... və onların himayədarlığı altında sırf müstəmləkəçilik siyasəti yeridilir» yazan G.V.Çiçerin «müstəmləkəçiləri cilovlamaq məqsədilə» təcili tədbirlər görməkdən ötrü bu məsələni öyrənmək üçün xüsusi komissiya yaratmağı təklif etmişdi.[87]

4 avqust 1920-ci ildə Sovet Rusiyasının Xalq xarici işlər komissarı RKP MK-nın Siyasi Bürosuna məktubunda yazırdı: «Bakıdan gəlmiş Azərbaycan Sovet hökumətinin səlahiyyətli nümayəndəsi yoldaş Şahtaxtinski Sovet Azərbaycanın ağır və ziddiyyətli vəziyyəti barədə zəngin materiallr gətirib. Bizim Qızıl Ordu hissələrinin yerli komandirləri Azərbaycan hökuməti ilə hesablaşmır, özünü özbaşına aparır və onların himayəsi ilə əsl müstəmləkəçilik siyasəti yürüdülür... rus əhalisi özünü müstəmləkəçi kimi aparır və müsəlman əhalisini müxtəlif sıxıntı və incikliklərə düçar edir... Bu məsələnin öyrənilməsi və bəzi təxirəsalınmaz tədbirlərin qəbul edilməsi ilə bağlı Siyasi Büroya xüsusi komissiyanı yaratmağı təklif edirəm...».[88]

V.I.Leninin iştirakı ilə 1920-ci il avqustun 5-də PK(b)P MK plenumu Azərbaycan SSR və RSFSR arasında qarşılıqlı münasibətlər haqqında məsələni müzakirə etdi və G.V.Çiçerin başda olmaqla komissiyaya müvafiq layihə hazırlamağı tapşırdı.[89]

Azərbaycan SSR ilə RSFSR arasında qarşılıqlı münasibətlər haqqında məsələ sentyabrın 6-da

AK(b)P MK və BK-nın birləşmiş iclasında məsul işçilərin iştirakı ilə həmkarlar ittifaqlarının rəyasət heyətlərində də müzakirə olundu.[90]

1920-ci il sentyabrın 20-də ASSR-in RSFSR-dəki fövqəladə və səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski yenə də bilavasitə RSFSR XKS-in sədri V.Leninin adına Azərbaycan haqqında və bununla əlaqədar Qafqazda, Türkiyə və Iranda vəziyyət barədə ətraflı məruzə təqdim etdi.

O bolşeviklərin şərq siyasətini kəskin tənqid edərək göstərirdi ki, Azərbaycan xalqı demək olar ki, bütün Naxçıvan diyarının Ermənistana verilməsi barədə xəbərdən dəhşətə gəlmişdi. Üç il ərzində Ingiltərə, Iran və Ermənistan var gücləri ilə bu mühüm strateji, iqtisadi və siyasi dəmiryol xəttini ələ almağa can atırdılar, lakin diyarın zəhmətkeş xalqı bu vacib yeri qanı hesabına qoruya bildi və Sovet hakimiyyətinin düşmənlərinə təhvil vermədi... Azərbaycanın timsalında biz Gürcüstan, Ermənistan, Iran və Türkiyəyə göstərməliydik ki, Sovet Rusiyasının siyasəti bu ölkələrinin xalqlarına nə verə bilər... Ancaq biz tərəfdən bir-birinin ardınca siyasi səhvlər buraxıldı və Şərq ölkələrinin simpatiyası Ingiltərənin xeyrinə dəyişməyə başladı... Türkiyə ilə ittifaq bizə onların Şərqdə imperialistlərə qarşı mübarizədə təsirindən geniş istifadə etmək imkanı verə bilər, ancaq türklərlə ən sıx və səmimi ittifaqın yaranması üçün bizim siyasətimizdə sözlərin və işlərin uyğunluğu gərəkdir. Ermənistana Naxçıvan diyarının verilməsi nəticəsində Türkiyə ilə nəqliyyatın

dayandırılma ehtimalı... eləcə də Rusiya tərəfindən yaxın gələcəkdə Ermənistana Anadolunun bəzi vilayətlərinin verilməsi ilə bağlı işarələr türkləri çox sarsıdır... Daha sonra o qeyd edirdi ki, Ingiltərənin vasitəçiliyi ilə Gürcüstan, Ermənistan və Iran Azərbaycanı əldə etmək məqsədilə Rusiyaya qarşı ümumi çıxış etmək üçün müsavatçılarla razılıq əldə edirlər. Əvəzində Gürcüstan Zaqatala dairəsi və nefti güzəştli əsasla almaq hüququnu, Ermənistan - Zəngəzur və Naxçıvan diyarını alır, Iran isə müsəlman ölkəyə münasibətdə öz «müsəlman borcu»nu yerinə yetirir. B.Şahtaxtinski Amerikada 25 minlik erməni dəstəsinin təşkil edildiyini və Andranikin başçılığı altında Ermənistana göndərildiyini də V.İ.Leninin nəzərinə çatdırmışdı.

Vaxtilə V.İ.Lenin Rusiyanın Şərqdə yeritdiyi siyasətin mahiyyətini gizlədərək yazmışdı ki, «bizim taktikamızı eynilə tənqid etmək deyil, bu taktikanın spesifikliyinin səbəbləri, şəraiti və yekunları üzərində müstəqil düşünmək lazımdır. 1917-1918-ci illərin təcrübəsinin formasını deyil, ruhunu, mənasını, dərslərini öz ölkənizdə tətbiq etmək lazımdır. İqtisadi cəhətdən dərhal xarici kapitalist ölkələri ilə əmtəə mübadiləsinə istinad etmək lazımdır...

Kəndlilərin vəziyyətini dərhal yaxşılaşdırmağa çalışmaq və elektrikləşdirmə, suvarma sahəsində böyük işlərə başlamavq lazımdır. Suvarma hər şeydən çox vacibdir və ölkənin simasını hər şeydən çox dəyişdirər, onu yenidən canlandırar, keçmişi dəfn edər, sosializmə keçməyi möhkəmləndirər və s.».[91]

Bütün bunları nəzərə alaraq B.Şahtaxtinski belə nəticəyə gəlmişdi ki, boşleviklərin Azərbaycanda uğursuz siyasəti Azərbaycanla qonşu ölkələrdə elə bir təəssürat yaradıb ki, Rusiya ilə ittifaq yalnız aclıq, dağıntı və müstəqilliyin itirilməsi ilə müşayiət edilir. «işimizdən əl çəkmək olmaz, çünki əgər Sovet Rusiyası fəaliyyətini dayandırsa, Antanta, əksinə, Şərqin qüvvələrini bizə qarşı fəal mübarizə üçün istifadə edəcək. Vəziyyətin mürəkkəbliyi Azərbaycan, Iran və Türkiyədə işi Şərq ölkələrin yerli şəraiti və xalq kütlələrin psixologiyasını bilən işçilərə tapşırmağı qəti surətdə diktə edir. Bu ölkələrlə bağlı siyasətə rəhbərlik etmək üçün ən münasib şəxs, zənnimcə, Şərqdə populyar olan yoldaş Nərimanovdur. Mərkəzin nəzarəti altında işçiləri seçmək, Şərqdə taktiki fəaliyyəti təyin etmək və aparmaq hüququnu ona vermək lazımdır...».

RKP(b) MK Siyasi Bürosunun 17 oktyabr 1920-ci il tarixli iclasında qərara alındı ki, Azərbaycan, xüsusilə də Bakı partiya təşkilatlarınının rəhbərlərinə müsəlman kommunistlərinin hazırlaşdırılıması və tərbiyələndirilməsinə əsas diqqəti yönəltmək, bu məqsədlə xüsusi məktəblər yaratmaq və hər üç ay bu yolda əldə olunmuş nailiyyətlər haqqında Qafqaz Bürosunu və RK(b)P MK-nı məlumatlandırmaq tapşırılsın.[92]

RK(b)P MK-nın Azərbaycan əməkdaşlarına aid direktivində isə qeyd edilirdi:

1. Asılı, yarımmüstəmləkə Türkiyə və Iranla həmsərhəd və onlarla məişət, mədəniyyət və qismən

dil birliyi ilə bağlı olan müstəqil Sovet Azərbaycanının vəziyyəti bu dövlətlərin zəhmətkeş kütlələrində Sovet Azərbaycanına qarşı rəğbət hissi oyadır... Bu hal Azərbaycan partiya təşkilatlarını Sovet Azərbaycanını nümunəvi respublika kimi Türkiyə və Iranın fəhlə və kəndlılərinin təsəvvüründə təqlid misala çevrilməyə nail olmağa sövq edir.

2. Bakı proletariatının milli tərkibinin müxtəlifliyi (ruslar, iranlılar, azərbaycanlılar, ermənilər) Azərbaycan fəhlə sinfinin birliyinin zəifləməsi təhlükəsini yaradır; həmçinin Bakı proletariatının əksəriyyəti milli və dini qalıqlardan azad olmayan Azərbaycan kəndliləri arasında milli birliyin olmaması Azərbaycanda sovet hakimiyyətinin dayağı olan fəhlə və kəndlilərin ittifaqının möhkəmləndirilməsini çətinləşdirir... Sovet və partiya orqanlarının Azərbaycanın zəhmətkeş kütlələrinin məişəti, mədəniyyəti və milli tərkibinin xüsusiyyətlərini nəzərə almayan hər bir ehtiyatsız addımı fəhlə sinfi arasında ədavətə və ya fəhlə və kəndlilər arasında ittifaqın pozulmasına gətirib çıxara bilər. Bu hal Azərbaycanın partiya təşkilatlarına sıralarında müstəsna birliyi qorumağı, öz işində əhalinin milli məişət xüsusiyyətlərini əsaslı şəkildə nəzərə almağı, nəinki zəhmətkeş kəndlilərin maraqlarına, həmçinin onun milli və dini qalıqlarına diqqətli münasibət göstərməyi tələb edir».

Bu müddəaları nəzərə alaraq, RKP (b) Mərkəzi Komitəsi qərara aldı:

«Şərqin zəhmətkeş kütlələrinin azad olunmasının yolunu göstərən nümunəvi Sovet Respublikası kimi Azərbaycanın dövlət müstəqilliyini inkişaf etdirmək və gücləndirmək;

Azərbaycanın yerli əhalisinin geniş təbəqələrinin Sovet quruculuğuna cəlb edilməsinə xüsusi diqqət nümayiş etdirmək, onların milli-məişət xüsusiyyətlərini və mədəni səviyyəsini nəzərə almaq;

Azərbaycanın yerli əhalisinin şəhərli və kəndli proletar və yarımproletar ünsürlərinin partiyaya cəlb edilməsinə xüsusi diqqət yetirmək;

Azərbaycan, xüsusilə də Bakı partiya təşkilatlarınının rəhbərlərinə müsəlman kommunistlərinin özək katibləri və digər məsuliyyətli partiya vəzifələrinin roluna hazırlaşdırılıması və tərbiyələndirilməsinə əsas diqqəti yönəltmək, bu məqsədlə xüsusi məktəb yaratmaq və hər üç aydan bir bu yolda əldə olunmuş nailiyyətlər haqqında Qafqaz Bürosunu və RKP(b) MK-nı məlumatlandırmaq tapşırılsın;

Partiya təşkilatlarında narazılığın fəhlə sinfinin içində ədavətə gətirib çıxara biləcəyini, fəhlə sinfinin içində ədavətin isə Azərbaycanda xüsusilə təhlükəli olan milli mübarizəyə gətirib çıxara biləcəyini nəzərə alaraq Azərbaycanın partiya təşkilatlarının şərtsiz birliyini təmin etmək;

Partiyadan xaric edilmək qorxusu ilə fraksiyaların yaranmasını və fraksıyalar arası mübarizəsinin qarşısını almaq; bu direktivin dəqiq

icrasına nəzarəti RKP (b) MK-nın Qafqaz bürosunun üzərinə qoymaq və s.».[93]

9 noyabr 1920-ci ildə AKP MK-nın Rəyasət heyəti RKP Mərkəzi Komıtəsinə məktub göndərərək bildirdi ki, Bakı Komitəsi direktivi təcili icraya qəbul edir. Eyni zamanda qeyd edildi ki, BK bu yolda çoxdandır ki, durmuşdu, müsəlmanlar arasında iş onun fəaliyyətinin aparıcı istiqamətidir. Partiya məktəbləri açılır, komitələrdə, şöbələrdə müsəlman təcrübəçilər işləyir. Nəticədə özək katiblərinin 20 faizi, BK-nın məsuliyyətli Sovet və həmkarlar ittifaqlarının işçilərinin 50 faizi müsəlmanlardır. Fraksiyalara gəldikdə isə bildirildi ki, yalnız bir fraksiya partiya içində pozucu fəaliyyətlə məşğuldur və BK-nın Rəyasət Heyəti Axundova tapşırıq verib ki, bu məsələni RK(b)P MK Siyasi Bürosuna çıxarsın və kimlə bağlı olursa-olsun istənilən fraksiyanın ləğv edilməsinə təkid etsin.[94]

V.I.Leninin rəhbərliyi və A.A.Andreyevin, F.E.Dzerjinskinin, M.I.Kalinının, I.V.Stalinin iştirakı ilə 1920-ci il sentyabrın 20-də RK(b)P MK plenumu Azərbaycan SSR-lə müqavilənin Xalq Xarici Işlər Komissarlığının təqdim etdiyi layihəsini müzakirə etdi. Plenum «Azərbaycan Respublikası ilə müqavilə XKS-yə təqdim edilənə qədər gözdən keçirilmək və Azərbaycan haqqında bizim siyasətimizin xarakterinə dair partiya qərarını həmin müqaviləyə əlavə etmək üçün» komissiya yaratmağı qərara aldı.[95]

Azərbaycan SSR-in fövqəladə və səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski müqavilənin

hazırlanmasında fəal iştirak edirdi. Müqavilənin layihəsi Azərbaycanda da müzakirə olunmuşdu.

RSFSR ilə Azərbaycan SSR arasında müqavilə haqqında məsələnin həlli bilavasitə partiya rəhbərliyi altında gedirdi. 1920-ci il sentyabrın 29-da V.I. Leninin sədrliyi ilə RK(b)P MK plenumu Azərbaycan SSR ilə RSFSR arasında bağlanacaq müqaviləni təsdiq etdi.[96]

Beləliklə, hərbi və iqtisadi ittifaq haqqında Azərbaycan SSR ilə RSFSR arasında müqavilə 1920-ci il sentyabrın 30-da RSFSR hökuməti adından Xalq Komissarları Sovetinin sədri V.İ.Lenin və Azərbaycan hökuməti adından Xalq Ədliyyə Komissarı B.Şahtaxtinski tərəfindən Moskvada imzalandı. Müqavilədə göstərilirdi ki, bir tərəfdən Azərbaycan SSR hökuməti, digər tərəfdən RSFSR hökuməti «Azərbaycan və Rusiyanın zəhmətkeş kütlələrinin tam mənafe birliyinin dərk olunmasını əsas tutaraq və ancaq hər iki respublikanın bütün qüvvələrini tam birləşdirməklə ümumi düşmənə - imperialist burjuaziyasına qarşı ağır mübarizədə onların müvəffəqiyyət qazanmalarının təmin oluna biləcəyini nəzərə alaraq bu müqaviləni bağlamağı qərara almışlar».[97]

Müqavilə 4 maddədən ibarət idi.[98]

Onun birinci maddəsində deyilirdi: «Azərbaycan və Rusiya öz aralarında sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar». Ikinci maddədə göstərilirdi ki, «hər iki respublika hərbi orqanlarını, xalq təsərrüfatı, xarici ticarət, təchizat, dəmiryol və su

nəqliyyatı, maliyyə, poçt və teleqraf orqanlarını ən qısa müddətdə birləşdirməlidirlər».

RSFSR ilə Azərbaycan SSR arasında bağlanmış bu müqavilə əslində Mərkəzin Azərbaycana münasibətdə imperiya siyasətini pərdələmək vasitəsi idi.

Elə həmin gün - sentyabrın 30-da G.İ.Çiçerin və B.Şahtaxtinski RSFSR hökuməti və Azərbaycan hökuməti arasında ərzaq siyasətinin, poçt, teleqraf, telefon, radioteleqrafın idarəedilməsinin birləşdirilməsi, maliyyə, xarici ticarət məsələlərində vahid iqtisadi siyasətin həyata keçirilməsi haqqında ayrı-ayrı sazişlər imzaladılar.[99]

RSFSR hökuməti və ASSR hökuməti arasında vahid iqtisadi siyasətin həyata keçirilməsi haqqında müqavilədə qeyd edilirdi: Azərbaycan Xalq Təsərrüfatı Şurası (AXTŞ) RSFSR-in ümumi istehsalat planı ilə uyğun olaraq istehsalat planı tətbiq edir, iki respublikanın vahid əmtəə fondu prinsipindən çıxış edərək, AXTŞ sərəncamında olan xammal və fabrikat ehtiyatlarını Azərbaycan Respublikası yanında Ümumittifaq Xalq Təsərrüfatı Şurasının (ÜXTŞ) səlahiyyətli nümayəndəsi ilə razılaşdırdıqdan sonra bölməlidir. ÜXTŞ Azərbaycan sənayesinin maliyyələşdirməsi barədə öhdəliyi öz üzərinə götürürdü. RSFSR ərazisində fəaliyyət göstərən inhisarlar tədricən Azərbaycan Respublikasının ərazısində fəaliyyətə başlamalı idi. Azərbaycanda xüsusi inhisarların tətbiqi yalnız ÜXTŞ ilə razılaşdırılmalı idi. Xammal və fabrikatlara vahid qiymətlər tətbiq edilməli idi. ÜXTŞ ASSR-in XTŞ-i

yanında həlledici səs hüququ ilə səlahiyyətli nümayəndəsini təyin edir.[100]

RSFSR hökuməti və Azərbaycan SSR hökuməti arasında xarici ticarət məsələləri haqqında müqaviləyə əsasən, Azərbaycanın başqa ölkələrlə iqtisadi münasibətləri RSFSR Xalq Xarici Ticarət Komissarlığının (XXTK) tətbiq etdiyi ümumi prinsiplər və qaydalar əsasında aparılmalı idi. Zaqafqaziya, Iran və Türkiyə ilə ticarət əlaqələrinin aparılması Azərbaycan Respublikasının Xarici Ticarət idarəsinə tapşırılırdı. Yalnız neft Azərbaycan xarici ticarət idarəsinə RSFSR ÜXTŞ və XXTK ilə razılaşdırılmadan sonra verilməli idi. Azərbaycanın digər ölkə ilə ticarət müqavilələrinin bağlanılması RSFSR XXTK ilə ilkin müzakirədən sonra baş verə bilərdi. RSFSR Xalq Xarici Ticarət Komissarlığı Azərbaycan SSR Xalq Komissarları Şurası yanında həlledici səs hüququ ilə səlahiyyətli nümayəndəsini təyin etməli idi.[101]

Poçt və teleqrafın idarə olunmasının birləşdirilməsi haqqında sazişdə bildirilirdi ki, Rusiya Respublikasından gedən əsas rabitələr, Azərbaycan ərazisindəki güclü radiostansiyalar, habelə beynəlxalq poçt-teleqraf rabitəsi bilavasitə RSFSR Xalq Poçt və Teleqraf Komissarlığının tabeliyindədir.[102]

RSFSR hökuməti və Azərbaycan SSR hökuməti arasında maliyyə məsələləri haqqında müqavilədə göstərilirdi ki, ASSR keçmiş əsaslara uyğun olaraq Azərbaycan hüdudlarında tədavül və Zaqafqaziya, Iran və Türkiyə ilə ticarət hesablamalarının aparılması üçün bonlar buraxır.

Buraxılan bonların miqdarı iki respublikanın hökumətləri arasında müqavilə ilə müəyyən edilməli idi. RSFSR Xalq maliyyə komissarlığı ASSR Xalq Komissarları Şurası yanında həlledici səs hüququ ilə səlahiyyətli nümayəndəsini təyin etməli idi.[103]

RSFSR hökuməti ilə Azərbaycan SSR hökuməti arasında hərbi-dəniz məsələlərinə dair əlavə saziş də imzalanmışdı. Sazişdə Azərbaycanın öz qızıl ordusu və hərbi donanması olması hüququ təsbit edilsə (maddə I) də onlar Rusiyanın hərbi hərəkətləri zamanı bütün münasibətlərdə Rusiya Hərbi Qüvvələrinin Qafqaz cəbhəsinə tabe edilməli idi, Azərbaycan Ordusu isə Rusiyanın müvafiq ordusuna daxil idi (maddə 4). Hərbi-Dəniz aparatı Rusiyanın müvafiq komandanlığının tabeçiliyinə keçirdi. RSFSR-in Xəzər dənizindəki donanmasının komandanı həm də Azərbaycan Donanmasının komandiri sayılırdı.

RSFSR hökuməti və Azərbaycan SSR hökuməti arasında həmçinin yuxarıda adı çəkilən müqavilələrin prinsipləri ilə analoji olan ərzaq siyasətinin birləşdirilməsi haqqında müqavilə də bağlanıldı.[104] 1921-ci ilin noyabrında Azərbaycanda RSFSR-in baş konsulluğu fəaliyyətə başladı.

7 oktyabr 1920-ci ildə Azərbaycanın fövqəladə və səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinski Sovet Rusiyasının başçısı V.İ.Leninə növbəti məktub göndərdi. Orada deyilirdi: «Vladimir Iliç! Sizin sayənizdə Azərbaycanla müqavilə bağlanıldı və onun düzgün icra edilməsi ilə Azərbaycanda Sovet quruluşunu möhkəmləndirəcək və onu həqiqətən xalq

quruluşuna çevirəcək qərarlar qəbul edildi... Ona görə də Bakıya qayıtmazdan əvvəl bu sətirlərlə Azərbaycanın zəhmətkeş kütlələri adından və öz adımdan Sizə dərin və səmimi minnətdarlığımı bildirirəm».[105] Lakin RSFSR və Azərbaycan SSR arasında bağlanan müqavilələr əslində bərabərhüquqlu müqavilələr deyil, mərkəzin imperiya siyasətini həyata keçirmə vasitəsi idi.

Sırf diplomatik fəaliyyəti ilə yanaşı, ASSR-in Sovet Rusiyasındakı fövqəladə və səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski bəzi humanitar məsələlərin həlli ilə də məşğul olurdu. Belə ki o, Rusiyada oxuyan müsəlman tələbələrə kömək, himayədarlıq edirdi. 15 avqust 1920-ci ildə Sverdlov adına Kommunist Universitetində Bakıdan, AKP-dən göndərilib təhsil alan 17 qafqazlı tələbələr qrupu adından qəbz verilmişdi ki, B.Şahtaxtinski onların ehtiyaclarının ödənilməsi məqsədilə iki torba un, 36 ədəd sabun, 1 funt yağ, 1 pud ikra, 1 pud düyü, həmçinin balıq, çay, iynə-sap, papiros, kibrit vermişdi.[106]

Bununla bağlı verilən vəsiqədə B.Şahtaxtinskinin özü hərbi və mülki hakimiyyət orqanlarından xahiş edirdi ki, qeyd olunan ərzaq məhsulları və malları müsadirə edilməsin.[107]

RK(b)P MK-nın 1920-ci il sentyabrın 20-21-də keçirilmiş plenumu «Qafqazda və Şərqdə» siyasəti «qaydaya salmaq» barədə tapşırıqla I.V.Stalini Qafqaza göndərmək haqqında qərar çıxarmışdı. Bu məqsədlə İ.V.Stalin 1920-ci il oktyabrın 16-da Şimali

Qafqaza və Azərbaycana yola düşdü. 1920-ci il noyabrın 4-də Stalinin sədrliyi ilə AK(b)P MK Siyasi bürosu, RK(b)P MK Qafqaz bürosu üzvlərinin iştirakı ilə «Ermənistanda vəziyyət» haqqında məsələ müzakirə etdi. Ermənistan, Azərbaycan və Tükiyənin qarşılıqlı münasibətləri məsələlərinin həllində İ.V.Stalin Rusiyanın mənafelərindən çıxış edərək, həmişə Ermənistanın mövqeyini müdafiə edirdi. O, deyirdi: «Əgər bilmək istəyirlərsə ki, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar».[108]

AK(b)P Mərkəzi Komitəsi, AK(b)P Bakı Komitəsi, RK(b)P Mərkəzi Komitəsi, Azərbaycan Inqilab Komitəsi, Bakı Icraiyyə Komitəsi, Azərbaycan SSR xalq komissarlıqları, rayon icraiyyə komitələrinin rəyasət heyətlərinin 9 noyabr 1920-ci il tarixli birləşdirilmiş iclasında da I.V.Stalin Azərbaycanda sovet fəaliyyəti haqqında məruzə ilə çıxış etdi. O qeyd etdi ki, Azərbaycanda qətnamələrin qəbul edilməsi mərhələsindən praktiki işə keçmək lazımdır. İ.V.Stalin bəyan etdi: «Bir yeməkxana 20 qətnamədən yaxşıdır. Fəhlələrlə sovet təşkilatları arasında real bağlılığı təmin etmək üçün kütləllərin qəlbinə toxunmaq lazımdır. Ilk növbədə ən acı problem olan mənzil problemini həll etmək lazımdır».[109]

Azərbaycanın müstəqilliyi məsələsi ilə bağlı bolşeviklərin liderlərindən olan İ.V.Stalin bildirirdi: «Mən Azərbaycanın müstəqilliyini qəbul etmirəm,

çünki kommunistlərin bir hissəsi başqasından müstəqil ola bilməz. Bakının yanacağı olmadan Sovet Rusiyası yaşaya bilməz. Sovet Rusiyasının, onun təşkılatçılığı və ordusunun köməyi olmadan Azərbaycan məhv ola bilər. Burada tam birlik lazımdır. Bütün dövlətlər ya Sovet Rusiyası ilə, ya da Antanta ilə bərabər olmalıdır, üçüncü yol yoxdur. Lakin burjuaziyanın agentləri deyirlər ki, rus gəlib Azərbaycanı yeyib, bizə qarşı ziyalıları qaldırırlar, onların kəndlə əlaqəsi bizimkindən daha sıxdır və orada millətçilik hissləri yayırlar. Bu silahı ziyalıların əlindən qoparmaq üçün, biz deməliyik ki, Azərbaycan könüllü şəkildə Rusiya ilə ittifaqa girən müstəqil bir ölkədir. Bu ittifaqsız Rusiya zəifləyə, Azərbaycan isə Antantanın hakimiyyəti altına düşə bilərdi».[110]

Azərbaycan üçün prinsipial olan, ümummilli əhəmiyyət daşıyan məsələlərdən biri kimi Azərbaycan dilinin yeni siyasi şəraitdəki statusu idi. Bu məsələ ilə bağlı İ.V.Stalin bildirdi: «Sizdə iki dövlət dilidir, federasiyanın hissəsi olduğunuza görə rus dili və yerli türk dili. Məhkəmələr və inzibati idarələr də türkcə işləməlidirlər, bütün dekretlər və qərarlar iki dildə çıxmalıdır».[111]

Bölgədə baş verən hadisələrlə, xüsusilə Mustafa Kamalın başçılığı ilə hərbi-siyasi vəziyyətini addımbaaddım möhkəmləndirən Türkiyənin siyasəti ilə əlaqədar olaraq İ.V.Stalin Moskvanın mövqeyini aşağıdakı tərzdə açıqladı: «Kamalçılarla əlaqəmiz yoxdur. Mən fikirləşirəm ki, Kamal Aleksandropolu tutmaq istəyir ki, Ermənistanı Gürcüstandan ayırsın və

Antanta tərəfindən türk hökumətinə zorla qəbul etdirilən bir sıra vilayətlərin Ermənistana verilməsi barədə müqavilədən əl çəkməyə məcbur etsin. Kamal ermənilərin Cənubi Azərbaycanda yaşadığı bir sıra vilayətləri Türkiyənin nəzarəti altında saxlamaq istəyir. Türklər yazır ki, Ermənistanı daşnaklardan azad etmək istəyirlər. Bu, boş şeydir. Kamalçılar Antanta ilə mübarizə edən burjua-inqilabi partiyadır. Rusiyanın Kamalın Ermənistana aid məqsədlərinə münasibəti mənfidir. Sovet hakimiyyəti Kamala dayanmağı təklif etməlidir ki, Ermənistanı məhv olmaqdan xilas edə bilsin. Kamalçılar Antanta ilə danışıqlara girmək istəyir, Ingiltərə get-gedə, Şərqdəki həyəcanların təsiri altında güzəştə meylli olur. Istisna etmək olmaz ki, Türkiyə Antanta ilə barışıb, Antantanın bizə qarşı apardığı mübarizə meydanı olacaq, eyni zamanda onun Antantaya qarşı müharibənin davam etdirilməsini istisna etmək olmaz».

İ.V.Stalinin çıxışından göründüyü kimi, Mərkəz Azərbaycana birmənalı yanaşmırdı. Bir tərəfdən o, azərbaycanlıların milli hisslərinə toxunaraq, azərbaycanlı kommunistlərin, o cümlədən Behbud ağa Şahtaxtinskinin məsələlərə vətənpərvər münasibətlərini nəzərə almağa çalışırdı. Digər tərəfdən isə, Sovet Rusıyası anneksionist məqsədlərinin həyata keçirilməsi naminə Azərbaycanın milli maraqlarına etinasızlıq nümayiş etdirərək onların üstündən keçməyə hazır olduğunu göstərirdi.

1920-ci il noyabrın 4-də Azərbaycan K(b)P MK Siyasi Bürosunun, RK(b)P MK Qafqaz Bürosunun üzvülərinin (İ.V.Stalin, S.K.Orconikidze, Y.D.Stasova) iştirakı ilə keçirilmiş iclasında Gürcüstan və Ermənistanla münasibətlərlə yanaşı Türkiyədə vəziyyət, Kamalın siyasəti də müzakirə obyekti oldu. İ.V.Stalin qeyd etdi ki, «Moskva Kamal haqqında heç nə bilmir. Kamala Moskvadan teleqram göndərilmişdir ki, o hücumları dayandırsın (Ermənistan qoşunlarına qarşı - F.İ.), Kamalçıların Sultanla danışıqları bütün vəziyyəti bizim üçün məqbul olmayan istiqamətə dəyişə bilər». Onun təklifi ilə Türkiyədəki mövcud vəziyyəti aydınlaşdırmaq üçün Mdviani, Karakozov və B.Şahtaxtinskindən ibarət nümayəndə heyəti göndərmək qərara alındı.

Həmin iclasda həmçinin qərara alındı ki, Ermənistanla bağlanacaq müqavilə haqqında qəti qərar RKP (b) MK ilə bu məsələ ilə bağlı aparılacaq danışıqlara qədər çıxarılmasın. Eyni zamanda Siyasi Büronun rəyi də bildirilmişdi ki, təqdim olunmuş müqavilədə Naxçıvanın və Zəngəzurun Ermənistana verilməsi haqqında maddə nə siyasi, nə də strateji cəhətdən sərfəli deyildir və yalnız son halda həyata keçirilə bilər. Siyasi büronun Naxçıvan və Zəngəzurla bağlı fikrinin əsaslandırılması N.Nərimanova tapşırılmışdı.[112]

Belə bir dövrdə Türkiyə Rusiyanın Azərbaycana qarşı yeritdiyi siyasətin mahiyyətini dərk edərək, Sevr müqaviləsini (10 avqust 1920-ci il) rədd etdi və daşnak Ermənistana qarşı hərbi əməliyyatı gücləndirib, onu Aleksandropol (Gümrü) sazişi

bağlamağa məcbur etdi. Türkiyə-Ermənistan sərhədləri tənzimləndi.

Türkiyə ilə Ermənistan arasında 1920-ci il dekabrın 2-də imzalanmış 18 maddədən ibarət olan Gümrü müqaviləsinin 2-ci və 12-ci maddələri Naxçıvanla bağlı idi. Müqavilənin 2-ci maddəsində tərəflər Naxçıvan bölgəsi ilə bağlı aşağıdakı razılığa gəlmişdilər: Ermənistan Kükü dağı, Həməsür dağı, Qurdqulaq kəndi, Sayat dağı, Arpaçay evləri, Gömürlü dağı, Saraybulaq dağları, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasunun mənsəbindən yerdən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) məntəqəyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi əraziyə Ermənistan müdaxilə etməyəcək və bu ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır.[113]

12-ci maddədə Türkiyə hökuməti Şərur-Naxçıvan-Şahtaxtı və Culfa yolu ilə Iran-Maku-Ermənistan arasında tranzit işlərinin sərbəstliyini öz üzərinə götürürdü.[114] Gümrü müqaviləsinə görə Dəvəli və Arazdəyəndən başqa bu günkü Naxçıvan sərhədləri demək olar ki, müəyyənləşdirilmiş, lakin nədənsə tarixən türk bölgələri olan Uluxanlı, Qəmərli və ən başlıcası isə, 1920-ci ilə qədər Naxçıvanı erməni hücumlarından qoruyan Böyük Vedi və ətrafındakı bir çox kəndlər ermənilərə verilmişdi. Bunun nəticəsində Naxçıvanın şimal-qərb sərhədi Dəvəli olmuşdu.

Gümrüdə müqavilə imzalanan zaman danışıq proseslərində iştirak edən B.Şahtaxtinski dekabrın 7-

də oradan M.D.Hüseynova, surəti S.K.Orconikidzeyə ünvanlamaqla teleqram göndərmişdi. Türkiyə milli hərəkatının görkəmli liderlərilə (Ərzurum millət vəkili Süleyman Nəcati, Ərzurum valisi Hamid bəy və s.) söhbətlərinin məğzini çatdıraraq, onların Rusiya ilə möhkəm ittifaq tərəfdarı olduqlarını, Azərbaycan SSR ilə qarşılıqlı müdafiə müqaviləsi bağlamaq niyyətini və həmin müqavilənin özü tərəfindən təqdim edilən layihəsindən xəbər verirdi. Türklərin «Azərbaycanın xarici siyasətinə rəhbər saydıqları Behbud Şahtaxtinski» onların siyasi simalarını tamamilə aydınlaşdırmaq məqsədilə səmimiyyət nümayiş etdirmişdi.[115]

Antanta ilə gələcəkdə hər hansı sazişi istisna etməyən türklər, onun əleyhinə mübarizə hərəkatını davam etdirmək üçün baza əhəmiyyətli Naxçıvan qəzasını, Şərur-Dərələyəz qəzasının bir hissəsini və Maku xanlığını özünüidarə valisinə çevirmək fikrində olmuşdur. B.Şahtaxtinski göstərilən məqsəd üçün əlverişli, Bəyazid sancaqlığını və Van vilayətini baza seçməyi təklif etmişdi.[116]

Məlum olduğu kimi, Sovet Rusiyası daşnakların imzaladığı Gümrü müqaviləsini qəbul etmədi. Bolşeviklərin hakimiyyət başına gəldiyi Azərbaycan tərəfi də bu müqaviləni rədd etdi. N.Nərimanov, M.Hüseynov və Şahtaxtinski tərəfindən imzalanmış və Azərbaycan Sovet hökumətinin mövqeyini əks etdirən bəyannamədə göstərilirdi ki, daşnak hökuməti erməni əhalisi tərəfindən

devrilmişdir, ona görə də onların imzaladığı bu müqavilənin hüquqi qüvvəsi yoxdur.

11 dekabr 1920-ci ildə B.Şahtaxtinski Aleksandropoldan xarici işlər naziri M.Hüseynova və S.Orconikidzeyə məktub göndərdi. Qeyd edilirdi ki, türklər Rusiya ilə möhkəm ittifaq bağlamaq istəyir. Türklərin məqsədini aydınlaşdırmaq üçün B.Şahtaxtinski Kazım Qarabəkir Paşaya Azərbaycanla müqavilə bağlamağı təklif etmiş, o da razılıq vermişdi. B.Şahtaxtinski hökumətin buna razı olduğu təqdirdə dərhal bildirməyi xahiş edirdi. O, həmçinin qeyd edirdi ki, şəxsən özü müqavılənin bağlanmasının tərəfdarıdır. «Türklər məni Azərbaycanın xarici siyasətinin rəhbəri kimi qəbul edir və buna çox şaddırlar. Kazım Qarabəkir Paşa xahiş etdi ki, mən ona tanışlıq və yazışma üçün ən görkəmli kommunist rəhbərlərini göstərim. Mən İ.V.Stalinin adını çəkdim». Məktuba Azərbaycan-Türkiyə müqaviləsinin layihəsi əlavə edilmişdi: Inqilabi Türkiyə və Sovet Azərbaycanı bütün müsəlman Şərqində anti-antanta alovunun yayılmasına nail olmaq öhdəliyini üzərlərinə götürür. Tərəflər söz verirlər ki, Antantanın hücumu olsa bir-birlərinə kömək edəcəklər. Türkiyə Azərbaycana döyüşçülər göndərməyi, Azərbaycan isə Türkiyəni neft və neft məhsulları ilə təmin etməyi üzərlərinə götürürdülər.[117]

Ermənistan tərəfindən Azərbaycana qarşı torpaq iddiaları istiqamətində növbəti addım 1920-ci il dekabrın 1-də atıldı. Həmin gün Bakı Sovetinin Ermənistanda sovet hakimiyyətinin qurulması

münasibətilə keçirilən təntənəli «tarixi» iclasında N.Nərimanov bəyanatla çıxış etdi.[118]

Bəyanatda deyilirdi: «Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın - kommunistlərin günahsız qanını tökmüş və qan tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım edərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz ərazisidir; Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddaratını təyin etmək hüququ verilir. Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır, Sovet Azərbaycanının qoşunları isə buradan çıxarılırlar».

Burada daha sonra qeyd edilirdi ki, Sovet Azərbaycanı malik olduğu tükənməz sərvətlərin - neft, kerosin və digər məhsulların qapılarını Sovet Ermənistanı üçün geniş açır.

Torpaqlarımızın parçalanması və paylanmasında əsas rol oynayanlardan biri olan İ.V.Stalin bu hadisəni belə «izah» etmişdi: «Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir».[119]

Azərbaycanın digər mahalları ilə birlikdə Naxçıvanın da Emənistana verilməsinə dair 1920-ci il 1 dekabr bəyanatı haqqında məlumatlar əldə edil-

dikdən sonra dekabrın 5-dən etibarən yerli əhalinin bu akta qarşı kəskin çıxışları baş verdi. Vəziyyətin kəskinləşdiyini görən Azərbaycan rəhbərliyi respublika Inqilab Komitəsinin üzvü və ədliyyə komissarı B.Şahtaxtinskini dekabrın 15-də Naxçıvana göndərdi. Naxçıvana gəldikdən sonra B.Şahtaxtinski burada yerləşən türk nümayəndələri ilə münasibətləri normallaşdıraraq onlarla birgə Naxçıvanın Ermənistan tərəfindən nəzarətə götürülməsinin qarşısını almaq üçün çalışırdı. Bu sahədə onun əsas əleyhdarı isə bölgəyə fövqəladə komissar təyin edilmiş Bahadur Vəlibəyov idi. Vəlibəyovun antitürk, anti-Azərbaycan fəaliyyəti barədə kifayət qədər faktlar var idi (Bu barədə ətraflı bax: 1, V bölmə). Lakin Türkiyənin prinsipial mövqeyi, B.Şahtaxtinskinin göstərdiyi səylər B.Vəlibəyovun neytrallaşdırılması ilə nəticələndi. B.Vəlibəyov B.Şahtaxtinskini bu mövqeyinə görə bağışlaya bilmədi və onun haqqında yuxarı orqanlarda mənfi təsəvvür yaratmaq üçün yalan məlumatlar göndərməyə başladı. Camaatla görüşlər zamanı 1920-ci il 1 dekabr tarixli bəyanatla bağlı suallara cavabında B.Şahtaxtinski açıqcasına demişdi: «Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti surtədə razılıq verməzdim. Mən Azərbaycan Inqilab Komitəsinin üzvü kimi B.Vəlibəyovu (1920-ci ildə Naxçıvanda Fövqəladə Komissarlıq yaradılmışdı və Rusiyada təhsil alan, orada işləyən, XI Ordu komandanlığının etibarlı adamı kimi o, komissarlığa başçı təyin edilmişdi)[120] vəzifəsindən azad edib

özümlə Bakıya aparacağam. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər».[121]

B.Şahtaxtinskinin bu çıxışı əhalini nisbətən sakitləşdirmişdi. Sonra B.Vəlıbəyov çıxış etmiş və bildirmişdi ki, Azərbaycan Inqilab Komitəsinin bu bəyanatı Ermənistanda Sovet hakimiyyətinin qələbəsindən əvvəl hazırlanmış və elan edilmişdir.[122]

B.Şahtaxtinski həmçinin Naxçıvan şəhərində, Şərur-Dərələyəz və Ordubad rayonlarında mitinqlər keçirmişdi. Bu mitinqlərdə əhalinin böyük əksəriyyəti Naxçıvanın Azərbaycan SSR qəyyumluğunda müstəqil sovet respublikası kimi təşkil edilməsi arzusunda olduğunu bildirmişdi. Mitinqlərin nəticələri barədə Azərbaycan və Ermənistan Inqilab Komitələrinə müvafiq məlumatlar verilmişdi.[123]

Bu dövrdə Naxçıvanda Türkiyə hərbi hissələri yerləşirdi. Onlar bölgənin azərbaycanlı əhalisinin dəvəti ilə onu ermənilərin hücumlarından müdafiə etmək və Naxçıvanın itirilməsinin qarşısını almaq məqsədilə gəlmişdilər. Həmin hərbi hissələrə Türkiyə Şərq cəbhəsi Baş komandanlığının siyasi nümayəndəsi - Türk Qırmızı dəstəsinin komandiri Veysəl bəy başçılıq edirdi, onların hərbi qərargahı isə Şahtaxtıda yerləşirdi. B.Vəlibəyov Irəvanda olarkən Veysəl bəy Gümrü müqaviləsinə əsasən Ordubaddan

Şəruradək olan ərazilərdə Fövqəladə Komissarlığın yaradılmasına və özünün ona başçı təyin olunmasına dair Türkiyə hökuməti adından əmr vermişdi. O, habelə B.Vəlibəyovu Naxçıvanı ermənilərə satmaqda günahlandırmışdı.[124]

1920-ci il dekabrın sonlarında Ermənistan Inqilab Komitəsi Naxçıvan bölgəsinə dair dalbadal iki bəyannamə verdi. Dekabrın 26-da verdiyi 1-ci bəyanatında o, Naxçıvanın müstəqilliyini rədd etmiş[125], iki gün sonra isə verdiyi bəyanatda isə Naxçıvanı müstəqil sovet respublikası kimi tanımışdı. Əslində bölgənin Azərbaycanın bir hissəsi deyil, müstəqil respublika kimi tanınması Ermənistanın gələcək planları üçün düşünülmüş məqsədyönlü bir addım idi.

Lakin bölgənin azərbaycanlı əhalisinin qətiyyətli mövqeyi və aydın ifadə olunan iradələri ermənilərin planlarını alt-üst etdi. «Üzərində dəfələrlə israr edilən», «Türk qapısı» olan (birinci ifadə İ.V.Stalinə, ikinci ifadə isə Atatürkə məxsusdur -I.F) Naxçıvanın əhalisi qətiyyət göstərərək silahlı müqavimət həddinə qədər mübarizə aparıb, Ermənistan idarəçiliyinə daxil olmadı. 1921-ci ilin əvvəlində Azərbaycan SSR, Ermənistan SSR və RSFSR nümayəndələrinin Naxçıvan bölgəsi əhalisinin Azərbaycan və Ermənistan Inqilab Komitələrinin bəyanatlarına münasibəti ilə bağlı keçirdikləri rəy sorğusunda əhalinin 90 faizdən çoxu mahalın Muxtar Respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Behbud ağa Şahtaxtinskinin Naxçıvanda nüfuzunu nəzərə alaraq, AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli qərarı ilə onu Inqılabi Hərbi Şuranın mandatı ilə Naxçıvana komissar göndərmək razılaşdırıldı.[126] Bütün bunlar isə Azərbaycan və xüsusilə də Türkiyəyə bir sıra danışıqlarda (xüsusilə Rusiya ilə) və bağlanan müqavilələrdə, Naxçıvanın taleyi ilə bağlı məsələlərin müzakirəsi və həllində üstünlük verdi. Təsadüfi deyildir ki, 1921-ci ilin yanvarında Naxçıvanda keçirilən mitinqdə general Veysəl bəy çıxış edərək «qan tökülməsinə yol verməməyə, diyarın müstəqillik məsələsinin Moskva konfransı tərəfindən həlli ümidi ilə gözləməyə çağırmışdı».[127]

Həmin dövrdə Behbud ağa Şahtaxtinskinin ən ali məqsədi - ilk əvvəl türklər tərəfindən Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyat alacağı barədə təminatın verilməsi və buna Moskva razılığı əldə olunması missiyasının yerinə yetirilməsi idi.

1920-ci ilin sonu - 1921-ci ilin əvvəllərində Naxçıvanda baş verən hadisələr Azərbaycan Inqilab Komitəsinin 1 dekabr 1920-ci il tarixli bəyannaməsini, Ermənistan Inqilab Komitəsinin 1920-ci il 26 və 28 dekabr tarixli bəyanatlarını hüquqi cəhətdən əsassız etmişdi. Bu sahədə artıq müəyyən irəliləyişlər əldə edilmişdi. Naxçıvanın müstəqilliyini Ukrayna SSR, Ermənistan SSR, Dağıstan MSSR, Maku xanı, Təbriz hakimi tanımışdılar.

1921-ci ilin fevral-martında danışıqlar məhz bu istiqamətdə aparılmışdı. Danışıqlarda N.Nərimanovun

yaxın silahdaşı, Azərbaycan SSR-in Moskvadakı ilk səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin əvəzsiz xidmətləri olmuşdur. Bu cəhətdən onun 1921-ci il martın 1-də RSFSR Xalq Komissarları Sovetinin sədri V.İ.Leninə göndərdiyi məktub çox maraqlıdır. Məktubda əsasən Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı düzü, Dağıstan və Şimali Qafqaz müsəlmanları haqqında söhbət gedir. Bura adları çəkilən ərazilərin milli tərkibi, sayı və coğrafiyası haqqında arayışlar da əlavə edilmişdi. Məktubda B.Şahtaxtinski Zaqafqaziyada ərazi sərhədlərini və əsasən Naxçıvanla bağlı problemləri çox ədalətli, kiçik xalqların milli mənafeyini nəzərə almaqla əsasında humanistcəsinə həll etmək haqqında öz təkliflərini vermişdi. Məktubun məzmunu V.İ.Leninin diqqətini cəlb etmiş və martın 7-də onun dərkənarı ilə müzakirə üçün Siyasi Büroya göndərilmişdi.

RK(b)P MK Plenumunun 16 mart 1921-ci il tarixli iclasında qərara alınmışdı ki, Azərbaycan SSR-in Fövqəladə və Səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin Qafqaz respublikalarının birləşdirilməsi haqqında təklifi İ.V.Stalin, İ.V.Vladimirski və C.V.Çiçerindən ibarət komissiyanın baxılmasına verilsin və qısa müddətdə işin nəticələri Siyasi Büronun təsdiqinə təqdim edilsin.[128]

RK(b)P MK Siyasi bürosu İ.V.Stalinin, İ.V.Vladimirskinin və C.V. Çiçerinin iştirakı ilə həmin məktuba baxmış və B.Şahtaxtinskinin təklifini bəyənərək Azərbaycan SSR tərkibində Naxçıvan

SSR-nin təşkil edilməsi haqqında qərar qəbul etmişdir. Siyasi büronun bu qərarı Zaqafqaziyada uzun illərdən bəri davam edən milli qırğınlara son qoyulmasında və qonşu xalqlar arasında milli münasibətlərin nizama salınmasında böyük əhəmiyyət kəsb etmişdir.

B.Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyətində Zaqafqaziya ölkələrinin birləşməsi ideyası xüsusi yer tuturdu.

1921-ci il martın 1-də Azərbaycan SSR-in Fövqəladə və Səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin RKP(b) MK katibi N.N.Krestinskiyə göndərdiyi məktubda qeyd edilirdi ki, hal-hazırda Qafqazda yeni qayda-qanunun tətbiq edilməsi ilə bağlı olaraq biz Zaqafqaziya respublikaları zəhmətkeşlərinin dinc birgə yaşayışı üçün şəraitin yaradılması və onların Rusiya Federasiyasının tərkibinə daxil olunması problemi qarşısında durmuşuq. Bütün şüurlu ünsürlər ümid bəsləyirlər ki, Qafqazın sovetləşdirilməsi elə bir dönüş nöqtəsi olacaq ki, ondan qarşılıqlı milli ehtirasların aradan qaldırılması və arasıkəsilməyən münaqişələrin həlli üçün çıxış başlayacaqdır. Qafqazdakı yeni üsul-idarə Sovet Rusiyasının üzərinə yeni yaradılmış Zaqafqaziya respublikaları arasında bütün mübahisəli ərazi, iqtisadi və digər məsələləri ədalətlə həll etmək vəzifəsi durur. Bu çox çətin, bəzi hallarda isə qeyri-mümkün bir işdir, çünki qarışıq əhalisi olan ərazilər xalqların özünütəyinetmə prinsipinin müxtəlif cür yozulmasına geniş imkan yaradır. Xalqların

özünütəyinetmə prinsipi hər yerdə tam şəkildə tətbiq edilə bilmədiyindən, sərf edəndə başqa prinsipləri - tarixi hüquq, iqtisadi şərait, dövlət sərhədlərinin müdafiəsi və s. irəli sürülür. Əmələ gələn narazılıq, etirazlar Ingiltərə, Türkiyə və digər ölkələrə meyl etməyə gətirib çıxarır. Zənnimcə, Zaqafqaziyada ərazi, iqtisadi və başqa mübahisələrin həllinin ən sərfəli, məqsədəuyğun forması Dağıstan da daxil olmaqla bütün Zaqafqaziya respublikalarını vahid Qafqaz respublikasında birləşməsi və Rusiya Federasiyasının tərkibinə daxil olmasıdır. Çətinliklər olduğu halda mən, əlbəttə ki, Dağıstanın Qafqaz respublikasının tərkibinə daxil olunmasına təkid etmirəm.[129]

Məktuba Zaqafqaziya respublikaları arasında mübahisə obyekti olan ərazilər haqqında arayış da əlavə edilmişdi. B.Şahtaxtinski qeyd edir ki, Zaqatala dairəsi hal-hazırda Azərbaycanın nəzarəti altındadır, orada 85000 müsəlman (ləzgilər və Azərbaycan türkləri) və 7500 qeyri-müsəlman məskunlaşıb. Bu dairəyə Gürcüstan iddia edir. Siqnax qəzasının qərb hissəsi gürcülər, şərq hissəsi isə azərbaycanlılarla məskunlaşıb. Lakin gürcülər faktiki olaraq axırıncıya da nəzarət edirlər, baxmayaraq ki, azərbaycanlılar əsrlər boyu bu çöl vilayətlərindən istifadə ediblər və onların bu otlaqlardan məhrum edilməsi Yelizavetpol və Qazax kəndlilərinin təsərrüfatının tənəzzülünə gətirib çıxaracaq. Tiflis qəzasında yerləşən və Yelizavetpol-Qazax düzənliyinin birbaşa davamı olan Qarayazı çölü Gürcüstan tərəfindən işğal edilib.

Hərçənd ki, bu çöldə 89 % müsəlman və 11% rus və digər millətlər yaşayır. Borçalının şimalında gürcülər (4000 nəfər), cənubunda ermənilər (34000), orta hissəsində isə, Axalkələk qəzasının sərhəddinə qədər azərbaycanlılar (38000) yaşayır. Yelizavetpol quberniyasının Qazax qəzasının aran hissəsində azərbaycanlılar (50,9 %), dağlıq hissəsində isə ermənilər məskunlaşıb. Bu qəza Ermənistanın iddia obyektidir. Qarabağ geniş dağlıq vilayətidir, onun aran hissəsində müsəlmanlar, dağətəklərində ermənilər yaşayır, yuxarı dağlıq vilayətlər isə otlaqlardır, yayda müsəlmanlar buraya sürüləri gətirir. Qarabağın erməni əhalisinin sayı 170 mindir, müsəlmanların sayı isə 415 min. Axalkələk qəzası gürcülər (8,8 %), ermənilər (12,5 %) və müsəlmanlarla (73,5 %) məskunlaşıb. Vaxtilə o gürcü çarlığının bir hissəsi olub. Bu da gürcülərə vilayəti işğal etməyə əsas verib. Naxçıvan və Şərur qəzalarında Azərbaycan türkləri yaşayır. Qaçqınlar məsələsi ən kəskin ixtilaflara səbəb olub. Zəngəzur qəzası hal-hazırda Ermənistan respublikasının hakimiyyəti altındadır. Müsəlmanların sayı - 123 095 nəfər, ermənilər — 99257 nəfərdir. Yüz minlərlə müsəlman qaçqın Zaqafqaziyanın müxtəlif yerlərində dolaşır.[130]

Bu məktub onu göstərir ki, B.Şahtaxtinski Zaqafqaziya xalqlarının birgə yaşayış prinsipini müdafiə edərək eyni zamanda bu birləşmə çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, azərbaycanlıların kompakt yaşadığı yerlərdə

təhlükəsizlik və əmin-amanlığın bərqərar olunmasını istəyirdi.

Zaqafqaziya xalqlarının birliyi məsələsinə gəlincə, B.Şahtaxtinskinin özünə rəhbər və ən yaxın silahdaş bildiyi Nəriman Nərimanovun Zaqafqaziya Federasiyası haqqında məktubunu xüsusilə qeyd etməliyik. Məktubda deyilirdi ki, Zaqafqaziya respublikalarının birləşdirilməsinin məqsədi yaradıcı qüvvələrin ağıllı istifadəsinə və zəhmətkeşləri respublikaların daxili və xarici qüvvələrdən qorumağa yönələn birliyinə nail olmaqdır. Sovet Azərbaycanının başçısının fikrincə, bu diyara dair məsələlərin həllində kommunistlər yerli şəraiti, birləşən respublıkaların xarici aləmə münasibətdə daxili siyasi vəziyyəti və bu respublıkaların Sovet quruculuğuna hazır olmasını nəzərə almalıdırlar. «Bu müddəalar hər bir respublikanın müstəqilliyini qorumağı, yeni respublikaların ali dövlət orqanlarının (MIK və XKŞ) simasızlaşdırmamağı, hər bir respublikaya sənaye sahəsində sərbəstliyi inkişaf etdirmək imkanını verməyi, bir respublikaya açıq-aydın maddi xeyir verdiyi halda başqasına ziyan gətirdiyi məsələlərin həllini sürətləndirməməyi tələb edir».[131]

17 noyabr 1921-ci ildə RKP (b) MK Siyasi Bürosu Zaqafqaziya Federasiyasının yaradılması haqqında MK Qafqaz Bürosunun 2 noyabr 1921-ci il tarixli qətnaməsini təsdiq etdi.[132] Bu addımın başlıca səbəbi kimi «Zaqafqaziya respublikalarının ayrıca dövlətçilik mövcudluğunun onları kapitalist ölkələri qarşısında zəiflətməsi» göstərilirdi.[133]

B.Şahtaxtinski 1921-ci ilin martın 16-da Moskvada bağlanmış Rusiya-Türkiyə müqaviləsinin hazırlanması prosesində yaxından iştirak etmişdir.

B.Şahtaxtinskini hələ 1920-ci ilin yayında Moskvada olarkən Türkiyə Böyük Millət Məclisi hökumətinin nümayəndə heyəti xarici işlər naziri Bəkir Sami bəy başda olmaqla Rusiya paytaxtına gəldi (1920-ci il iyulun 19-da). Səfərin əsas məqsədi Sovet Rusiyası ilə Kamal hökuməti arasında diplomatik münasibətlər qurmaq və dostluq müqaviləsi imzalamaq idi. Müvafiq sənədlərin imzalanması qarşılıqlı razılığa əsasən Bakıda keçirilməli idi. Lakin sonradan Çiçerinin təklifi ilə danışıqların Moskvada aparılması qərara alındı. Onun Türkiyə hökumətinə 9 dekabr 1920-ci il tarixli notasında bu danışıqlarda Azərbaycan və Ermənistan (artıq sovetləşmişdi - F.İ.) nümayəndələrinin də iştirakının vacibliyini qeyd etmişdi.[134] Rusiya diplomatiyası danışıqlara Azərbaycanı və Ermənistanı qatmaqla onları Türkiyəyə qarşı qoymaq və regionda öz planlarını həyata keçirmək məqsədi güdürdü.

Lakin B.Şahtaxtinskinin Moskvadan M.Hüseynova göndərdiyi 26 fevral 1921-ci il tarixli məktubundan məlum olur ki, türklər bu respublikaların konfransda iştirakını istəmirdilər. «Türklər bildirirlər ki, onlarla Azərbaycan arasında heç bir mübahisəli məsələ yoxdur. Azərbaycanla müqavilə xüsusi bağlanılacaqdır. Ermənistan nümayəndəsinin iştirakına qarşı ona görə çıxırlar ki, türklər Aleksandropol müqaviləsinin qüvvədə hesab edirlər və ondan imtina etmək istəmirlər. Rusiya isə bizimlə ayrıca müqavilə bağlanmasının əleyhinədir.

O, əvvəlcə Azərbaycan, sonra isə Ermənistanın nümayəndələrini konfransa salmaq istəyir».

B.Şahtaxtinskinin özü konfransda Azərbaycanın iştirakının əleyhinə olduğunu bildirərək göstərirdi ki, mən orada heç nə haqqında qətiyyətlə danışa bilmərəm. Xırda şeylərdə türklərin əleyhinə getmək bizə sərf etmir. Məhz mən onların üzərində təsirə malikəm. Məni Anadoluda çoxlu kombinasiyalar gözləyir və Azərbaycana heç bir aidiyyatı olmayan məsələlər barədə türklərə qarşı konfransda çıxış etsəm, bütün bunların hamısını itirə bilərəm.[135]

Türkiyənin Qafqaz Respublikaları ilə ayrıca müqavilə bağlamaq cəhdləri o zaman baş tutmadı. Onlar hətta Azərbaycanla 7 maddədən ibarət müqavilə layihəsini də hazırlamışdılar. Lakin Moskvanın təzyiqləri bu müqaviləni bağlamağa imkan vermədi.[136]

N.Nərimanovun tapşırığı ilə Naxçıvan məsələsi ilə əlaqədar 1921-ci il martın əvvəlində Moskvaya gəlmiş B.Şahtaxtinski Türkiyə nümayəndələri (Ankara hökumətinin yeni xarici işlər naziri Yusif Kamal bəy, habelə Əli Fuad və doktor Rza Nur) ilə apardığı danışıqlar müvəffəqiyyətlə nəticələnmişdi. B.Şahtaxtinski bu barədə martın 7-də İ.V.Stalinə və C.K.Çiçerinə göndərdiyi məktubunda yazmışdı: «Dünən türklərlə mənim çox uzun sürən söhbətim oldu. Naxçıvan diyarı və Batum indi onları az maraqlandırır. Çünki onlar başa düşürlər ki, bu rayonlar üstündə aparılan mübahisələr səmərəli nəticələr verə bilməz».[137]

Moskva danışıqlarında Naxçıvanla bağlı prinsipial mübahisələr və diplomatik toqquşmalar bu müzakirələri aparan siyasi komissiyanın 1921-ci il 10, 12, 14, 16 mart tarixli iclaslarının protokollarında[138] əksini tapmışdır. Həmin sənədlərdən göründüyü kimi martın 10-da keçirilən iclasda[139] Türkiyə nümayəndələri belə bir mövqedən çıxış edirdilər: Naxçıvan bölgəsi əhalisinin türk qoşunlarını qəbul etməsi faktı onun Türkiyənin himayəsi altında olmasını göstərir. Lakin Türkiyə bölgə üzərindəki bu himayəni Azərbaycanın üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə razıdır. Çünki yerli müsəlman əhalisinə qarşı əvvəllərdə baş verən zorakılıqların təkrarlana biləcəyi halda onun qoşunları kənarda qala bilməzlər.[140]

Rusiya nümayəndələri sadəcə Azərbaycanın himayəsi altında Naxçıvanın muxtariyyatı məsələsinin qoyulmasını və sərhədlərin müəyyənləşdirlməsini təklif edirdilər. Siyasi komissiyanın 1921-ci il martın 12-də keçirilən iclasında əsasən Naxçıvan dairəsi və Ermənistan arasında müəyyənləşdirilən sərhədlər ətrafında mübahisələr getmişdi.[141] Rusiya tərəfi bildirmişdi ki, ekspertlərin müəyyənləşdirdiyi sərhəd xətti Azərbaycanın maksimum tələblərini də ötüb keçir, çünki o heç vaxt Irəvan qəzasının hər hansı bir hissəsinə himayəçiliyi iddia etməmişdir. Sovet respublikaları arasında sıx əlaqələr olduğundan bu məsələ birinci dərəcəli əhəmiyyət kəsb etməsə də Şərur-Dərələyəz dairəsinin sərhəddini etnik prinsipə müvafiq çəkmək lazım gəlir.

Türkiyə tərəfi haqlı olaraq məsələnin bu cür qoyuluşuna kəskin etiraz etməklə öz mövqeyini əsaslandırmaq üçün bu kimi dəlillər gətirdi: a) məhz bu yerlərdə məlum qanlı hadisələr baş vermiş və türk qoşunlarının bölgəyə gəlməsinə ehtiyac yaranmışdı; b) bütün bu dairə müsəlmanlarla məskunlaşmışdır və s. Bütün bunlara görə həmin ərazi üzərində də himayə hüququ Azərbaycana verilməlidir.[142]

Moskva danışıqlarında Türkiyə nümayəndə heyətinin ciddi səyləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü qismən də olsa qorunmuş, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi təşkil etməsi və onun hüquqlarının Azərbaycandan başqa heç bir dövlətə verilə bilməməsi razılaşdırılmış və sərhədlər müəyyən edilmişdi.

Belə bir nəticənin hasil edilməsində Moskva danışıqlarında Azərbaycanın təmsilçisi B.Şahtaxtinskinin də əməyi və xidməti yüksək olmuşdur. Müzakirələrin sona yetdiyi bir vaxtda 1921-ci il martın 13-də B.Şahtaxtinski Azərbaycanın XKIK-na teleqram göndərərək Naxçıvanın Azərbaycanın tərkibində saxlanmasının və müqaviləyə əsasən heç vaxt onun Ermənistana verilməməsinin razılaşdırıldığını xəbər verirdi.[143]

Nəhayət, Türkiyə dövləti tərəfindən Ankara hökumətinin yeni xarici işlər naziri Yusif Kamal bəyin başçılığı ilə Əli Fuad və doktor Rza Nurdan ibarət diplomatik nümayəndə heyətinin Rusiya xarici işlər naziri G.Çiçerin, RSFSR MIK üzvü C.Qorxmazov, Azərbaycanın təmsilçisi

B.Şahtaxtinskinin iştirak etdıyi və bir ay davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış «Dostluq və Qardaşlıq haqqında» RSFSR-Türkiyə müqaviləsində öz əksini tapdı.

Moskva müqaviləsi 16 maddədən və əlavələrdən ibarət idi. Müqavilənin 3-cü maddəsinə əsasən belə bir qarşılıqlı qərar qəbul edildi ki, Naxçıvan vilayəti bu müqavilənin 1 (C) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin himayəçiliyin Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. Bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: Ararat stansiyası - Saray bulaq dağı - Gömürlü dağ - Sayat dağ - Qurdqulaq kəndi - Həməsür dağı - 8022-ci yüksəklik - Kükü dağı və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin Şərqi.[144]

Bununla da Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə bir aydınlıq gətirildi. N.Nərimanov I Ümumazərbaycan Sovetlər qurultayının 4-cü iclasındakı (may 1921-ci il) nitqində bununla əlaqədar demişdi ki, «Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratı altında müstəqil respublika elan olunur. Orada nümayəndəmiz olacaq və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik».[145]

Türkiyə nümayəndə heyəti Naxçıvanı Türkiyənin himayəsinə ala bilməmişdisə də, regionun türklərin əlində qalması təmin edilmiş, Naxçıvan Azərbaycanın himayəsinə verilmişdi. Yusif Kamal

bəyin göstərdiyinə görə Naxçıvan müsəlmanları bir daha soyqırımına məruz qalacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdi.

Moskva müqaviləsini imzalamaqla Türkiyə Gümrü müqaviləsinin, o cümlədən də onun Naxçıvan bölgəsinə dair maddələrinin qüvvədən düşməsi ilə razılaşdı. Əslində bu Azərbaycanın suverenliyinin təmin edilməsi idi. Moskva müqaviləsi imzalandıqdan az sonra 1921-ci ilin aprelində Türkiyənin məhdud qoşun hissəsi Naxçıvan mahalını tərk etdi. Bu müqavilənin 1921-ci ilin martın 20-də RSFSR Mərkəzi Icraiyyə Komitəsi, həmin il iyulun 21-də isə Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqlənməsi ilə Naxçıvan məsələsi özünün ədalətli həllini tapdı, yəni Azərbaycanın xeyrinə həll olundu. Bu çox böyük əhəmiyyəti olan bir siyasi-diplomatik akt idi. Heç də təsadüfi deyildir ki, Türkiyə diplomatları Ankaraya döndükdə Mustafa Kamal Paşaya müraciətlə «Naxçıvan üzərində əldən gələni yapdıq» dedikdə o, «Qapımız mövcudiyyətini mühafizə edin, bizim üçün mühüm olanı budur» söyləmişdi.[146]

Moskva müqaviləsindən iki həftə sonra 1921-ci il aprelin əvvəllərində Azərbaycan Sovet hökuməti Naxçıvanın taleyi ilə əlaqədar göstərdiyi misilsiz xidmətlərinə görə kiçik bir xatirə olaraq Şərq cəbhəsi komandanı Kazım Qarabəkir paşaya və TBMM başqanı Mustafa Kamal Paşaya 800 əyar gümüşdən,

24 nəfərlik 279 vahiddən ibarət iki yemək serviz dəsti hədiyyə göndərdi.[147]

Beləliklə, Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında imzalanmış Moskva müqaviləsində təsbit edildi. Naxçıvanın statusunun ilk beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir.[148]

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, əgər Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının Zəngəzur mahalını vaxtilə Ermənistana verilməsi olmasaydı, bəlkə də heç Naxçıvanın muxtariyyəti də lazım deyildi. Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi.[149]

Naxçıvana muxtariyyat qazandırmaq, Moskva müqaviləsində Naxçıvanın müqəddaratını həll etmək asan məsələ deyildi. Ancaq Azərbaycanın milli mənafeyini qoruyan Behbud ağa Şahtaxtinski kimilər bunu etmişlər. Bu, Azərbaycanın tarixi nailiyyəti və eyni zamanda Türkiyə dövlətinin Azərbaycanın dövlətçilik siyasətinə və Naxçıvanın muxtariyyatının əldə edilməsinə tarixi xidmətidir.

## § 2. Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi

1920-1921-ci illərdə Türkiyə Qafqazda öz nüfuz dairəsini yüksəltmək, Azərbaycan, Ermənistan, Gürcüstan respublikaları ilə problemlərini, xüsusən də

ərazi məsələlərini həll etmək üçün ikitərəfli müqavilələr bağlamağa çalışırdı. Lakin Rusiyanın Qavqazda yeritdiyi siyasət və həmin respublikalar üzərindəki təzyiq və təsiri buna imkan vermirdi. Bu hal Türkiyə-Azərbaycan münasibətlərində də müəyyən qədər özünü göstərirdi. Sonralar - 1922-ci il yanvarın 26-da Ankara hökumətinin xarici işlər naziri Y.Kamal bəy Azərbaycanın Türkiyədəki diplomatik nümayəndəsi I.Əbilovla söhbətində qeyd etmişdi ki, «RSFSR-lə müqavilə bağlamaq üçün Moskvaya (1921-ci ilin martında bağlanmış Moskva müqaviləsi nəzərdə tutulur) gedərkən biz Azərbaycanla, sonra isə Gürcüstanla və nəhayət Ermənistanla müqavilələr imzalamaq niyyətində idik. Təssüf ki, Azərbaycanda bu məsələyə bizim gözlədiyimiz kimi yanaşmadılar».[150]

Rusiya isə Qafqazda Türkiyənin nüfuzunun güclənməsinin qarşısını almaq üçün vahid müqavilə bağlamağı təklif edirdi. Bolşevikləri xüsusilə Türkiyə-Azərbaycan yaxınlaşması narahat edirdi. Hələ 1921-ci ilin aprelində Y.Çiçerin M.Hüseynova yazmışdı ki, Türklərin xətti Azərbaycanda protektorat rolunu oynamağı hər vasitə ilə göstərməkdən ibarətdir. Onun daxili işlərinə qarışmaqdan ötrü himayəçisi olmaq istəyir. Cənubi Qafqaz respublikaları bizimlə danışmadan türklərlə müqavilə bağlamasınlar.[151] Digər məktubunda isə o üç Qafqaz Respublikasının Türkiyə ilə ümumi müqavilə bağlamasını tələb edirdi.[152]

Nəticədə 1921-ci il mayın 7-də Güney Qafqaz respublikaları nümayəndələrinin iclası keçirilmişdi.

Iclasda S.Orconikidze, B.Leqran, M.Oroxelaşvili, M.Bekzadyan, M.Hüseynov və B.Şahtaxtinski iştirak etmişdi. Müzakirələr nəticəsində Türkiyə ilə keçiriləcək konfransda üç Cənubi Qavqaz respublıkasının bir tərəf kimi birlikdə vahid müqavilə imzalanması barədə təklif edəcəkləri haqqında qərar qəbul edildi.[153] Qərara görə, keçiriləcək danışıqların və imzalanacaq müqavilələrin əsasını 1921-ci il 16 mart tarixli Rusiya-Türkiyə müqaviləsi təşkil etməli idi[154].

Rusiya-Türkiyə Moskva müqaviləsinin maddə və şərtlərini daha da konkretləşdirmək və müəyyən mənada tamamlamaq, bununla həm də onu reallaşdırmaq, yəni Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasındakı həll olunmamış məsələləri nizama salmaq məqsədilə yeni konfrans çağırmaq lazım gəldi. Bu konfransın çağırılması ilə bağlı Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan-Gürcüstan arasında diplomatik yazışmalar getdi və notalar mübadiləsi oldu.[155]

Bu diplomatik yazışmalarda Azərbaycan-Türkiyə münasibətlərinin bir sıra məqamları — «rəsmi Moskvanın siyasətinin yedəyində gedən Azərbaycan rəhbərliyinin əksər hallarda Türkiyəyə arxa çevirməsi, özünün regiondakı müəyyən maraqlarını təmin etməyə çalışan Türkiyənin Azərbaycanın ərazi bütövlüyü, xüsusilə də Naxçıvan və s. ərazilərlə bağlı rahatsızlığı diqqəti cəlb edirdi».[156]

Uzun sürən müzakirədən sonra konfransın Qarsda keçirilməsi razılaşdırıldı. AK(b)P MK Siyasi Bürosunun 1921-ci il 26 avqust tarixli qərarı ilə Xalq Fəhlə-Kəndli Nəzarəti Komissarı B.Şahtaxtinski Azərbaycan SSR-in Qars konfransında nümayəndəsi təyin olundu.[157] 26 avqust 1921-ci ildə AKP MK Siyasi Bürosu qərar çıxartdı ki, Türkiyə ilə sülh müqaviləsinin imzalanması üçün ASSR-in nümayəndəsi kimi B.Şahtaxtinski göndərilsin.[158]

Sentyabrın 21-də M.Hüseynov Türkiyə xarici işlər naziri Y.Kamal bəyə, Ermənistan xalq xarici işlər komissarı A.Mravyana teleqram vuraraq sentyabrın 26-da Qarsda Cənubi Qavqaz respublikaları ilə Türkiyə arasında konfransı açmaq barədə onların istəklərinə müsbət cavab verdi və B.Şahtaxtinskinin fövqəladə səlahiyyətli nümayəndə təyin edildiyini bildirdi.[159]

Müqavilənin hazırlanması, razılaşdırılması və imzalanması prosesində Naxçıvan ölkəsinin mənafeyini konfrasda müdafiə etmək üçün Naxçıvan SSR-in XKS Tağı Səfiyevi Qarsa ezam etmişdi.[160] Qars müqaviləsi 1921-ci il sentyabrın 26-sı ilə oktyabrın 13-ü arasında aparılan danışıqlar nəticəsində həmin gün saat 14-də imzalanmışdır. Müqavilə 20 maddə və 3 əlavədən ibarətdir.

Konfransda Türkiyə tərəfindən BMM deputatı, Şərq cəbhəsi komnadanı Kazım Qarabəkir Paşa, Buldur millət vəkili Vəli bəy, ictimai işlər üzrə sabiq nazir Muxtar bəy və Türkiyənin Azərbaycandakı nümayəndəsi Məmduh Şövkət bəy, Ermənistan

tərəfdən xarici işlər komissarı Askinaz Mravyan, daxili işlər komissarı Poqos Maqinzyan, Azərbaycan xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud Şahtaxtinski, Gürcüstan tərəfdən Quru və dəniz qüvvələri komissarı Şalva Eliava, daxili və maliyyə işlər komissarı Aleksandr Şvanidze və RSFSR tərəfdən RSFSR-in Latviya respublikasındakı səlahiyyətli nümayəndəsi Yakov Qanetski iştirak edirdi.[161]

18 gün davam edən və altı dəfə işinə fasilə verilən Qars konfransının materiallarının[162] təhlili göstərir ki, danışıqlar çox gərgin və prinsipial şəraitdə keçmiş, tərəflər çoxlu mülahizə və təkliflərlə çıxış etmişdilər. Konfransda Türkiyə yenə də onunla Qafqaz respublikaları arasında ayrı-ayrılıqda müqavilələr imzalanmasına dair mövqeyini təkrarlasa da danışıqlarda vasitəçi rolunda iştirak edən Rusiya və əks tərəflər buna razı olmamışdılar. Kazım Qarabəkir paşa türk diplomatiyasının mövqeyini belə əsaslandırırdı ki, Moskva, Sovet hökuməti Güney Qafqaz Respublikalarının müstəqil olduqlarını bildirir. Ona görə də biz onların hər biri ilə müstəqil dövlətlər kimi ayrıca müqavilə bağlamaq istəyirik. Bu barədə bizə Kamal paşa göstəriş vermişdir.[163]

Mübahisələrə B.Şahtaxtinski də qoşulmuş, Rusiya nümayəndəsinin mövqeyini müdafiə etdiyini bildirmişdi. B.Şahtaxtinski vahid müqavilənin bağlanmasının Cənubi Qafqaz respublikaları və Türkiyə üçün qarşılıqlı surətdə faydalı olduğunu, inqilabi zərurətin bunu tələb etdiyini söyləmişdi.[164]

Behbud ağa Şahtaxtinski bildirmişdir ki, «beynəlmiləl birlik, xalqlarımızın dostlaşması siyasəti bizdən tələb edir ki, Zaqafqaziya respublikaları Türkiyə dövləti ilə birlikdə müqavilə bağlasınlar».[165] O, çıxışının sonunda demişdi: «vahid müqavilə imzalanması Cənubi Qafqaz respublikaları üçün məqsədəuyğundur; bu respublikalar artıq iqtisadi siyasi və hərbi cəhətdən birləşmişlər. Vahid müqavilə bizim ümumi düşmənimizə qarşı mübarizədə Türkiyə üçün də faydalıdır. .... mən Azərbaycan Respublikası adından (?) müqavılənin vahid olmasını və bu müqavilədə hər bir respublikaya aid ayrıca fəsillərin olmamasını təklif edırəm».[166]

Yalnız B.Şahtaxtinskinin çıxışından sonra Kazım Qarabəkir Paşa öz fikrindən daşınmış və 30 sentyabr tarixli iclasda o, bir ümumi müqavilənin imzalanmasına razılıq vermişdi.[167] Konfransdan B.Şahtaxtinski M.Hüseynova teleqram vuraraq konfransın işinin normal getdiyini bildirmişdi.[168]

Qars müqaviləsinin I əlavəsində Türkiyənin şimal-şərq sərhəddi Rusiya baş qərargahının xəritəsinə uyğun; II əlavədə: 1. Arpaçay zonası; 2. Araz zonası və III-də isə Naxçıvan ərazisi verilmişdir. Müqavilənin I maddəsində qeyd edilir ki, Türkiyə Böyük Millət Məclisi Hökuməti və Ermənistan, Azərbaycan və Gürcüstan Sovet Sosialist Respublikasının hökumətləri razılığa gələn tərəflərin ərazisinin tərkibinə daxil olan ərazilərdə əvvəllər öz suveren hüquqları həyata keçirən dövlətlər arasında bağlanmış, yuxarıda göstərilən ərazilərə aidiyyəti

olan müqavilələri ləğv olunmuş və öz qüvvəsini itirmiş hesab edirlər: Bu maddə 16 mart 1921-ci ildə Moskvada bağlanmış Türkiyə-Rusiya müqaviləsinə şamil edilmir».[169]

Ikinci maddədə isə deyilir: «Razılığa gələn Tərəflər onlardan hər hansı birinə zorla qəbul etdirilən hər hansı bir sülh müqaviləsini və ya digər beynəlxalq aktı tanımamağa razılaşırlar».[170]

Əslində Türkiyə konfransa müqavilənin onun diplomatları tərəfindən hazırlanmış layihəsini təqdim etmişdi. Cənubi Qafqaz respublikalarının Türkiyə hökumətinə verdikləri Memorandumda isə bir sıra məsələlərlə yanaşı «sərhədlərin Ermənistanın xeyrinə bəzi düzəlişləri ilə Azərbaycan SSR nəzdində Naxçıvan Muxtar Sovet Respublikasının yaradılması»nın müzakirəsi təklif olunurdu. Bu təklif dəfələrlə B.Şahtaxtinski tərəfindən verilmiş və hələ Azərbaycan və Ermənistan nümayəndələri bu konfransadək - Tiflisdə Naxçıvan məsələsini müzakirə edərək razılığa gəlmişdilər.[171]

Uzun sürən mübahisə və müzakirələrdən sonra 1921-ci il oktyabrın 13-də Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR hökumətləri bir tərəfdən, Türkiyə BMM hökuməti isə digər tərəfdən, RSFSR hökumətinin iştirakı ilə Qars müqaviləsi imzalandı. Müqavilənin 5-ci maddəsi və 3-cü Əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə yazılırdı: «Türkiyə Hökuməti ilə Ermənistan və Azərbaycan

Sovet Hökumətləri razıdırlar ki, indiki müqavilənin III Əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir».[172]

Qeyd etmək lazımdır ki, Moskva müqaviləsinin Naxçıvanla əlaqədar III maddəsi ilə müqayisədə, Qars müqaviləsinin V maddəsi daha dürüst və konkretdir.

«Naxçıvanın ərazisi» başlıqlı 3-cü Əlavədə bölgənin sərhədləri bu coğrafi hüdudlarda müəyyənləşdirilirdi: Urmiya kəndi, oradan düz xətlə Arazdəyən stansiyası (o, Ermənistan Sosialist Sovet Respublikasına qalır), sonra düz xətlə qərbi Daşburun dağını (3142) - oradan Şərqi Daşburun dağını (4108) - Cəhənnəmdərəsi çayını keçərək Bulağdan (Rövnə) cənubuna çatır, Bağırsaq (Yağıqsık) dağının (6607), yaxud 6578-ci yüksəkliyin suayrıcı xətti ilə davam edərək keçmiş Irəvan qəzasının inzibati sərhədlərini, oradan Şərur-Dərələyəz sərhəd xəttin izləyir, 6629-cu yüksəklikdən Gömürlüdağa (6839, yaxud 6930) və oradan 3080-ci yüksəkliyə gəlir. Sayatdağ (7868) — Qurdqulaq (Kurt Kulaq) kəndi - Həməsür dağı (8160), 8022-ci yüksəklik — Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin Şərqi.[173]

Müqaviləyə görə, Naxçıvan ərazisinin Türkiyə ilə sərhəddi Arazdəyən stansiyasına qədər 11 km uzunluğunda müəyyən edilmiş, Iranla sərhəddi isə 176 km uzunluğunda, yəni 1828-ci il Türkmənçay müqaviləsində müəyyən olunduğu kimi dəyişilmədən saxlanılmışdır.

Qeyd etmək lazımdır ki, Türkiyə Cümhuriyyətinə aid olan Iqdır vilayətinin Aralıq - Dilucu məntəqəsi ilə Naxçıvanın Sədərək kəndi arasından keçən Araz çayı vasitəsilə sərhəd təşkil edən həmin 11 kilometrlik məsafə mühüm strateji əhəmiyyətə malik olduğu üçün XX əsrin əvvəllərində istiqlal savaşı dövründə Mustafa Kamal Atatürk tərəfindən Iran hökumətindən qızıl pul ödənilməklə savaşsız olaraq alınmışdır. Bu fakt Atatürkün Azərbaycana və onun ayrılmaz parçası olan Naxçıvana, bütövlükdə Türk birliyinə münasibətini parlaq şəkildə ifadə edir. Atatürkün aşağıdakı uzaqgörən sözləri də həmin münasibətləri bir daha təsdiqləyir: «Naxçıvan türk dünyasının qapısıdır. Onu qorumaq lazımdır».[174]

Sərhədlər müəyyən olunarkən 1868-ci ildə Qafqaz Hərbi Dairəsi tərəfindən nəşr edilmiş İrəvan quberniyasının Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarının coğrafi-geoloji xəritəsi əsas götürülmüşdür.

Qars konfransı Naxçıvanın gələcək siyasi-hüquqi statusunu müəyyənləşdirdi. B.Şahtaxtinskinin bununla bağlı elan edilən bəyanatında deyilirdi ki, «Naxçıvan vilayəti «Muxtar xalq sovetləri respublikaları sırasına daxil edilir və bununla yanaşı Azərbaycanın himayəsi altına keçir; gənc respublikanın özünün XKS, Azərbaycanın isə yeni dövlətdə nümayəndəsi olacaqdır».[175]

Müqavilənin 20-ci maddəsi Türkiyə, Ermənistan, Azərbaycan və Gürcüstan hökumətləri

arasında bağlanılan bu müqavilənin təsdiq edilməli olduğunu, təsdiqnamələrin mübadiləsini tez bir müddətdə Irəvanda həyata keçirməyi nəzərdə tuturdu. Həmin maddədə yazılır: «Türkiyə, Ermənistan, Azərbaycan və Gürcüstan Hökumətləri arasında bağlanan bu Müqavilə ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanlarının mübadiləsi ən qısa bir vaxt ərzində Irəvanda olacaqdır».[176]

Müqavilə Azərbaycan SSR MIK tərəfindən 3 mart 1922-ci ildə, Türkiyə BMM tərəfindən 16 mart 1922-ci ildə, Ermənistan SSR MIK tərəfindən 20 mart 1922-ci ildə, Gürcüstan SSR MIK tərəfindən 14 iyun 1922-ci ildə ratifikasiya edildi. RSFSR-in iştirakı ilə ratifikasiya fərmanlarının mübadiləsi 11 sentyabr 1922-ci ildə Irəvanda keçirildi və həmin vaxtdan da qüvvəyə mindi.[177] Qars müqaviləsinin əsas məzmunu tərəflərin bir-birlərinin suverenliklərini, ərazi toxunulmazlığını tanımaqdan, hər hansı mübahisəli məsələlərin ancaq dinc yolla həll edilməsi üçün bütün imkanlardan istifadə etmələrindən ibarətdir.

Qars müqaviləsinin bir çox bəndləri Moskva müqaviləsi ilə səsləşir. Əsas fərq isə Türkiyə ilə Ermənistan sərhədlərinin, habelə Ermənistanla Azərbaycan sərhədlərinin dəqiq müəyyənləşdirilməsindən ibarətdir. Qars müqaviləsinin tarixi əhəmiyyəti ondan ibarətdir ki, bu müqavilə XX əsrin Türkiyə ilə Azərbaycan üçün verdiyi çox mühüm sənəd idi. O nəinki Türkiyə üçün böyük təhqir olan Sevr müqaviləsini iflasa uğratdı, habelə Türkiyə ilə Cənubi Qafqaz respublikaları

arasında münasibətləri tənzimlədi. Qars konfransından sonra Atatürk demişdi ki, «Qars müqaviləsi ilə bizim Şərqdəki faktiki vəziyyətimiz hüquqi forma almışdır və bu müqavilə Sevr müqaviləsinin tətbiq olunmazlığını sübut edən amillərdən biridir, «erməni məsələsi» deyilən bu məsələ isə özünün ən düzgün həllini Qars müqaviləsində tapmışdır».[178]

Beləliklə, Türkiyə dövlətinin köməyi ilə və mahir diplomat B.Şahtaxtinskinin siyasi gedişləri nəticəsində Moskva və Qars kimi beynəlxalq müqavilələrdə Naxçıvanın taleyi həll olunmuşdur.

Zaqafqaziya Diyar Komitəsinin 12 dekabr 1922-ci il tarixli qərarı ilə, Naxçıvan muxtariyyat vahidi kimi Azərbaycanın ayrılmaz tərkib hissəsi elan edildi.[179]

Bu müqavilənin əhəmiyyətindən və B.Şahtaxtinskinin rolundan danışarkən müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev qeyd etmişdir ki: «Əgər Azərbaycan Rusiya Federasiyası, Ermənistan, Gürcüstan Respublikaları ilə və Türkiyə ilə 1921-ci ilin oktyabr ayında Qars müqaviləsini imzalayıbsa və Azərbaycanın adından Behbud ağa Şahtaxtinski Qarsda bu müqaviləni imzalayıbsa, demək o vaxt Azərbaycan Respublikası öz müqəddaratını həll etmək yolunda çox müstəqil olubdur. Biz bunu unutmamalıyıq, tariximizi qaraltmamalıyıq.

Hesab edirəm ki, Sovetlər İttifaqı dağılan zaman və Naxçıvana qarşı yenə də xəyanətkar əllər uzanan zaman biz bu müqavilələrin Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu dərk edə bildik».[180]

Qars müqaviləsinin maddələrinin həyata keçirilməsi ilə bağlı məsələləri həll etmək üçün 1922-ci il fevralın 1-də Tiflisdə Cənubi Qafqaz (Zaqafqaziya) — Türkiyə konfransı öz işinə başladı.[181] Konfransda Azərbaycanı B.Şahtaxtinski və Teymur Əliyev təmsil edirdilər. Onlar AK(b)P MK Rəyasət Heyətinin 1922-ci il 10 fevral tarixli iclasında təyin edilmişdilər. Konfransda üç Cənubi Qafqaz respublikası, Rusiya və Türkiyə arasında konsulluq, hüquqi yardım, poçt-teleqraf, dəmir yolu haqqında konvensiyalar bağlandı.

Beləliklə, Naxçıvan əhalisinin ciddi mübarizəsi, türk qoşunlarının yardımı, Türkiyə dövlətinin köməyi və Behbud ağa Şahtaxtinskinin diplomatik gedişləri sayəsində Moskva, Qars beynəlxalq müqavilələri ilə Naxçıvan diyarı Azərbaycanın tərkibində muxtar ərazi kimi qəbul edildi. Bu müqavilələrlə Rusiya, Türkiyə, Gürcüstan, Ermənistan və Azərbaycan Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanımış və ona beynəlxalq-hüquqi təminat vermişlər.[182] Naxçıvanın muxtariyyət statusu keçmiş SSRI tərkibində son ifadəsini Azərbaycan SSR MIK-in 9 fevral 1924-cü il tarixli dekretində[183] tapdı.

Heydər Əliyev hesab edirdi ki, «Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanla, Azərbaycanla Türkiyənin sərhəddi üçün tarixi bir hadisədir. O sərhəd 1921-ci ildə həmin

müqavilələrlə (Moskva və Qars müqavilələri ilə) yaranıbdır. Amma 1991, 1992, 1993-cü illərdə o sərhəddin olmasının və 1991, 1992-ci illərdə o körpünün (Ümid Körpüsünün - F.İ.) yaranmasının Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrdə nə qədər böyük rol oynadığını artıq hamı görür».[184]

1921-ci il Moskva və Qars müqavilələrinin bağlanması ilə qüvvədən düşən Aleksandropol (Gümrü) müqaviləsi əslində Batum müqaviləsinin analoqu idi. 1918-ci il iyunun 4-də Türkiyə ilə Ermənistan Respublikası arasında imzalanan həmin müqaviləyə görə Ermənistanın ərazisi təqribən 10 min kvadrat kilometr (320 min əhali ilə) idi.[185] Sahəsi 25.43 min kv.km. olan İrəvan quberniyasının ərazisini daşnak Ermənistan Respublikasının ərazisi ilə eyniləşdirmək olmaz. Çünki, Sürməli qəzası (327 min kv.km), Naxçıvan qəzası (4.1 min kv.km) bütünlüklə, Aleksandropol (3.53 min kv.km) və Eçmiədzin qəzalarının (3.37 min kv. km) böyük hissəsi, İrəvan (2.84 min kv.km) və Şərur-Dərələyəz (2.75 min kv.km) qəzalarının bir hissəsi daşnaq Ermənistana daxil deyildi.[186] Ermənistan Respublikasının Naxçıvana nəzarət etməsinə gəlincə isə, tarixdən bəllidir ki, ermənilər bu iddiada olsalar da, həmin əraziləri işğal etmək istəsələr də, bu baş tutmamışdır. Məhz, Naxçıvanda Azərbaycan hökumətinə tabe olan general-qubernatorluq yaradılmışdı. Qars vilayətinə gəldikcə isə, 1918-ci il oktyabrın 30-da imzalanan Mudros sazişinə görə, Türkiyə ordusu 1914-cü il sərhədlərinə çəkilmək məcburiyyətində qalmışdı və Qarsda Cənubi-Qərbi Qafqaz Respublikası qurulmuşdu. 1918-ci il aprelin 30-da ingilislərin

əli ilə ermənilər Qarsı ələ keçirmişdilər. 1920-ci ilin oktyabrınadək Qars vilayəti ermənilərin işğalı altında olmuşdur. 1920-ci ilin payızında Aleksandropol (Gümrü) bolşevikləri Kazım Qarabəkir paşanın ordusunu gül-çiçəklə qarşılamışdılar.

İndiki Ermənistan ərazisinin 29.8 min kv.km olduğunu nəzərə alsaq, deməli, Qars və Moskva müqavilələri ilə Ermənistan ərazisi təqribən 20 min kv.km-ə çatdırılmış və sovet hakimiyyəti illərində Azərbaycanın Zəngəzur, Göyçə, Qazax (bir hissəsi), Gürcüstanın Loru-Pəmbək əyalətlərinin və Qars vilayətinin Ağbaba nahiyyəsinin hesabına təqribən 14 min kv.km artırılmışdır.

Bu gün tarixi saxtalaşdırmaqla məşğul olan erməni alim və siyasətbazları iddia edirlər ki, guya Aleksandropol müqaviləsi də qüvvəyə minməyibmiş. Faktdır ki, erməni tarixçiləri özləri yazırlar ki, «Moskva və Qars müqaviləsinin imzalanması ilə Aleksandropol müqaviləsi qüvvədən düşmüş, Türkiyə qoşunları 1921-ci ilin aprelində Aleksandropol qəzasını tərk etmişdir».

Xatırladırıq ki, 1921-ci ilin noyabrında İrəvanda Qars müqaviləsinin təntənəli təqdimat mərasimi keçirilmişdir.

Bütün bunlar isə Moskva və Qars müqavilələrinin tarixi əhəmiyyətini artırır və Behbud ağa Şahtaxtinski kimi mahir diplomatın nə qədər uzaqgörən siyasətçi olduğunu sübut edir.

Behbud ağa Şahtaxtinskinin diplomatik fəaliyyəti həmçinin Azərbaycan-Iran münasibətlərinin inkişafı ilə bağlı olmuşdur. Bu münasibətlərə B.Şahtaxtinski Şərqin azad olunması və inqilabi hərəkata

qoşulması prizmasından yanaşırdı. Onun Mərkəz üçün hazırladığı təkliflər məktubunda qeyd edilirdi:

«Şərqdəki fəaliyyətimizin əsasına biz aşağıdakıları qoyardıq:

1. Şərqdə Antanta ilə mübarizə həyati mübarizədir, buna görə də Şərqə təhlükəli və çətin döyüş cəbhəsi kimi baxılmalıdır.

3. ...Cari məqam işlərimizdə biz bütün real faktları nəzərə almaq niyyətindəyik və xalqın içinə girməyə, onun üçün doğma və aydın olmağa, onun etibarını qazanmaq və ondan istifadə etməyə çalışacağıq.

4. Milli inqilabi hərəkat milli şəraitdə baş verməlidir.

5. ...Rəhbərlik yerli vəziyyətə uyğun işləməli və milli-dini hissiyatı təhqir etməməlidir.

6. Iranda təbliğat əsasən hazır farsların vasitəsilə aparılmalıdır...

7. Milli-inqilabi hərəkatın təşkilində biz tayfa başçıları, iri kapitalistlər və iri torpaq sahiblərindən başqa əhalinin bütün qruplarına arxalanmalıyıq...

9. Sözsüz ki, təşkilati iş ona görə lazımdır ki, Şərq xalqlarını Antantanın ağuşuna ata biləcək anarxiyalı inqilabi fəaliyyətin yaranmasının qarşısını ala bilsin. Bakıda keçirilmiş Şərq xalqları qurultayında Təbliğat və Hərəkat Şurasının yaradılması faktının özü böyük təşviqati əhəmiyyət daşıyır. Fikrimcə, mənim tərəfimdən təklif edilmiş, yoldaş Nərimanova praktiki və konspirasiya işinə rəhbərliyin verilməsi planının icrasının zəruriliyi hələ də

qüvvədədir. Təklifim qəbul edildiyi təqdirdə, Şərqdə siyasətimizə rəhbərlik etmək üçün Bakıda yüksək nüfuza malik yoldaş Stalinin olmasını faydalı sayardım».[187]

Bu dövrdə Azərbaycan xarici siyasətinin ən əsas vəzifələrindən biri də qonşu İranla münasibətlərin tənzimlənməsi idi. Bu sahədə də B.Şaxtaxtinskinin diplomatik bacarığından istifadə edilmiş, AKP MK Siyasi və Təşkilati Bürosunun 28 noyabr 1921-ci il tarixli iclasında onun ASSR-in Irandakı nümayəndəsi təyin edilməsi haqqında qərar çıxarılmışdı.[188]

AKP MK Siyasi və Təşkilati Bürosunun 22 dekabr 1921-ci il tarixli iclasında Bakıda Zaqafqaziya-Iran konfransının keçirilməsi və bu konfransa nümayəndə kimi B.Şahtaxtinskinin göndərilməsi haqqında qərar çıxarıldı.[189]

9 yanvar 1922-ci ildə Tiflisdə keçirilən Zaqafqaziya-Iran konfransının plenar iclasında konfransın məqsəd və vəzifələri haqqında Azərbaycanın nümayəndəsi B.Şahtaxtinski bəyan etdi: «Millətlərin qardaşlıq prinsipinə tərəfdar çıxaraq, biz Zaqafqaziya respublikaları və Iran arasında, Sovet Rusiyası ilə Iran arasında olduğu kimi, dostluq münasibətlərini qurmaq istəyirik».[190]

Lakin eyni zamanda B.Şahtaxtinski bu dostluq münasibətlərinin qurulması prosesini Azərbaycanın maraqlarına xələl gətirmədən aparılmasına çalışırdı. Belə ki, yuxarıda qeyd edilmiş konfransın gedişi zamanı Iran tərəfi Azərbaycana qarşı müəyyən

iradlarla çıxış etdi. Lakin B.Şahtaxtinskinin səyləri nəticəsində bu iradların əsassızlığı və onların həmin konfransda müzakirə edilməsinin qeyri-düzgün olması sübuta yetirildi.

İran nümayəndə heyətinin sədri Momtaz-əd-dövlə iranlı vətəndaşların Azərbaycanda zərərçəkmələri ilə bağlı Azərbaycan Respublikasına qarşı iddiada olduqlarını və bu məsələ ilə bağlı Azərbaycan təmsilçiləri ilə rəsmi söhbət apardığını bildirdi. Bununla əlaqədar olaraq, B.Şahtaxtinski qeyd etdi ki, Azərbaycan hökuməti ilə İran hökuməti heç vaxt zərərin ödənilməsi barədəki məsələ üzrə rəsmi danışıqlar aparmayıb. O vurğuladı ki, əgər İran vətəndaşı Azərbaycan hakimiyyətinin hansısa nümayəndəsinə müraciət edibsə və bunun nəticəsi olaraq müəyyən tədbirlər keçirilibsə, bu heç də o demək deyil ki, Azərbaycanla İran arasında rəsmi beynəlxalq müqavilə bağlanıb.

B.Şahtaxtinski konfransın gedişi barədə C.Çiçerinə və N.Nərimanova göndərdiyi teleqramda bu məsələni ön plana çəkərək məlumat verirdi ki, Cənubi Qafqaz - İran konfransı qarşısında duran ən mürəkkəb məsələ Azərbaycan tərəfindən iranlı vətəndaşların iddialarının təmin olunması məsələsidir. Bu iddia 30 min qızıl pul məbləğində idi. Məsələnin həllində həm iranlı kəndlilər, tacirlər, həm də feodallar maraqlı idilər. Ona görə də B.Şahtaxtinski məsələnin həllinin vacib olduğunu bildirir və qeyd edirdi ki, danışıqların dayandırılması bizim üçün siyasi cəhətdən əlverişli deyildir və İran ictimai fikri əleyhimizə qaldırar.

Nəticədə konfransda B.Şahtaxtinskinin təklifi ilə Azərbaycanda ekspropirasiya olunmuş və İran tələblərinə məxsus kapitalın və kreditin taleyi ilə bağlı məsələ konfransın gündəliyindən çıxarılmış və bu barədə Azərbaycan hökuməti ilə İran arasında ayrıca danışıqların aparılması qərara alınmışdı.[191]

Buna cavab olaraq Momtaz-əd-dövlə bildirdi ki, məsələ ilə bağlı idarələrarası komissiya yaradılmışdı, onun tərkibinə də iranlı tacırlərin dörd nümayəndəsi, Azərbaycan tərəfindən isə dörd idarənin - Xalq Xarici Işlər Komissarlığı, Rabkrin, Xalq Ərzaq Komissarlığı, Xalq Təsərrüfatı Şurasının nümayəndələri daxil olmuşdular. Komissiya müvafiq qərar çıxarmış, Azərbaycan hökumətinin başçısı da onu təsdiq etmişdi.

Zaqafqaziya nümayəndə heyətlərinin başçısı Mamiya Oraxelaşvili qeyd etdi ki, bu məsələ konfransın müzakirə predmeti ola bilməz, çünki bu ikitərəfli məsələdir və bu məsələ ilə bağlı Azərbaycan hökumətinin başçısı ilə Iran tacirlıyinin rəsmi və qeyri-rəsmi nümayəndələri arasında danışıqların aparılıb-aparılmaması barədə mübahisə aparmaq yersizdir. Momtaz-əd-dövlə cavab olaraq dedi ki, Iran nümayəndə heyətinin konfransdakı məqsədləri eyni əhəmiyyətə malikdir, bu məsələ isə Iran xalqının maraqları üçün çox vacibdir, buna görə də o, konfransdan kənar olaraq B.Şahtaxtinski ilə bu barədə danışıqlar aparacağına və onların nətəcələri haqqında konfransa məlumat verəcəyinə ümid bəslədi. M.Oraxelaşvili qeyd etdi ki, Zaqafqaziya nümayəndələri bu danışıqların nəticəsini gözləyəcək, Iran nümayəndəsi

məsələnin gündəliyə salınmasında israrlı olsa, əks tərəf gələn iclasda öz qəti cavabını verəcək.

Sovet Rusiyasının nümayəndə heyətinin başçısı Rabinoviç aydınlaşdırdı ki, konfrans iştirakçıları üçün əsas məsələ Iran nümayəndəliyinin israrlı olub-olmamasıdır, Şahtaxtinski ilə onun danışıqlarının mahiyyətinə isə onlar toxunmaq istəməzdilər.[192]

Iran nümayəndə heyəti ilə danışıqlar zamanı B.Şahtaxtinski Azərbaycana Maku dəmir yolunun mülkiyyətinin qaytarılması məsələsini qaldırdı, çünki o Culfa yolunun tikilməsi üçün lazım idi.[193]

B.Şahtaxtinski öz fikrini bununla əsaslandırmışdı ki, məhz Azərbaycanın tələbi ilə, Maku yolu Rusiya tərəfindən İrana verilmişdir. «Yolun əmlakı çox böyük qiymətə malikdir və ondan bizim İranla hesablaşmalarımızda aktivimiz kimi istifadə etmək olar».

Məhz diplomatiya sahəsində göstərdiyi xidmətlər Behbud ağa Şahtaxtinskinin adını həmişəlik olaraq Azərbaycan tarixinə həkk etdirdi. Bu xidmətlər tək B.Şahtaxtinskinin bir siyasətçi və diplomat kimi qələbəsindən xəbər vermirdi. Bu, müvafiq, keşməkeşli tarixi şəraitdə Azərbaycanın qələbəsi, onun düşdüyü tale sınağından imkan daxilində az itkilərlə çıxmasının təzahürü idi.

# III FƏSİL
# BEHBUD AĞA ŞAHTAXTİNSKİNİN DÖVLƏTÇİLİK FƏALİYYƏTİ

## § 1. Behbud ağa Şahtaxtinskinin ali hakimiyyət orqanlarında iştirakı

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, Sovet reciminin bərqərar olması bir çox siyasi xadimlər kimi B.Şahtaxtinskinin həyatında da mühüm dəyişikliklərə səbəb oldu. Əqidəli bolşevik kimi o təbii ki, Azərbaycanda yeni, sosializm cəmiyyəti quruculuğundan kənarda qala bilməzdi. Buna görə də B.Şahtaxtinskinin tezliklə Bakıya gələrək Azərbaycan Sovet Sosialist Respublikasının qurulması və möhkəmləndirilməsi prosesində yaxından iştirak etməsi təbii sayılmalıdır. B.Şahtaxtinskinin özünün yazdığı tərcümeyi - halından bəlli olur ki, Azərbaycanda bolşevik çevrilişi baş tutan kimi partiya onu təcili Bakıya dəvət etmiş, bu məqsədlə ona hətta iri məbləğdə pul da göndərilmişdi. Lakin o bu pulu ala bilməmiş, Bakıya İrandan keçməklə piyada gəlib çatmışdı. Bu dövrdən etibarən B.Şahtaxtinskinin siyasi fəaliyyətinin yeni mərhələsi - dövlətçilik mərhələsi başladı. İndi o özünü geniş erudisiyalı publisist, mətin inqilabçı və müxalif siyasətçi, ictimai xadim kimi deyil, öz üzərinə ağır, məsuliyyətli yük götürmüş dövlət xadimi kimi göstərməli idi.

Sovet hakimiyyətinin ilk günlərində Azərbaycanın geniş kəndli kütləsini yeni hakimiyyət

tərəfinə çəkmək ən mühüm siyasi vəzifə hesab edilmişdi. Bunu nəzərə alan AK(b)P MK, Azərbaycan İnqilab Komitəsi kənddə təşkilati və partiya işini gücləndirmək, kütləvi izahat işləri aparmaq üçün sınanmış partiya xadimlərinin xidmətlərindən istifadə etmək, rəhbər partiya və sovet işçilərini qəzalara təbliğatçılar kimi göndərmək qərarına gəlmişdi. Kütlələrlə işləmək, onları inandırmaq qabiliyyətinə görə B.Şahtaxtinski Bakıya gələn kimi N.Nərimanovun tövsiyə və tapşırığı ilə dəfələrlə Azərbaycanın bölgələrinə gedərək yerlərdə partiya və sovet aparatının qurulmasında iştirak etmiş, kəndliləri sovet hakimiyyətinə inandırmaq üçün çalışmışdır. Təşkilatçılıq və idarəetmə bacarığı nəzərə alınaraq B.Şahtaxtinski yüksək vəzifəyə - Xalq Ədliyyə Komissarı vəzifəsinə və Bakı Soveti İcraiyyə Komitəsi üzvlüyünə irəli çəkildi. Lakin B.Şahtaxtinski iki il öz yoldaşlarından geri qaldığını və bu boşluğu doldurmaq üçün MK-dən onu sovet işindən azad etməyi və partiya işinə göndərməyi tələb etsə də, MK A.Mikoyanın təklifi ilə onun xahişini rədd etmiş və onun təcrübəsini və 1918-ci ildə faktik olaraq ədliyyəyə və fövqəladə komissiyaya rəhbərlik etdiyini nəzərə alaraq, həmçinin Xalq Komissarları İcraiyyə Komitəsi üzvlərindən ibarət olmasını məqsədəuyğun hesab edərək yekdilliklə Ədliyyə Komissarı vəzifəsinə irəli sürmüşdü.[194] 1920-ci il iyunun sonlarında Ə.H.Qarayevin Hərbi-Dəniz İşləri Komissarı təyin edilməsindən sonra N.Nərimanovun təqdimatı ilə Azərbaycan İnqilab Komitəsi B.Şahtaxtinskini Xalq Ədliyyə Komissarı vəzifəsinə təsdiq etdi.

Ümumiyyətlə, xalq ədliyyə komissarı vəzifəsində işlədiyi dövr B.Şahtaxtinskinin tərcümeyi-halında ən maraqlı dövrlərdən birini təşkil edir. Müxtəlif mənbələrdə onun nə vaxt ədliyyə komissarı təyin edilməsi haqqında bir-birinə zidd məlumatlar vardır. Məsələn M.İskəndərovun kitabında onun 1920-ci ilin iyunun sonlarında komissar təyin edildiyi bildirilir.[195] Digər mənbədə isə AK(b)P MK Siyasi və Təşkilat bürolarının və RK(b) P MK Qafqaz Bürosunun 9 noyabr 1920-ci il tarixli iclasında Azərbaycan İnqilab Komitəsi yeni tərkibinin müzakirə edildiyi və B.Şahtaxtinskinin ədliyyə komissarı, Apresovun isə onun müavini təsdiq olunduğu bildirilir.[196] Azərbaycan Sovet Hökumətinin (İnqilab Komitəsinin) 1920-ci ildə qəbul etdiyi sənədlərin dərc edildiyi nəşrlərdə («Бакинский Рабочий», «Коммунист» qəzetləri, Собрания Узаконений Азерб.ССР, Декреты Азревкома və s.) B.Şahtaxtinskinin imzası yalnız bir sənədin - Böyük Oktyabr Sosialist İnqilabının üçüncü ildönümü ilə əlaqədar Azərbaycan İnqilab Komitəsinin qəbul etdiyi amnistiya haqqında dekretdə (N.Nərimanovla birgə) vardır. Ədliyyə komisarlığına aid digər sənədlərdə ya komisar kimi T.Əliyevin imzası qoyulmuş, ya da bir qayda olaraq komissar müavini Apresovun adı getmişdir.

Maraqlıdır ki, B.Şahtaxtinskinin imzası olduğu yuxarıda adı çəkilən amnistiya dekretinin dərc edildiyi «Kommunist» qəzetinin 9 noyabr 1920-ci il tarixli (№158) nömrəsində (Dekret AİK-in 6 noyabr 1920-ci il tarixli protokoluna əsasən çap edilib - F.İ.) Ədliyyə Komissarı T.Əliyevin imzası ilə «Xəbərsiz

iştirak etməyənlər» haqqında Azərbaycan İnqilab Komitəsinin digər dekreti də dərc olunmuşdur.[197] «Kommunist» qəzetinin 5 noyabr 1921-ci il tarixli nömrəsində, (eləcə də Собрание Узаконения 1920, с.620, Декреты Азревкома, с.371-372) çap edilmiş «Xalq istintaqçıları haqqında Əsasnamə»nin altında da Xalq Ədliyyə Komissarı kimi T.Əliyevin adı getmişdir.

Eyni zamanda o da məlumdur ki, 1920-ci ilin iyul ayının əvvəllərində Azərbaycan İnqilab Komitəsi B.Şahtaxtinskini Azərbaycan SSR-in RSFSR-də fövqəladə və səlahiyyətli nümayəndəsi təyin etmiş, iyulun 15-də N.Nərimanovun imzası ilə ona bu barədə xüsusi mandat verilmişdir. Mandatda B.Şahtaxtinski həm Bakı Rayonu Fəhlə və Qızıl Əskər Deputatları Sovet İcrayyə Komitəsinin üzvü, həm də Xalq Ədliyyə Komissarı kimi təqdim olunurdu.[198]

Bütün bunlar aşağıdakı nəticələrə gəlməyə imkan verir: B.Şahtaxtinski 1920-ci il iyun ayının sonlarında xalq ədliyyə komissarı təyin edildikdən az müddət sonra ona daha bir məsuliyyətli vəzifə - RSFSR ilə siyasi və iqtisadi münasibətləri qaydaya salmaq tapşırılmışdı. O, Azərbaycan SSR-in RSFSR-də səlahiyyətli nümayəndəsi olarkən ədliyyə komissarı vəzifəsini də saxlamış, lakin bir müddətdən sonra onu bu vəzifədə T.Əliyev əvəz etmişdi. B.Şahtaxtinski Moskvada Sovet Rusiyası ilə Sovet Azərbaycanı arasında müqavilə və sazişlər haqqında məsələləri həll etdikdən sonra yenidən 1920-ci ilin noyabrından xalq ədliyyə komissarı səlahiyyətlərini davam etdirmişdir.

Azərbaycan KP MK Siyasi və Təşkilat Bürolarının 9 noyabr 1920-ci il tarixli iclasında o öz əvvəlki vəzifəsinə - Xalq Ədliyyə Komissarı vəzifəsinə yenidən təyin yox, yalnız təsdiq edilmişdir.

Ədliyyə komissarı işlədiyi müddətdə B.Şahtaxtinski Azərbaycanda bəzi dairələr tərəfindən törədilən qanunsuzluqlara qarşı kəskin etirazını bildirmiş, bir sıra zəruri hüquqi aktların qəbulu və həyata keçirilməsində yaxından iştirak etmişdir.

Sovet hakimiyyətinin ilk aylarında Azərbaycanın və Bakının partiya rəhbərliyində erməni-gürcü-rus təbəqəsi hakim rol oynayırdı və Sovet hakimiyyəti adı altında əsil antiazərbaycan siyasəti yeridirdi. Azərbaycanın milli mənafeyi nəzərə alınmırdı. Bu, mülkiyyətdən məhrum edilmə, müsadirə siyasətində, ərazi mübahisələrinin həllində özünü xüsusilə göstərirdi. Belə siyasət Azərbaycanın müxtəlif bölgələrində baş qaldırmış antisovet üsyanların əsas səbəblərindən biri idi. Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin, digər partiyaların rəhbərlərinin, milli ordunun zabitlərinin həbsləri intişar edirdi. Bütün bunlar Azərbaycan İnqilab Komitəsinin icazəsi olmadan, millətçi rus şovinistlərinin və ermənilərin başçılıq etdikləri XI Qızıl Ordunun Xüsusi Şöbəsi tərəfindən özbaşınalıqla edilirdi.

Bu baxımdan Azərbaycan SSR XTŞ-in sədri N.İ.Solovyovun, V.İ.Leninə göndərdiyi «Çevrilişdən sonrakı iki ayda (may-iyun) Azərbaycanda bizim siyasətimiz» adlı məlumat məktubu maraqlıdır. O özü etiraf edirdi ki, «heç kimə sirr deyil ki, inqilab

komitəsinin başı üstündə Azərbaycan KP MK durur ki, burada rəhbər rol gürcü-erməni qrupuna məxsusdur, bu isə pis idi». Bu rəhbər qrup MK-nın vasitəsi ilə Azərbaycan xalqını başsız qoymağı, kütləvi həbslər və güllələmələr yolu ilə onun ən yaxşı nümayəndələrini məhv etməyi qərara almışdı. N.Solovyov daha sonra yazırdı: «Ziyalılar və burcuaziyanın nümayəndələri həbs olunur və güllələnirdi, bunlar demək olar ki, yalnız müsəlmanlar idilər. Həbs edilmiş müsəlmanların dəstə ilə küçələrlə aparılması «ermənilərdə açıq-aşkar bədxah sevinc doğururdu ki, ... sovet hakimiyyətinin təntənəsini müsəlmanların düşmənlərinin təntənəsi, ümumilli fəlakət olacağı barədə xəbərdarlıq edən müsəlman millətçilərinin (müsavatçıların» irəlicədən dedikləri doğru çıxmağa başlayır».[202] Qeyri azərbaycanlıların nümayəndələrinin daxil edilməsi hesabına iki ay ərzində (may-iyun) tərkibi üç dəfə dəyişmiş mənzil komissiyasının adı altında Bakıda evləri qanunsuz müsadirə edir, sahiblərini çıxarıb başqalarına verirdilər. Varlıların evlərinə əsasən erməni və rus fəhlələrini köçürürdülər. Varlıların evlərinin, əmlakının müsadirəsi zamanı əxlaqı, etikanı pozur, şəhərin müsəlman əhalisinin heysiyatına toxunurdular. Lominadze, Sarkis və başqalarının rəhbərliyi altında həyata keçirilmiş bu müsadirə əməliyyatlarında «burjuaziyanın əmlakının rekviziyası (müsadirəsi)» adı altında hətta azərbaycanlı qadınların qulaqlarından sırğalarını dartıb çıxarırdılar.

N.Nərimanov və onun məsləkdaşları, o cümlədən B.Şahtaxtinski bu qanunsuz əməllərə qarşı çıxır, repressiyaya məruz qalmış vətəndaşları hər vəchlə azad etməyə çalışırdılar. 1920-ci il iyulun 12-də N.Nərimanovun imzası ilə Azərbaycan İnqilab Komitəsinin amnistiya haqqında dekreti qəbul edildi. Dekretdə həbs yerlərində olan fəhlə, kəndli, əsgərlərin geniş şəkildə amnistiyası nəzərdə tutulurdu. Dekret Sovet hakimiyyətinə qarşı çıxış edənlərə, eləcə də «əksinqilabi» partiya təşkilatlarının fəal xadimlərinə şamil edilməsə də, ümumilikdə qanunsuz həbs olunanların çox hissəsini əhatə edirdi. Dekretin dəqiq və dönmədən həyata keçirilməsinə nəzarət B.Şahtaxtinskinin rəhbərlik etdiyi Xalq Ədliyyə Komissarlığına və onun yerli orqanlarına tapşırılmışdı.[200]

Lakin qanunsuz təqiblər, müsadirələr yenə də davam edirdi. B.Şahtaxtinski bir vətənpər kimi bu qanunsuzluqlara qarşı susa bilməzdi və öz etirazlarını hətta Mərkəzə bildirməkdən çəkinmirdi. 1920-ci il iyulun sonlarında Moskvada Azərbaycan SSR Xalq Xarici İşlər komissarı M.D.Hüseynovla birgə V.İ.Lenin və C.Çiçerinin qəbulunda olarkən B.Şahtaxtinski Sovet Azərbaycanındakı mövcud vəziyyətlə onları tanış etmişdi. Onun gətirdiyi məlumatlarla tanış olan G.Çiçerin 1920-ci il avqustun 4-də RK(b)P MK Siyasi bürosuna məktubla müraciət etdi. Məktubda «bizim Qızıl Ordu hissələrinin yerli komandirləri Azərbaycan hökuməti ilə əsla hesablaşmırlar... onların himayədarlığı altında sırf müstəmləkçilik siyasəti yeridilir» - yazan G.Çiçerin «müstəmləkçiləri cilovlamaq məqsədi ilə» təcili

tədbirlər görməkdən ötrü bu məsələni öyrənmək üçün xüsusi komissiya yaratmağı təklif etmişdi.[201] Bu baxımdan B.Şahtaxtinskinin V.İ.Leninə göndərdiyi 20 sentyabr 1920-ci il tarixli məktub diqqətəlayiqdir. Məruzə xarakteri daşıyan məktubda bolşeviklərin Şərq, o cümlədən Qafqaz siyasəti ilə bağlı məsələlər təhlil edilirdi. Müəllif eyni zamanda bolşevik rəhbərinin diqqətini Azərbaycanda baş verən proseslərə cəlb edərək, yazırdı: «ilk vaxtlar Qızıl Ordu özünü əla aparırdı, indi isə mürtəce kimi aparır». Buna sübut olaraq göstərilirdi ki, «bəzi rus əsgərləri tərəfindən edilən özbaşınalıq və pozğunluq (qadın hamamına soxulmuş iki rus əsgərinin döyülməsi ilə bağlı münaqişə və s.) əhali arasında narazılıq doğurmuşdu».

B.Şahtaxtinski öz qənaətlərini aşağıdakı surətdə ifadə etmişdi: «Mənim fikrimə görə, ümumiyyətlə Şərqdə, xüsusən də Azərbaycanda vəziyyət kritikdir, buna görə də kommunist partiyasının qocaman üzvü kimi... özümü Azərbaycanda vəziyyət və siyasətimizin dəyişdirilməməsi təqdirdə hansı nəticələrə qaçılmaz olaraq gətirə biləcəyi haqqında açıq-aşkar məlumat verməyi borclu bilirəm:

Çevrlişə qədər Azərbaycanın xalq kütlələri arasında Rusiyaya güclü meyl var idi... Ziyalılar və xalqın belə əhval-ruhiyyəsi nəticəsində Azərbaycanda çevrılış qansız baş verdi... Təəssüf ki, yeni Sovet hakimiyyətinin fəaliyyəti formaca inqilabi olduğu halda, nəticələrə görə irticaçı oldu, çünki o əhalinin neytral təbəqələrini, tərəddüd edən ünsürləri, o cümlədən kəndlilərin əksər hissəsini sağa itələdi. Qızıl

Ordu bütün üsullarla hətta Ermənistanla sərhəd bölgələrdə müsəlman əhalisinin silahsızlaşdırılmasına nail olur, hərçənd ki, daşnakların davamlı hücumları şəraitində müsəlman əhalisinin varlığı üçün real təhlükə mövcuddur... Demək olar ki, çevrilişdən sonra ilk günlərdən başlayaraq onu ilhamla qəbul edən və tam ürəklə yeni hökumətin fəaliyyətinə kömək göstərmək istəyən müsəlman ziyalılar həbs edilməyə başladı. Müsəlman əhalisi arasıkəsilməyən müsadirələrdən, xüsusən də mənzillərdə sıxlışdırılmadan bezib...

Azərbaycan Xalq Komissarları Sovetinin sədri yoldaş Nərimanov iki həftə bundan əvvəl öz hökmü ilə müsadirəni dayandırmağa məcbur olmuşdur... Lakin bu qeyri-inqilabi addım kimi qəbul edildi. Məsələ Bakı Icraiyyə Komitəsinə çıxarıldı və burada Nərimanovun əmri ləğv edilib tuman-köynək də daxil olmaqla ev şeylərinin amansız müsadirəsi haqqında qərar çıxarıldı. Hərçənd ki, əvvəlcədən görmək lazım idi, şüursuz ünsürlər evlərə soxulub müsəlman qadınların tumanlarında brilyant axtarmağa, qulaqlarından sırğaları qoparmağa başlayacaq. Ordu əvvəlcə özünü çox yaxşı aparırdı, lakin indi özünü irtica qüvvəsi kimi aparır. Yerlərdən dəhşətli məruzələr daxil olur. Söhbət hətta qız və qadınların zorlamasından gedir... Öz çörəyi ilə dolanan Azərbyacan indi çörəksiz oturur, ac Gürcüstan və Ermənistanın isə bol-bol çörəyi var... Azərbaycan əhalisi əvvəlcə... Moskvaya inanırdı, onun müdafiəsinə və köməyinə ümid bəsləyirdi, ancaq tezliklə o məyus oldu, çünki

Gürcüstanla sülh bağlanarkən Azərbaycanın xəbəri və icazəsi olmadan əhalisi müsəlman olan (90 % - müsəlman, 5 % - gürcü və 5 % - başqa millətlər) Zaqatala dairəsi ondan ayrıldı. ... Sırf Azərbaycana aid olan məsələləri Rusiya Ermənistanla müzakirə etdi, Azərbaycan hökuməti isə bu danışıqlardan bixəbər idi.

Bütün bunları nəzərə alaraq B.Şahtaxtinski aşağıdakı tədbirləri həyata keçirməyi Mərkəzə məsləhət görürdü: «geniş amnistiya vermək və kommunist ziyalıların bizə təəssübkeşlik göstərən hissəsini işə cəlb etmək», «təxirəsalmadan daşınar əmlakın müsadirəsini dayandırmaq», «Ermənistanla sərhəd vilayətlərdə əhalinin silahsızlaşdırılmasını dayandırmaq», «ölkə daxilində sərbəst hərəkət etməyə icazə vermək», «XI Ordunun Xüsusi şöbəsinə yalnız orduya qarşı yönələn cinayətlərlə məhdudlaşdırmağı təklif etmək», «rus hərbiçilərinə Azərbaycanın daxili idarəçiliyinə müdaxilə etməməyi təklif etmək».

Heç şübhəsiz ki, B.Şahtaxtinskinin bu cür səyləri RSFSR-in siyasi rəhbərliyinin Azərbaycanla davranışında bəzi dəyişikliklər etməyinin lüzumlu saymasına xeyli təsir etdi.

Belə ki, 1920-ci ilin oktyabrında RK(b)P MK Cənub partiya təşkilatlarına məktub göndərdi. Məktubla burjuaziyanın mülkiyyətindən məhrum edilməsində bir sıra cənub şəhərlərinin, o cümlədən Bakının partiya və Sovet orqanlarının lənglik və qətiyyətsizlik göstərişləri qeyd olunsa da, eyni zamanda «bu işin həyata keçirilməsində maksimum mütəşəkkiliyə və maksimum qayda-qanuna əməl olunması» tələb olunurdu. Məktubda deyilirdi ki,

Mərkəzi Komitə təklif edir ki, əhalinin milli tərkibi qarışıq olan şəhərlərdə bu iş son dərəcə ehtiyatlı həyata keçirilsin. «Çalışmaq lazımdır ki, müsəlman burjuaziyasını müsəlman fəhlələri, erməni burjuaziyasını isə erməni fəhlələri mülkiyyətdən məhrum etsinlər və s. Başqa sözlə, hər cür səy göstərmək lazımdır ki, bu işin sinfi mənası aydın olsun, milli cəhətlə kölgələnməsin və heç bir halda milli münaqişələrə və toqquşmalara səbəb olmasın».[202]

Lakin bu tövsiyyələr elə kağız üzərində də qaldı, Sovet orqanlarının anti Azərbaycan hərəkətləri daha iyrənc və amansız xarakter daşımağa başlayırdı. Azərbaycan MK və Bakı şəhər rəhbərliyində yuva salmış şovinist ünsürlər N.Nərimanovu və onun silahdaşlarının onlara qarşı mübarizəsini «millətçilik» və «sağ inqilabçılıq» kimi qiymətləndirərək, onlara etimadsızlıq göstərməyə başladılar.

Yaranmış mürəkkəb şəraitdə Azərbaycan İnqilab Komitəsinin, Xalq Komissarları Sovetinin (Xalq Ədliyyə Komissarlığı onun strukturuna daxil idi) rəhbərliyi təqiblərə məruz qalan əhalinin hüququnu və mənafeyini qorumaq məqsədi ilə müəyyən hüquqi-siyasi qərarlar qəbul etməli oldu.

Nəticədə Azərbaycan İK-nin sədri N.Nərimanovun, Xalq Ədliyyə Komissarı B.Şahtaxtinskinin imzası ilə Azərbaycan İnqilab Komitəsinin Oktyabr İnqilabının 3-cü ildönümü münasibətilə 6 noyabr 1920-ic il tarixli yeni amnistiya dekreti qəbul edildi. Dekret «özlərinin şüursuzluğu və siyasi yetkinliyinin çatışmazlığı ucbatından istər

ümumi, istərsə də siyasi xarakterli cinayətlər törətmiş bütün şəxslərə» şamil edilirdi.

Əvvəlki amnistiyadan fərqli olaraq bu aministiyanın əhatə dairəsi daha geniş olub, yalnız Sovet hakimiyyətinə qarşı sui-qəsdlərdə və üsyanlarda, qarşısında Sovet hakimiyyətinə qarşı silahlı üsyan məqsədi qoyan partiya və qruplara yardım göstərməkdə, əgər belə şəxslər hərəkatın təşkilatçıları və başçılarıdırsa, ittiham olunanlara aid deyildi.[203] Bu dekretin dəqiq və dönmədən icrasına nəzarət Xalq Ədliyyə Komissarına tapşırılmışdı.

Azərbaycanda sovet rejimi bərqərar olduqdan sonra yeni, sovet sosialist hüquq sistemi formalaşdırılmağa başlandı. Azərbaycan İnqilab Komitəsinin hələ ilk dekretlərində inqilabi-sosialist məzmunlu bəzi cinayət-hüquq normaları mövcud idi. Bu normalar sovet hakimiyyətinin həyata keçirdiyi tədbirlərə müqavimət və maneçilik törədilməsinə qarşı ən ciddi cəzaları özündə ehtiva edirdi. Məsələn N.Nərimanovun imzası ilə qəbul edilmiş Azərbaycan İnqilab Komitəsinin «Torpaq üzərində xüsusi mülkiyyətin ləğv edilməsi» haqqında dekretdə qeyd edildi ki, bu dekretin həyata keçirilməsinə mane olanlar əməkçi xalqın açıq düşmənləri kimi qəbul ediləcək və Azərbaycan Sovet Sosialist Respublikasının qanunundan kənar hesab ediləcəklər.[204]

Sovet Azərbaycanında ilk hüquqi aktların qəbul edilməsində Xalq Ədliyyə Komissarlığı əsas rol oynayırdı.

İlk vaxtlar qanunvericilik aktları qəbul edilərkən əsasən RSFSR-in təcrübəsindən istifadə

edilirdi. Tədricən bu istiqamətdə işlər Azərbaycanın yerli şəraitinə və tələblərinə uyğun aparılmağa başlandı.

Bir sıra mühüm hüquqi normativ aktlar B.Şahtaxtinskinin Xalq Ədliyyə Komissarı olduğu vaxt qəbul edilmişdi.

1920-ci il iyunun 16-da Xalq Ədliyyə Komissarlığının kollegiyasında Azərbaycan SSR cinayət hüququnun əsas müddəaları müzakirə edilərək təsdiq edildi. Bu akt bəzi dəyişikliklər və əlavələrlə 1920-ci ilin 9 iyulunda Azərbaycan İnqilab Komitəsi tərəfindən təsdiq edildi.[205]

«Azərbaycan SSR cinayət hüququnun əsas müddəaları» cinayət, cəza və cinayət-hüququnun ümumi hissəsinin digər institutlarının mahiyyətini müəyyən edən ilk sistemləşdirilmiş və xüsusi cinayət-hüquqi akt idi. Ona qədər Azərbaycanda bu məfhumları izah edən və cinayət hüququnun ümumi hissəsinin digər institutlarını reqlamentləşdirən qanunverici aktlar mövcud deyildi.

Sovet Respublikasında yeni məhkəmə sisteminin yaradılması və məhkəmələrin işinin təkmilləşdirilməsi məsələsi- Xalq Ədliyyə Komissarlığının diqqətində olan əsas məsələlərdən idi.

B.Şahtaxtinski Ədliyyə Komissarı işlədiyi müddətdə ədliyyə orqanlarının müstəqilliyinə, onların iş fəaliyyətinə başqa orqanların və ya vəzifəli şəxslərin qarışmamasına xüsusi fikir verirdi. Bu istiqamətdə o ən böyük dəstəyi Azərbaycan SSR İnqilab Komitəsinin sədri N.Nərimanovdan alırdı.

B.Şaxtantinski o vaxt Azərbaycandakı həbsxanaların (penitensiar sistemin) yaxşılaşdırılmasına da can atırdı. Belə ki, özünün sonralar xatırladığı kimi, Naxçıvana gəldikdən sonra o məlumat almışdı ki, yerli həbsxananın məhbusları əksər halda təminatsız sinifə, kasıblara, zəhmətkeş ünsürlərə, daşnakların hücumları nəticəsində dilənçilərə çevrilmiş və ac ölüm qorxusu altında cinayətkarlıq yoluna düşmüş qaçqınlara aiddir və onlar xırda cinayətlərə görə həbsə alınıblar. Buna şəxsən həbsxananı ziyarət etdikdən sonra əmin olan B.Şahtaxtinski qeyd olunan məhbusları təxirəsalmadan azadlığa buraxmaq, onlar barədə cinayət işlərini dayandırmaq qərarına gəlmişdi. Naxçıvan həbsxanasında müşahidə olunan vəziyyətin Ordubad, Şərur qəzalarında, habelə Vedibasar və Zəngibasarda da baş verə biləcəyini nəzərə alaraq, bu qərar başqa yerlərdə də tətbiq olundu.[206]

1920-ci ilin sonlarında Aleksandropol müqaviləsinin bağlanmasında iştirak etdikdən sonra Gürcüstan Respublikası ilə münasibətlərdə mövcud problemləri həll etmək üçün B.Şahtaxtinski Tiflisə ezamiyyətə göndərildi. Azərbaycan İnqilab Komitəsinin üzvü kimi o ən geniş səlahiyyətlərə malik idi. Onun bütün qərarları Azərbaycan İK adından verilmiş qərarlar kimi qəbul edilirdi. Azərbaycanın Gürcüstandakı nümayəndəsi İsrafilov bilavasitə onun tabeçiliyi altında fəaliyyət göstərirdi.

B.Şahtaxtinski Tiflisdə olarkən, 1921-ci ildə yanvarın 13-də Xalq Xarici İşlər naziri və Az.İK sədrinin müavini M.R.Hüseynovdan teleqram aldı. Teleqramda B.Şahtaxtinskidən nümayəndəliyin

işlərini başqa şəxsə təhvil vermək və İsrafilovla birgə Bakıya qayıtmaq xahiş olunurdu.

1921-ci ilin əvvəllərində Azərbaycan İnqilab Komitəsinin qərarı ilə B. Şahtaxtinski yeni vəzifəyə - Xalq Fəhlə-Kəndli Müfəttişi Komissarı vəzifəsinə təyin olundu. Ümumiyyətlə bu sahə Sovet hökuməti sistemində ən mühüm və məsuliyyətli sahələrdən biri idi. Bir qayda olaraq bu vəzifəyə ən bacarıqlı və təcrübəli, rəhbərliyin etimadını qazanmış insanlar təyin olunurdular. B.Şahtaxtinskinin ona tapşırılan vəzifələrin öhdəsindən bacarıqla gəlməsi N.Nərimanovun seçiminin müəyyənləşməsinə kömək etmişdir. B.Şahtaxtinski Xalq Fəhlə-Kəndli Müfəttişliyi Komissarı təyin edilməklə yanaşı Xalq Komissarları Soveti sədrinin (N.Nərimanovun) müavini təyin edilmişdi. N.Nərimanov olmadığı zaman B.Şahtaxtinski onu əvəz etmiş, hökumətin iclaslarını da məhz o aparmışdır. (Məsələn, 29 iyun, 26 iyul 1921-ci il tarixli iclasları)[207] B.Şahtaxtinski XFKM Komissarı təyin edildikdən sonra N.Nərimanov ona yüksək etimad göstərib bir sıra məsul dövlət tapşırıqlarını, o cümlədən müxtəlif idarə və təşkilatların fəaliyyətinin yoxlanılmasını tapşırmışdı. Məsələn, 1921-ci il noyabrın 19-da XKS sədri B.Şahtaxtinskiyə ən qısa müddətdə İqtisadi Şuranın fəaliyyətini yoxlamağı tapşırmışdı.[211] N.Nərimanov həmçinin Maliyyə Komissarlığının fəaliyyətinin yoxlanılması üçün M.B.Qasımov, T. Hüseynov və B.Şahtaxtinskindən ibarət komissiya yaradılması barədə sərəncam vermiş, komissiyaya rəhbərlik isə B.Şahtaxtinskiyə həvalə edilmişdi.[209]

Azərbaycanın iqtisadiyyatının əsasını təşkil edən neft sənayesində yaranmış vəziyyət bir neçə dəfə B.Şahtaxtinskinin rəhbərliyi ilə komisarlıqda müzakirə edilmiş, nəhayət neft sənayesinə nəzarət etmək üçün xüsusi Fəhlə Kəndli Müfəttişliyi yaradılması barədə Azərbaycan XKS-nin 14 dekabr 1921-ci ildə xüsusi dekreti çıxmışdı.[210]

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra da ermənilər əzəli Azərbaycan torpaqlarına iddialarından əl çəkməmiş, bu torpaqları ələ keçirmək üçün hətta bəzi addımlar da atmışdılar.

Ermənistan İnqilab Komitəsi Azərbaycanın Qarabağ bölgəsinə öz səlahiyyətli nümayəndəsini təyin etdikdən sonra bu məsələ Azərbaycan XKS-in 26 iyun 1921-ci il tarixli iclasında müzakirə edilmişdi. Qərara alınmışdır ki, Sovet Ermənistanının Dağlıq Qarabağ iddiaları ilə bağlı məsələlərə dair materiallarla tanış olmaq üçün komissiya yaradılsın. Komissiyanın tərkibinə B.Şahtaxtinski, Vəzirov və Əliyev daxil edilmişdilər. Komissiyaya göstərilən məsələ ilə əlaqədar XKS-ə geniş məruzə hazırlamaq tapşırılmışdı. İclasda S.K. Orconikidzeyə, Ermənistan İnqilab Komitəsinə və Ermənistanın Qarabağa səlahiyyətli nümayəndə təyin etdiyi Muravyana teleqram göndərilmiş və orada qeyd edilmişdi ki, onun Qarabağda səlahiyyətləri, bu məsələnin Azərbaycan XKS-də qəti həllinə qədər ləğv olunur.[211]

Yeni vəzifədə B.Şahtaxtinskinin diqqət yetirdiyi əsas məsələlərdən biri Naxçıvanın sosial-iqtisadi problemlərinin həlli idi. Azərbaycan XKS-nin 4 iyun 1921-ci il tarixli iclasında Naxçıvan ölkəsində

ərzaq cəhətdən böhranlı vəziyyət və hakimiyyət aparatının olmaması barədə məsələ müzakirə edilmiş, diyarda həyatı nizama salmaq və hakimiyyəti təşkil etmək üçün fövqəladə səlahiyyətlərə malik nümayəndə göndərilməsi, eləcə də Sovet hakimiyyətini möhkəmləndirmək üçün milyard yarım, ərzaq məsələsini yaxşılaşdırmaq üçün isə 20 min qızıl pul, eləcə də manufaktura malları, kerosin ayırmaq qərara alınmışdır.[212]

B.Şahtaxtinskinin imzası ilə getmiş Azərbaycan XKS İnformasiya şöbəsinin bülletenində (№ 20) Naxçıvan diyarının vəziyyətinə həsr edilmiş hissədə qeyd olunurdu ki, diyarda kəskin ərzaq böhranı mövcuddur. Bütün müəssisələrdə işlər dayanmışdır, çünki işçilər aprel ayından (bülleten iyunun 8-də buraxılmışdı - F.İ.) maaş və ərzaq almırlar. İnqilab Komitəsinin sədri dərhal Naxçıvana ərzaq komissiyası göndərməyi təklif edir. İnqilab Komitəsinin ərzaq və maliyyə yardımı göstərmək xahişinə qonşu sosialist respublikaları cavab verməyiblər. Diyarı xilas etmək üçün Diyar İnqilab Komitəsi özünün 27 may 1921-ci il tarixli iclasında XKS-ə duz mədənlərində işləri bərpa etməyi, sənaye işçiləri üçün xüsusi ərzaq və maliyyə fondu yaratmağı, Ermənistan, Gürcüstan və Azərbaycan İK-i ilə danışıqlara girərək duzu digər mallarla dəyişdirməyi tapşırdı. İki gündən sonra, iyunun 9-da XKS Əmənulla Qazıyevi Azərbaycan SSR-in Naxçıvan diyarında xüsusi nümayəndəsi təsdiq etdi.[213]

B.Şahtaxtinski Naxçıvanın sosial-iqtisadi problemlərinin həllində təkcə Azərbaycan İnqilab

Komitəsinin üzvü, xalq komissarı kimi deyil, həm də hökumətin Naxçıvan diyarında səlahiyyətli nümayəndəsi kimi də yaxından iştirak edirdi.

Məlum olduğu kimi, 1920-ci ilin dekabrın 15-də B.Şahtaxtinski Azərbaycan İK tərəfindən Naxçıvana göndərildikdən sonra bölgənin Ermənistan SSR tərəfindən ilhaq edilməsinin qarşısını almışdı.

1918-1920-ci illərdə olduğu kimi indi də B.Şahtaxtinski Naxçıvanın ən mürəkkəb və təxirəsalınmaz problemi qaçqınlar problemi ilə yaxından məşğul olmağa başladı.

Məlum olduğu kimi, hələ 1920-ci il sentyabrın 25-də Naxçıvanda qaçqınlara yardım üzrə Fövqəladə Komissiya yaradılmışdı. Komissiyada inqilab komitələrindən 1 nəfər, sosial-təminat, səhiyyə, kommunist özəklərindən, həmçinin Qızıl Ordu hissələrindən 1 nəfər daxil idi. Fövqəladə Komissiya İnqilab Komitəsinə tabe idi. Bununla yanaşı, Fövqəladə Komissiyaya müstəqil olaraq qaçqınların vəziyyətini yüngülləşdirmək üçün müəyyən etdiyi şeyləri əhalidən müsadirə etmək hüququ verilirdi.[214] Qaçqınlar və yoxsul kəndillər natura ilə alınan bütün vergilərdən azad edildilər.

Ermənistan sovet hökuməti qaçqınların öz doğma yurdlarına qayıtmalarına icazə vermirdi. Naxçıvana gələn qaçqınların sayı-hesabı yox idi. Onları yerləşdirmək mümkün deyildi. Bu barədə Ermənistan Daxili İşlər Komissarlığı ilə Naxçıvan Vilayət İcraiyyə Komitəsi arasında yazışmalar aparılsa da, heç bir nəticə vermədi.

Zəngibasar, Şərur, Dərələyəz, Şahtaxtıdan Cənubi Azərbaycana pənah aparan qaçqınların

vəziyyəti də xeyli ağır idi. Burada toplaşmış 45 mindən çox qaçqının əksəriyyəti aclıqdan və xəstəlikdən ölmüşdü.

Azərbaycan İnqilab Komitəsinin əhali arasında təbliğat aparmaq üçün Naxçıvana göndərdiyi nümayəndə heyəti 70 min qaçqının İranda, 400 min nəfərin isə Naxçıvan ətrafında havada qalmasını bildirir, onların öz yaşayış yerlərinə qaytarılmaları üçün təcili tədbirlərin götürülməsini xahiş edirdi. Yaranmış vəziyyətdən çıxmaq üçün Naxçıvan İK Təbrizdə Naxçıvanın ticarət nümayəndəliyini yaratmışdı. Lakin maliyyə çətinlikləri onun geniş fəaliyyət göstərməsinə imkan vermirdi.

1920-ci ilin payızında Maku sərdarı Irandan Naxçıvana taxıl daşınmasını qadağan etdikdən sonra vəziyyət xüsusilə faciəli hal almışdır. Naxçıvan qəzalarına geri qayıtmış qaçqınlar arasında aclıqdan və xəstəlikdən ölənlərin sayı minlərlə idi. Hətta Azərbaycan Inqilab Komitəsinə göndərilmiş məktubların birində göstərilmişdi ki, əgər Sovet hökuməti gələn məhsul ilinə qədər yardım göstərməzsə, Ordubaddan başlamış Zəngibasara, Vediyə qədər bütün əhali məhv ola bilər və gələcək uğurları ilə ilk növbədə aclığa qarşı mübarizədə əldə edəcəyimiz müvəffəqiyyətlərdən asılı olacaqdır.

1921-ci ilin yanvarında Naxçıvanın ağır vəziyyətini nəzərə alan AK(b)P MK-nın Bürosu yenidən B.Şahtaxtinskini HİŞ-nın mandatı ilə Naxçıvana komissar göndərməyi qərara aldı. Diyarın ictimai-siyasi vəziyyətinə yaxşı bələd olan B.Şahtaxtinski yenidən Naxçıvana gəlmiş, yerlərdə

bir daha xalqın yaşayış səviyyəsi ilə maraqlanmış və onu kökündən öyrənib araşdırdıqdan sonra 1921-ci il aprelin 19-da Azərbaycan İnqilab Komitəsinin iclasında «Naxçıvanın siyasi və iqtisadi vəziyyəti haqqında» məruzə etmişdi.

Məruzədə göstərilirdi ki, Naxçıvan, Ordubad və Şərur - Dərələyəz qəzalarında erməni quldurları tərəfindən azı 240 kənd xarabalığa çevrilmişdir. Bundan başqa Ermənistan SSR ərazisində qalmış Azərbaycan kəndləri əsl mənada fəlakətə məruz qalmışdır. Zəngibasarda 48, Vedidə 118, Dərələyəzdə 74 kəndin əhalisi qılıncdan keçirilmiş, evlərə od vurulub yandırılmışdı. Bu yerlərdən 500 min nəfərdən çox əhali öz yurdlarından qovulmuşdur. Onlar Azərbaycanın, Naxçıvanın və İranın şəhər və kəndlərində didərgin kimi dolaşmaqdadır. Təkcə Naxçıvanın üç qəzasında əhalinin 60-70 min baş mal-qarasını Andranikin quldur dəstələri sürüb aparmışdılar. Şərur qəzasında əhalinin kənd təsərrüfatı alətləri qarət olunmuş, yaşayış evləri, anbarlar, tövlələr yandırılmışdır. Aclıq, xəstəlik bütün diyarı bürümüşdür.

Məruzədə daşnakların hücumu nəticəsində Naxçıavanda yaranmış murəkkəb vəziyyətin geniş təsviri verilmiş, xüsusən qaçqınların dözülməz şəraitdə yaşadıqları, hər gün minlərlə insanın aclıqdan, xəstəlikdən öldüyü qeyd edilmişdi. Əhalini məhv olmaq təhlükəsindən xilas etmək üçün Sovet Rusiyasına müraciət edilərək İrandan taxıl, əhalinin məşğuliyyəti üçün isə barama toxumu, bostan toxumu almaq üçün qızıl valyuta ilə kömək göstərilməsi xahiş edilirdi.[215]

Bu məruzə əsasında Azərbaycan İnqilab Komitəsi, İrandan satın almaq yolu ilə Naxçıvan əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün pul vəsaiti ayırdı.

B.Şahtaxtinskinin bu məruzəsindən sonra Azərbaycan Inqilab Komitəsi və şəxsən onun sədri N.Nərimanov Naxçıvanı düşmüş olduğu ağır iqtisadi vəziyyətdən xilas etmək, onun əhalisinin çörəyə, ərzaq mallarına olan ehtiyaclarını qismən də olsa, ödəmək üçün daim yeni mənbələr axtarmış və bu barədə Azərbaycan SSR-in Moskvadakı nümayəndəliyi vasitəsilə RSFSR rəhbərliyinə vaxt-aşırı məlumatlar çatdırmışdı.

Məsələyə RK(b)P MK Siyasi Bürosu səviyyəsində baxılmış və G.Çiçerinin təklifi ilə Naxçıvan üçün Maku xanlığından ərzaq alınması haqqında qərar çıxarılmış və məsələni öyrənmək üçün yüksək səviyyədə komissiya yaradılması məhz bu ali məqsəd naminə edilmişdi. Lakin «məsələnin öyrənilməsi» iki ay yarımdan çox çəkmişdi.

1921-ci ilin aprelin 23-də Naxçıvan SSR Fövqəladə Komissarı vəzifəsinə Qafqaz cəbhəsi Hərbi Inqilab Şurası üzrə verilən əmrlə B.Şahtaxtinskinin təyin olunması bu işi sürətləndirmiş və ən nəhayət 1921-ci il iyunun 1-də Şahtaxtı stansiyasında Naxçıvan Inqilab Komitəsinin, Qızıl Ordunun Qafqaz cəbhəsi hərbi şurasının Naxçıvanda olan nümayəndəsinin və Maku xanı Murtuzqulu xan başda olmaqla Iran nümayəndələrinin iştirakı ilə müqavilə imzalanmışdı.[216]

1921-ci ilin iyununda B.Şahtaxtinski Xalq Fəhlə-Kəndli Müfəttişliyi Komissarı vəzifəsində saxlanılmaqla Naxçıvan İnqilab Komitəsinin sədri və Xalq Komissarlırı Sovetinin sədri təyin edildi. Eyni zamanda o həm də Türkiyə-Zaqafqaziya konfransında Azərbaycan nümayəndə heyətinin sədri idi. Bu zaman Azərbaycanın bu bölgəsində vəziyyət çox mürəkkəb olaraq qalmaqda idi. Bölgə ətrafında yaranmış gərgin geosiyasi şərait onun daxili siyasi və iqtisadi vətiyyətinə mənfi təsir göstərmiş, hakimiyyətsizlik, siyasi qüvvələr arasında inamsızlıq artmaqda idi.

O, ilk növbədə bölgədə yaranmış ərzaq böhranını aradan qaldırmaq üçün tədbirlər görmüş, İranla mübadilə yolu ilə ərzaq almaq üçün Azərbaycan hökuməti qarşısında Naxçıvanın ehtiyacları üçün qızıl və gümüş valyuta ayrılması məsələsini qoymuşdu.

11 oktyabr 1921-ci il tarixdə AKP Naxçıvan Ölkə Komitəsi Təşkilat və Siyasi Bürolarının birgə iclasında Naxçıvan XKS tərkibinə yenidən baxılmış, B.Şaxtaxtinski XKS-ə sədr seçilmişdi. Əslində bu fakt onun Qars konfransında iştirakı ilə əlaqələndirilməlidir. Çünki bununla o həmin konfransda rəsmi olaraq həm Azərbaycan SSR-i, həm də onun bir hissəsi kimi Naxçıvanı qanuni nümayəndə kimi təmsil etmək hüquqi qazanmışdı.[217]

Konfransdan qayıtdıqdan sonra B.Şahtaxtinski Naxçıvan hökumətində bir sıra dəyişikliklər aparmış, bəzi komissarlar, o cümlədən Xalq Təsərrüfat Şurasının sədri, XKS-in sədrinin müavinləri işləyən Nağdəliyev qardaşları, Fövqəladə Komissiyanın sədri

və Daxili İşlər Komissarı S.Süleymanov, Xalq Təsərrüfatı Şurasının üzvü M.Rəhimov, Səhiyyə Komissarı Abbasov vəzifələrindən azad edilmiş və partiyadan çıxarılmışdılar.[218]

Lakin sonralar bu hadisədən B.Şaxtaxtisnkini vurmaq üçün istifadə edildi.

B.Şahtaxtinski hər iki vəzifədə işləyərkən əsas qüvvəsini ilkin tədbir kimi yerlərdə torpaq komitələri, yoxsul komitələri və qaçqınlar komitələrinin yaradılmasına sərf etmişdir ki, bunlardan da yerli əhalini və qaçqın kəndliləri torpaq, çörək, toxum, kənd təsərrüfatı alətləri ilə, işlə təmin etmək tələb olunurdu. Xüsusilə, bu dövrdə Naxçıvan SSR-də qaçqınları yerləşdirmək məsələsi B.Şahtaxtinskinin qarşısında duran ən ciddi problem idi. Çünki hələ 1918-1920-ci illərdə Zəngəzur, Vedi, Sisyan və Ermənistanın digər bölgələrində azərbaycanlı kəndlər daşnaqlar tərəfindən dağıdılmış, əhalisi qılıncdan keçirilmiş, sağ qalanları isə öz doğma yurdlarından didərgin düşmüşdülər. Həmin illərdə Ermənistanda boş qalmış azərbaycanlı kəndlərində ermənilər, Naxçıvanda isə qismən boşalmış kəndlərdə azərbaycanlı qaçqınlar yerləşdirilmişdi. Lakin məsələ onda idi ki, sayca qat-qat çox olan azərbaycanlı qaçqınlar daha ağır vəziyyətdə yaşayırdılar. Görünür, elə bu səbəbdən də onlar daha çox ana yurdlarına qayıdıb yerləşməyi tələb edirdilər. Bu məsələ ətrafında uzun müddət Naxçıvan SSR ilə Ermənistan SSR, RSFSR və bu respublikalar ilə Təbriz bələdiyyə rəisi, Maku xanı, Culfa gömrük rəisi arasında yazışmalar getmişdir. Lakin çox təəssüf ki, Ittifaq Soveti Ermənistandan

olan 28 min nəfər azərbaycanlı qaçqının Naxçıvanda saxlanmasını qanunilәşdirmәklә bu mәsәlәdә açıqca qәrәzli mövqe tutmuşdu.[219]

1921-ci ilin quraqlıq kecməsi 1918-1920-ci illərdən yaranmiş vəziyyəti daha da kəskinləşdirmiş, Naxcıvanda yerli əhalinin və qacqınların vəziyyəti dözülməz hala düşmüşdü. Naxcivan özünün ağir vəziyyətdə olmasına baxmayaraq Irəvanda qalan azərbaycanlilara da yardım edirdi. Belə ki, Naxçivan Inqilab Komitəsinin 1921-cil 16 aprel tarixli qərarı ilə Naxcıvana ayrılmış paydan 500 pud toxumluq buğda Vedibasarda acınacaqlı vəziyyətdə yaşayan azərbaycanlılara göndərilmişdi.[220]

1922-ci il martın 28-də Bakı şəhərində Naxçıvanın daimi iqtisadi nümayəndəliyi açıldı.[221] Nümayəndəliyin açılmasında məqsəd Naxçıvana yardım etməkdən ibarət idi.

Naxçıvan SSR XKS-nin 1922-ci il aprelin 25-də keçirilən iclasında qaçqınlar məsələsi müzakirə edildi. B.Şahtaxtinskiyə tapşırıldı ki, bütün imkanlardan istifadə edərək qaçqınların yeməklərinin keyfiyyətini artırsın, gündəlik çörək normalarını, onların geyimlərini və tibbi yardım göstərilməsi işini yaxşılaşdırsın.[225]

Onu da qeyd edək ki, 1920-1921-ci illərdə qaçqınların ardı-arası kəsilmədən Naxçıvana axıb gəlməsi, onların sərgərdan kimi şəhər və kəndləri dolaşması, aclıq və işsizlik, möhtəkirlik, oğurluq, dövlət mülkiyyətini talamaq və sair cinayətkarlıq hallarının artması üçün əlverişli şərait yaratmışdı. Bu kimi neqativ hallarla mübarizə aparmaq məqsədilə

B.Şahtaxtinski 1921-ci il sentyabrın 25-də Naxçıvan Fövqəladə Komissiyası nəzdində oğrularla, möhtəkirlərlə, qaçaqmalçılarla mübarizə aparan yol şöbəsi təşkil etmişdi. Əvvəllər Arazdəyəndən Culfaya qədər səlahiyyət dairəsi olan bu təşkilatın fəaliyyətindən əldə edilmiş nəticələrdən sonralar «əksinqilabla mübarizədə» Naxçıvan SSR-in bütün idarə və müəssisələrində istifadə olunmuşdu.[223]

Görülmüş tədbirlərə baxmayaraq, həmin dövrdə Naxçıvanda bütün çətinlikləri aradan qaldırmaq üçün xarici dövlətlərin və beynəlxalq təşkilatların da gücündən istifadə edilmişdi. Məsələn, aclığa qarşı mübarizə aparan Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin xətti ilə ABŞ nümayəndəliyi Naxçıvan SSR-nin hər üç qəzasında pulsuz yemək məntəqələri və onlarca kəndlərdə yemək şöbələri açdırmışdı. 1921-ci ilin sentyabrından Naxçıvana Zaqafqaziya Diyar Partiya Komitəsinin qərarı ilə hər ay 10 min pud taxıl göndərilməsi ləng də olsa həyata keçirilirdi.[224]

RSFSR Xalq Komissarları Soveti 1921-ci il sentyabrın 20-də əhalini və qaçqınları aclıqdan, yoluxucu xəstəliklərdən xilas etmək və payız əkinini başa çatdırmaq üçün Naxçıvana 100 min pud buğda və bir vaqon səhiyyə avadanlığı, habelə dərman göndərilməsi haqqında qərar qəbul etmişdi. Eyni zamanda RSFSR-in Naxçıvandakı xarici ticarət komissarlığının müvəkkilliyinə göstəriş verilmişdi ki, Ermənistan və Gürcüstan Inqilab Komitələri ilə əlaqəyə girib duzu Naxçıvanın ehtiyacı olan mallarla

dəyişdirilməsini və ticarətini təşkil etsin.[225] Hətta Naxçıvan əhalisinə yardım təkcə dövlət xətti ilə olmamış, tanınmış xeyriyyəçilərimiz də bu işə qoşulmuşdular. Sovet hökumətinin qoyduğu məhdudiyyətlərə baxmayaraq xalqımızın insanpərvər oğlu, milyonçu Hacı Zeynalabdin Tağıyev qaçqınların ehtiyacları üçün Naxçıvana 5 min manat gümüş pul göndərmişdi.[226]

Lakin bu vaxt qaçqınlar problemi xeyli kəskinləşdi. Ermənistan SSR hökumətinin qəti şəkildə Naxçıvan respublikasında yaşayan Zəngəzur qaçqınlarını qəbul etməkdən imtinasını nəzərə alaraq, Naxçıvan SSR XKS 3 may 1922-ci il tarixli iclasında qərara aldı ki, həmin qaçqınlar Naxçıvan Respublıkasının boş kəndlərində məskunlaşdırılsınlar. Eyni zamanda, Naxçıvanda aclığı nəzərə alaraq, Xalq Daxili Işlər Komissarlığına tapşırıq verildi ki, respublikanın ərazisinə qaçqınların artıq buraxılmaması üçün lazımi tədbirlər görsün.[227]

1922-ci il iyulun 9-da Naxçıvan SSR və Ermənistan SSR-də olan qaçqınlar məsələsi RSFSR-in İttrifaq Sovetində müzakirə edildi. İttifaq Soveti qaçqınların Ermənistan SSR-dən Naxçıvana və Naxçıvan SSR-dən Ermənistana yerdəyişməsini qadağan edən birtərəfli qərar qəbul etdi. Bu qərar Ermənistandan olan 28 min nəfər azərbaycanlı qaçqının Naxçıvanda saxlanılmasını qanuniləşdirdi. Məhz bu qanun əsasında Naxçıvanda, o cümlədən Ordubad qəzasında olan qaçqınların öz doğma yurdlarına - Zəngəzur qəzasına qayıtmalarına icazə verilmədi.[228]

Naxçıvanda mühüm, məhsuldar işləri görməklə B.Şahtaxtinski ümumən Azərbaycan miqyasında siyasi nüfuzunu daha yüksəltmiş, diyarın özündə isə nüfuzunu artırmış oldu.

Göstərilən fakt və rəqəmlərdən göründüyü kimi, Naxçıvan SSR ərazisində 1918-1922-ci illərdə qaçqınların yerləşdirilməsi sayəsində, onların böyük bir hissəsinin torpaq sahəsi ilə təchiz olunub yerləşdirilməsində, əhalinin ərzaqla və s. təmin olunmasında B.Şahtaxtinskinin əvəzsiz xidmətləri vardır. Bütün bunlar isə sonrakı dövrdə Naxçıvanda dinc quruculuq işlərinə başlamağa və ilk növbədə dağıdılmış və bərbad hala salınmış kənd təsərrüfatında həyati əhəmiyyətli tədbirlər keçirməyə imkan vermişdir.

1922-ci ilin sonlarında B.Şahtaxtinski Naxçıvandan Bakıya qayıdaraq bir sıra vəzifələrdə çalışdı. Lakin bu vaxt onun Xalq Komissarları Sovetinin sədri N.Nərimanovla münasibətləri kəskinləşməyə başlamışdı.

B.Şahtaxtinskinin siyasi fəaliyyəti ilə bağlı mühüm məqamlardan biri də N.Nərimanovun RK(b)P MK-nə və İ.V.Stalinə, surətləri isə L.D.Trotskiyə və K.B.Radekə göndərdiyi «Ucqarlarda inqilabımızın tarixinə dair» adlı məşhur məktubunda o dövrdə Azərbaycanda siyasi rəhbərlikdə olan bir sıra şəxslərlə (S.K.Orconikidze, A.İ.Mikoyan, Sarkis (Danilyan), L.İ.Mirzoyan, S.M.Kirov, M.D.Hüseynov, Ə.H.Qarayev və b.) yanaşı onun haqqında da irəli sürülən ittihamlarla bağlıdır.

Məktub 1923-cü ilin iyununda yazılmış, sonralar, yəni həmin ilin dekabrın 23-də və 1924-cü il mayın 27-də N.Nərimanov bu məktuba iki sənəd də əlavə etmişdi.

Öz məktubunda N.Nərimanov bolşeviklərin Şərqdə, o cümlədən Azərbaycanda apardıqları siyasəti kəskin tənqid etmiş, milli siyasət, Azərbaycanda milli dövlət quruculuğu, «sol kommunistlərin» milli məsələlərdə əyintilərinə qarşı mübarizə məsələsi kimi çox vacib məsələlər haqqında öz fikirlərini bildirmişdi.

O zaman bu məktub böyük çaxnaşmaya səbəb olmuşdu. N.Nərimanov ürək ağrısı ilə Azərbaycanda partiya rəhbərliyi arasında bir nəfər də olsun azərbaycanlının olmamasından, Mikoyan, Sarkis, Mirzoyan, Kirov kimilərin xalqın başına min bir oyun açdıqlarından, Azərbaycanın, Bakının talan edilməsindən danışmış və hamısını ifşa etmiş, ali hakimiyyətdən (Mərkəzdən), ağıllı adamlardan bu məsələyə vicdanla yanaşmağı, vicdanı təmiz olmayanlardan qurtulmağı tələb etmişdi.

Ayrı-ayrı partiya xadimlərinə qiymət verərkən, N.Nərimanovun əsas məqsədi, «Azərbaycanda bu və ya digər rol oynamış şəxsiyyətləri gələcək nəsil üçün xarakterizə etmək idi: vaxt olacaq, tarix bizi cəzanın müqəssirlərini axtaracaq. Vaxt olacaq ki, Azərbaycan kəndlisi və fəhləsi belə sual qoyacaq: Kimdir müqəssir? Onda bu adamlara aydın olacaq ki, Hüseynovlar, Qarayevlər, Axundovlar (Ruhulla) öz şəxsi mənfəətləri üçün Azərbaycanı simasızlaşdırır və onun mənafeyini topdan və pərakəndə satırlar.[229]

Məruzəni oxuyan İ.V.Stalin dərhal N.Nərimanovu məzəmmət etmişdi ki, məruzədə şəxsiyyətlərə toxunmaq lazım deyildi.[230]

Məruzədə B.Şahtaxtinski barədə N.Nərimanov aşağıdakı ifadələri söyləmişdi: «Yeri gəlmişkən, mənim ətrafımdakılardan biri B.Şahtaxtinski idi. Mən onun oğurluğunun üstünü açdıqdan sonra birbaşa Serqonun aguşuna düşdü, yalnız ona görə ki, məndən xəbərçilik edirdi».[231]

Göründüyü kimi, N.Nərimanov B.Şahtaxtinskiyə həm oğurluq, həm də xəbərçilik kimi ağır ittihamlar irəli sürmüşdü. Əlbəttə, N.Nərimanov Azərbaycanın bəzi partiya rəhbərlərinin fəaliyyətinə qiymət verərkən ola bilər ki, subyektivliyə yol vermişdir.

Lakin başqaları haqqında fikrini konkret faktlarla təsdiq edən N. Nərimanov Behbud ağa Şahtaxtinski haqqında bunu etməmişdir. Eyni zamanda öz məktublarında tənqid etdiyi şəxslərin fəaliyyətinə dəfəlrlə qayıtsa da, B.Şahtaxtinski haqqında yalnız yuxarıdakı ittihamlarla (özü də şəxsi xarakterli ittihamlarla) çıxış etmiş və bu məsələyə təkrar qayıtmamışdır.

N.Nərimanovun B.Şahtaxtinskiyə bu cür münasibətini o vaxt Azərbaycanda siyasi rəhbərlər arasında mövcud olan münasibətlər kontekstindən kənarda təhlil etmək doğru olmazdı.

Azərbaycanda sovetləşmənin ilk günlərindən addımbaaddım üzə çıxan diktatorluq, müstəmləkəçilik meylləri daha da güclənmişdi. Bu S.Qrconikidzenin, Bakı partiya təşkilatına rəhbərlik edən erməni liderlərinin fəaliyyətində özünü xüsusilə

göstərirdi. N.Nərimanov özü Orconikidzenin düzgün olmayan hərəkətləri barədə RK(b)MK-ya yazdığı məktublarında qeyd etmişdi.

S.K.Orconikidze, A.İ.Mikoyan, İ.İ.Mirzoyan, Sarkis (Danilyan)və onların sapı özümüzdən olan baltaları - M.D.Hüseynov, Ə.H.Qarayev, R.Axundov Azərbaycanın müstəqilliyi əleyhinə çıxır, onun dərhal RSFSR-lə birləşməsini tələb edir, respublikanın müstəqilliyinin qorunub saxlanılmasına tərəfdar olan N.Nərimanovu və onun əqidə yoldaşlarını «millətçi təmayülcülükdə» günahlandırırdılar. Beləliklə, partiya təşkilatında fikir ayrılığı, rəhbər məsul işçilər arasında çəkişmələr başlandı. Azərbaycanda hakim Mərkəzin hansı siyasətini yeritmək prinsiplərinə münasibətdə qütbləşmə dərinləşir, hakimiyyət uğrunda mübarizə güclənirdi. Partiya üzvləri arasında bir-birini izləmək, təqib etmək, çuğulluq, intriqa sistemi yaranır və bəzən bu kəskin, açıq ixtilaflara çevrilirdi.[232]

Azərbaycanın müstəqilliyinin əleyhdarları olan bu «sol qrup» N.Nərimanovu təcrid etmək, onu siyasi səhnədən uzaqlaşdırmaq üçün bütün fitnəkar hərəkətlərə əl atır, onunla «ətrafındakılarının» (B.Şahtaxtinski heç şübhəsiz, N.Nərimanovun ən sadiq adamlarından idi) arasını vurmağa, B.Şahtaxtinski haqqında yalan məlumatlar ötürməklə sonuncunu N.Nərimanovun gözündən salmaq və beləliklə ondan uzaqlaşdırmaq istəyirdilər.

Xüsusən özünü Qafqazda Moskvanın canişini kimi aparan S.Orconikidze bu istiqamətdə çox ciddi «canfəşanlıq» edirdi.

Məqalə yazılandan dərhal sonra RK(b)P MK MTK-nin katibi Yaroslavskinin sədrliyi, üzvləri Şkiryatov və Petrovskidən ibarət MTK və MK-nin birgə komissiyası Bakıya gəlmişdi. Əvvəlcə onlar Moskvada N.Nərimanovla görüşmüş, bəzi şəxslərlə üzləşmə də aparılmış, indi də yerlərdə onun dediklərini yoxlamaq üçün Bakıya gəlmişdilər. Komissiya iyulun 9-12 burada bir sıra görüşlər keçirmişdi.[233]

S.G.Orconikidze iclaslardan birində B.Şahtaxtinski haqqında danışaraq, onu təriflməyə başlamışdı. Məqsədi isə onunla N.Nərimanovun arasını vurmaq idi: «Mən məcburam burada B.Şahtaxtinskidən bir qədər çox danışım. Bəziləri mənə irad tuturlar ki, mən onu çox müdafiə edirəm. Siz axı B.Şahtaxtinskinin N. Nərimanovla əlaqəsini kəsəndən sonra onun üstünə düşmüsünüz. Siz bilirsinizmi B.Şahtaxtinski kimdir, niyə biz onu bu qədər çox qiymətləndiririk? B. Şahtaxtinski bizimlə V.İ.Lenin arasında vasitəçimiz idi. Deməк lazımdır ki, bizim ona tapşırdıqlarımız partiya və dövlət vəzifələrini tamamilə yerinə yetirirdi. Amma indi o, N.Nərimanovun tapşırıqlarını yerinə yetirmir, buna görə onunla dalaşmaq lazım deyil... Biz yuxarıdan heç nə diktə etmirik, əgər bizim gördüyümüz işlər diktə ilə edilərsə, onda mən deməliyəm ki, N.Nərimanov çox böyük səhv edir, o partiya xəttindən uzaqlaşmağa başlayır, həm əxlaqi cəhətdən, həm də iş cəhətdən».[234]

Bu yolla Serqo N.Nərimanovun tərəfdarlarını ələ almağa çalışır və onun üstünə qaldırırdı. Əslində bu komissiyanın məqsədi elə N.Nərimanovu «vur-

maq» idi. Buna görə də onun məruzəsində irəli sürülən bütün ittihamlar rədd edilmişdi.

N.Nərimanovun B.Şahtaxtinskini oğurluqda ittiham etməsinə gəlincə isə bu məsələni müəyyənləşdirmək üçün səlahiyyətli komissiya yaradılmışdı. Komissyanın gəldiyi qənaətə görə əmlakın dağıdılması və ya oğurluq ittihamının heç bir əsası yox idi. B.Şahtaxtinskinin günahlandırıldığı qiymətli əşyaların verilməsi məsələsi isə N.Nərimanov tərəfindən sanksiyalaşdırılmışdır. B.Şahtaxtinskinin apardığı bütün məxfi yazışmalar və digər sənədlər isə RK(b) P MK-nın sərəncamında idi.

Bu barədə 1923-cü il martın 19-23-də Tiflisdə keçirilmiş Zaqafqaziya Kommunist Təşkilatlarının II qurultayında da məlumat verilmiş və məsələnin qapandığı elan edilmişdi.[235]

B.Şahtaxtinskinin N.Nərimanovun onun haqqındakı fikrinə münasibəti ilə bağlı əlimizdə konkret sənəd yoxdur. Lakin məsələnin ən ali partiya orqanları səviyyəsində müzakirə edilməsi onu göstərir ki, B.Şahtaxtinski Nərimanovun ittihamından xəbər tutduqdan sonra məsələnin yoxlanılması üçün yuxarı orqanlara müraciət etmişdi. Yalnız bir sənəddə, B.Şahtaxtinskinin mənzil məsələsi ilə bağlı 1923-cü il iyunun 27-də Zaqafqaziya Ölkə Komitəsinə, surəti RK(b) P MK-ə yazdığı məktubda onun əleyhinə «N.Nərimanov məruzəsinin ruhunda donoslar yazdığını» göstərmiş və qeyd etmişdi ki, «mən elə bilirdim bu işdə Şirvaninin (XKS-nin işlər müdiri - F.İ.) əli vardır, ancaq sonra bunun əksinə olduğuna inandım».[236] Buradan aydın olur ki, B.Şahtaxtisnki N.Nərimanovun onun haqqında

dediklərinin donos olduğunu bildirmişdi. Bu hadisədən sonra onunla N.Nərimanov arasında ixtilaflar yaranmışdı.

Görünür, N.Nərimanovla münasibətlərin pisləşməsi B.Şahtaxtinskini Bakıdan Tiflisə köçməyə vadar etmiş, burada o bir sıra məsul vəzifələrdə işləmişdir. 1923-cü il fevralın 15-də RK(b)P Zaqafqaziya Ölkə Komitəsinin iclasında o ZSFSR Maliyyə Komissarlığı kollegisiyasının üzvü seçilmişdi.[237]

Ömrünün sonlarına qədər isə o Zaqafqaziya Arbitraj Komissiyasının üzvü kimi fəaliyyət göstərmişdir.

## § 2. Behbud ağa Şahtaxtinskinin faciəvi taleyi

Behbud ağa Şahtaxtinskinin siyasi portretini onun kommunist partiyasına mənsub olmasından yan keçərək təsəvvür etmək mümkün deyil. O, sosialist inqilabları və «qırmızı hərəkatın» tüğyan elədiyi bir dövrün yetirməsi idi. Lakin bir çox inqilabçılar kimi Behbud Şahtaxtinski də inqilabçı həyata xas olan faciəli anlar, günlər, illər yaşadı. «Inqilablar öz övladlarını yeyir» məlum aforizmi onun misalında da inandırıcı təsdiqini tapdı. Məşhur Azərbaycan diplomatı, Sovet Azərbaycanının banilərindən biri, alovlu bolşevik Behbud ağa Şahtaxtinski Kommunist partiyasının, ümumiyyətlə Sovetlər ölkəsinin daxilində cərəyan edən amansız siyasi mübarizənin qurbanı kimi bu dünyanı tərk etdi.

B.Şahtaxtinskiyə qarşı təqiblər hələ 1920-ci ilin sonlarında o, Naxçıvanda olarkən Azərbaycan İnqilab Komitəsi Naxçıvanla bağlı məlum 1 dekabr 1920-ci il bəyanatına prinsipial münasibət bildirməsindən sonra başlamışdı. Məlum olduğu kimi, B.Şahtaxtinski həmin vaxt naxçıvanlılar qarşısında çıxış edərək Azərbaycan Sovet hökumətinin onları torpaqları ilə birgə Ermənistana satdığını və bunun qəti əleyhinə olduğunu bildirmiş, XI Qızıl Ordunun Naxçıvandakı fövqəladə və səlahiyyətli nümayəndəsi B.Vəlibəyovu vəzifəsindən azad edərək özü ilə Bakıya aparacağını bildirmiş və Naxçıvan əhalisinin istinad edə biləcəyi yeganə qüvvənin türk qoşunları olduğunu, onun ətrafında sıx birləşməyə çağırmışdı.[238]

B.Vəlibəyovun Naxçıvandakı sonrakı fəaliyyəti, atdığı addımlar B. Şaxtaxtisnkinin bu prinsipial mövqeyinin doğruluğunu tam təsdiq etdi. Əslində B.Vəlibəyovun fəaliyyəti Naxçıvanda vəziyyəti qarışdırmaq, əhalini türklərə qarşı qaldırmaq və bölgəni Ermənistana bağlamağa yönəlmişdi. Bu istiqamətdə o həm bolşevik Rusiyasından, həm də Ermənistanın yeni, sovet hökumətindən dəstək alırdı.[239] Bu fikri təsdiq edən mühüm sənəd B.Şahtaxtinskinin ARSPİHDA- dəki şəxsi fondundadır.

Bu unikal sənəd B.Vəlibəyovun Ermənistan KP MK, İnqilab Komitəsinə, surəti Azərbaycan İK və KP MK-ya, XI Qızıl Ordunun Hərbi-İnqilab Şurasına göndərdiyi məruzəsindən ibarətdir. Məruzədə Naxçıvanda Sovet hakimiyyəti qurulduqdan sonra bölgədə yaranmış vəziyyət, türklərin buradakı

fəaliyyəti qeyri-obyektiv və qərəzli şəkildə təsvir edilmiş, guya naxçıvanlıların Sovet Ermənistanın tərəfində olduğu bildirilmişdi. Azərbaycan İK-nin 2 dekabr tarixli bəyanatı və B.Şahtaxtinskinin mövqeyi ilə bağlı B.Vəlibəyov yazırdı: Hər şey yaxşı gedirdi. Qəflətən Azərbaycan İK üzvü, Xalq Ədliyyə Komissarı yol. B.Şahtaxtinski Naxçıvana gəldi. Onun ətrafında Sovet hakimiyyətindən incimişlər - mülkədarlar, tacirlər toplaşdı. Ondan (B.Şahtaxtinskidən - F.İ.) mən Naxçıvanla bağlı, onun Ermənistana verilməsi barədə Az.İK-in qəbul etdiyi akt haqqında məlumat aldım. Elə burada, camaatın qarşısında B.Şahtaxtinski ehtiyatsız söz işlətdi: «Azərbaycan sizi satıb. Əgər mən Bakıda olsaydım buna yol verməzdim». Bir saatdan sonra İnqilab Komitəsini 200 nəfərlik kütlə əhatəyə alaraq aktla bağlı izahat tələb etdi. Mən onları İnqilab tribunalının binasında topladım və izah etdim ki, bu akt Sovet Azərbaycanın düzgün addımıdır. O bununla daşnakların bütün milli hisslərinə arxadan zərbə vurmaq istəyir. Daşnaklar bununla öz gücsüzlüklərinə əmin oldular. Onların illərlə silah gücünə əldə edə bilmədiklərini, bu gün Sovet hakimiyyəti bircə qələmin ucuyla həll etdi, xalqın iradəsini ifadə edən Sovet Ermənistanı Naxçıvana muxtariyyat verilməsi haqqında ikinci akt qəbul edəcəkdir. (Kursiv bizimdir - F.İ.). Bu zaman B.Şahtaxtinski gələrək kütləyə müraciətlə aşağıdakıları söylədi: «Mən Azərbaycan İnqilab komitəsinin üzvü kimi yol. Vəlibəyovu buradan özümlə aparıram. İndi siz yalnız türklərə ümid edin, onlar sizin yeganə xilaskarınızdır, onlardan möhkəm yapışın».[240]

Bölgənin taleyi ilə bağlı bolşeviklərin planlarına qarşı yerli əhali kütləvi etirazla antisovet, silahlı çıxışlarla cavab verdi. Naxçıvan diyarının Fövqəladə Komissiyası bu hadisələri Sovet hakimiyyətinə qarşı yönəlmiş əksinqilabi sui-qəsd kimi qəbul edərək onun fəal iştirakçılarına qarşı cəza tədbirləri görülməsi üçün addımlar atmışdı.

Əsas ittihamlar isə əsasən B.Şahtaxtinskiyə qarşı yönəlmişdi. Onu izləmək üçün gizli xəfiyyələr təyin edilmiş, əleyhinə bir neçə nəfər şahidin ifadəsi alınmışdı. Lakin maraqlıdır ki, B.Şahtaxtinskiyə qarşı bu ifadələrdəki ittihamlar həm məzmun, həm də stilcə tam üst-üstə düşürdü. Bəzi ifadələr isə nöqtə-vergülünə qədər bir-birini təkrar edirdi. Bu isə onların hamısının bir adam - Naxçıvan FK-nın sədri Əliyev tərəfindən tərtib edildiyini göstərir.[241]

İşlə bağlı ifadə vermiş Şərur qəzasının büro rəisi F.Mahmudbəyov, həmin qəzanın partiya təşkilati sədri Ə.Eyvazov, Bənəniyar kənd sakini Qəmbəralı, Naxçıvan şəhər sakini Q.M.Əliyev, A.Kələntərov, Naxçıvan Ölkə İK-nin şöbə müdiri H.Məcidzadə, Naxçıvan rayonu Kommunist Partiyasının katibi S.Süleymanov, İnqilabi Hərbi Tribunalının katibi Ş.Kəngərlinski və başqaları B.Şaxtaxtinskinin Azərbaycanın Naxçıvanı Ermənistana verməsi barədə şayiələr yayması (yuxarda göstərildiyi kimi bu həqiqət idi - F.İ.), əhalini türkləri müdafiə etməyə çağırması və Sovet hakimiyyətinə qarşı qaldırması ilə bağlı ittiham irəli sürmüşdülər.

Bütün bu məlumatların əsas mənbəyinin B.Şahtaxtinski olduğunu əsas götürən Naxçıvan

Fövqəladə Komissiyası 1921-ci ilin yanvarın 13-də ona qarşı ittiham işi açmış, protokol tərtib etmişdi. B.Vəlibəyovun adı çəkilən məruzəsi də protokola əlavə edilmişdi.

Protokolda müxtəlif ifadələrə istinad edilərək qeyd edilirdi: Azərbaycan Respublikası Xalq Ədliyyə Komissarı B.Şahtaxtinskinin Naxçıvana gəldiyi gündən elə şayiələr yayılmağa başladı ki, Azərbaycan Inqilab Komitəsi Naxçıvan diyarına iddialarından Ermənistanın xeyrinə əl çəkdi. Axırıncı isə müqaviləyə görə Naxçıvanın Türkiyəyə keçməsinə razılıq verdi. Naxçıvan Türkiyə hakimiyyət orqanları tərəfindən idarə ediləcək.

Protokolda daha sonra deyilirdi: «Bu şayiələrin mənbəyini yoxlamaq üçün gizli xəbərçiləri təyin etdim. Bütün bu şayiələr B.Şahtaxtinskidən və onun draqomanı Hacı Mehdi Bağırovdan gəlir. Bağırov deyir ki, Sovet Rusiyası Türkiyə ilə əlaqələrin pozulmaması üçün tək Naxçıvan diyarından əl çəkmək istəmir. Qızıl Ordu Polşa cəbhəsində məğlubiyyətlərə düçar olur, Türkiyə isə son vaxtlar xeyli güclənib və onun dəstəyi olmadan Sovet Rusiyası Şərqdə öz ideyalarını həyata keçirə bilməz. Yayılan şayiələrin böhtançı xarakterini nəzərə alaraq mən Bağırovu həbs etdim. Lakin xəbərim olmadan o Xalq Ədliyyə Komissarı B.Şahtaxtinskinin göstərişi ilə Naxçıvan Diyarı Inqilab Komitəsinin sədri Əsgərov tərəfindən azad edilib Irana göndərildi. Mən yalnız material toplamaq məcburiyyətində qaldım. Əhaliyə müraciətlərində B.Şahtaxtinski dəfələrlə

təkrar edirdi ki, Azərbaycan Inqilab Komitəsi sizləri Ermənistana satıb, nicatınız Türkiyədir, ondan bərk yapışın, əks təqdirdə yox olaçaqsınız, nə mən, nə də yoldaş B.Vəlibəyov sizi xilas edə bilməyəcəyik. Mən deyə bilərəm ki, Naxçıvan diyarında əks-inqilabı şayiələri yoldaş B.Şahtaxtinski yayırdı».[242]

29 yanvar 1921-ci ildə Naxçıvan diyarı Fövqəladə Komissiyasının sədri Əliyev Xalq Ədliyyə Komissarı B.Şahtaxtinskinin işinin başa çatdığını və onun XI Qızıl Ordunun xüsusi şöbəsinə təqdim olunması barədə qərar cıxardı.[243] Düzdür, iş başa çatdırılmasa da, sonralar B.Şahtaxtinskiyə qarşı kompaniyada istifadə edilmişdir.

Göründüyü kimi, Behbud ağa Şahtaxtinskiyə qarşı «millətçilik işi» açıldı. Lakin tədricən bu işə sırf kriminal don geydirilməyə başlandı. B.Şahtaxtinskinin nüfuzunun artmasından ehtiyatlanan siyasi rəqibləri onu siyasi səhnədən silmək məqsədilə istənilən vasitəyə əl atırdılar.

Vətəndaş Baqi Cəfərovun ərizəsindən: 1917-ci il Fevral çevrilişindən əvvəl B.Şahtaxtinski məşhur qoçu Dadaş Məmmədovun və onun dəstəsinin vəkili olub, keçmiş quruluşun məhkəmə qurumlarında onların işini qaydaya salırdı. Sovet quruluşu bərqərar edildikdən sonra B.Şahtaxtinski Məmmədovu öz himayəsi altına götürdü, Sovet hakimiyyətindən gizlətdi. 1917-ci ildə B.Şahtaxtinskinin mənzilində kart oyunları keçirilirdi, burada tanınmış qumarbazlar yığışırdı. B.Şahtaxtinski oyundan faizlər alırdı.[244]

Sonradan məlum oldu ki, B.Cəfərov bu ifadəni B.Şahtaxtinski ilə şəxsi ədavəti olan Bakı milisinin rəisi R.Hüseynovun təsiri altında yazmışdır.

Guya, B.Şahtaxtinskinin mənəvi siması bu cür açıqlamalarla ifşa edilirdi. Üstəlik, 1921-ci ilin sonlarında Kommunist partiyasının qocaman üzvü olan B.Şahtaxtinskiyə qarşı partiyadaxili intizamın pozulması, yəni heç bir partiya özəyində uçotda olmaması, partiya biletinin olmaması ilə bağlı ittihamlar irəli sürüldü.

Özünə qarşı sərt kampaniyanın aparılmasını müşahidə edən B.Şahtaxtinski cavab addımları atmağa məcbur olurdu. O, partiyanın təmizlənməsi üzrə şəhər komissiyasına 17 dekabr 1921-ci il tarixli məktubunda ona qarşı irəli sürülmüş ittihamla bağlı yazırdı ki, mən Naxçıvan Respublikasının sədri vəzifəsində çalışır, yoldaş N.Nərimanovu əvəz edir və Tehrana getmək tapşırığı almışam. Hal-hazırda iki mühüm yoxlama aparıram - Ali Iqtisadi Şurası və Maliyyə Nazirliyinin. Mən çox yorulmuşam. Buna görə də yerli özəklərə baş çəkmək məsələsi mənasını itirir. Partiya özü mənim üçün elə bir şərait yaradıb ki, mən hansısa partiya işini həyata keçirmək imkanından məhrumam. Başlıcası isə aşağıdakılara ciddi diqqət yetirməyi xahiş edirəm: bizim siyasətçilərimizin hamısı üçün sirr deyil ki, Şərqdə mənim hər bir sözümlə hesablaşır və hər bir addımımı müşahidə edirlər. Bu gün bitərəflərin məhkəməsi qarşısında dursam və düşmənlərimizin qurduğu alçaq böhtanlara qulaq assam, bu partiyamız üçün böyük ziyan olar.[245]

Yaranmış vəziyyəti ciddi şəkildə təhlil edərək B.Şahtaxtinski qeyd edirdi: «Məni ya səs-küysüz partiya sıralarından çıxarmaq, ya da ki, onun sıralarında saxlamaq lazımdır. Mən qalmaqalla təcrid ediləɾəmsə, onda biz mənim tərəfimdən Moskvada və Türkiyədə imzalanmış və hələ ki, onlara kəskin ehtiyac duyduğumuz beynəlxalq aktların ətrafında da qalmaqal yaratmış olarıq... Mənə qarşı təhqirlərdən sonra məni partiyada saxlamaq isə diplomatik sahədə malik olduğum və bizim ümumi işimizə böyük xeyir verən nüfuzumun aşağı düşməsi deməkdir. Buna görə də mən komissiyadan xahiş edirəm ki, məni ciddi surətdə yalnız partiya yoldaşlarımın yanında sorğu-suala tutsun, çünki burada mənə elə suallar verilə bilər ki, mən onlara diplomatik sirlərə toxunmadan cavab verə bilmərəm...».[246]

Lakin Azərbaycanın partiya təftiş komissiyaları B.Şahtaxtinskinin partiyadan kənarlaşdırılması barədə qərar çıxardılar və bunu onunla əsaslandırdılar ki, o, partiyanın fəaliyyətində iştirak etməyib və onun partiya bileti yoxdur. Ona bildirilmişdi ki, yenidən partiyaya yalnız ümumi əsaslarla daxil ola bilər. O bu qərarı ədalətsiz hesab edərək 1922-ci il yanvarın 4-də Zaqafqaziya Diyar Təftiş komissiyasına ərizə ilə müraciət etməli oldu. Ərizədə həyatının və siyasi fəaliyyətinin əsas məqamlarını xatırladan B.Şahtaxtinski 1917-ci ildə partiyaya daxil olduğunu, 1918-ci il boyu isə «Hümmət» təşkilatının sədri olduğunu göstərmiş və qeyd etmişdi ki, mənim partiya stajım barədə mübahisə ola bilməz, əks

təqdirdə Bakıda 1918-ci ildə baş verən bütün hadisələrlə bağlı mübahisə açmaq lazım gələrdi.[247]

Sonra isə o göstərirdi ki, Naxçıvan diyarından Bakıya gəldikdən sonra mən sovet işindən azad olmağımı və mənə partiya işinin həvalə olunmasını tələb etdim. Cünki hesab edirdim ki, iki il ərzində yoldaşlarımdan geri qalmışam. Yoldaş A.İ.Mikoyan stajıma, 1918-ci ildən ədliyyəyə faktiki rəhbərlik etdiyimə və Icraiyyə Komitəsi üzvlərinin xalq komissarları olmasının məqsədəuyğunluğuna istinad edərək xahişimi rədd etdi. Onun fikri yekdilliklə qəbul olundu; Azərbaycana gəlişimdən doqquz gün sonra məni AKP-nin səlahiyyətli nümayəndəsi kimi Moskvaya, III Internasionalın ikinci qurultayına göndərdilər[248]; Moskvadan gəldikdən səkkiz gün sonra mən ASSR-in səlahiyyətli nümayəndəsi kimi Türkiyəyə göndərildim; Türkiyədən qayıtdıqdan on gün sonra mən Moskvaya, rus-türk konfransına göndərildim. Burada mənə məsuliyyətli bir vəzifə həvalə edildi, mən də onun öhdəsindən müvəffəqiyyətlə gələ bildim; Moskvadan qayıtdıqdan sonra mən Bakıda iki aydan artıq qaldım və vaxtdan istifadə edərək anket vərəqləri təqdim etdim. Lakin partiya biletini almaqdan qabaq mən Qarsa, Zaqafqaziya respublikalarının Türkiyə ilə konfransına getməli oldum[249]; Türkiyədən qayıtdıqdan sonra, mən partitada 1917-ci ildən üzv olduğum və Xalq Komissarları Sovetinin kommunist özəyinə daxil edildiyim barədə vəsiqə aldım. Diyar Komitəsi hesab edirdi ki, mən partiyanın iradəsini həyata keçirirdim

və məhz buna görə vaxtında partiya biletini almaq, hansısa kommunist özəyinə yazılmaq, yenidən qeydiyyatdan keçmək imkanından məhrum idim.

Müraciətin sonunda B.Şahtaxtinski göstərirdi: «1917-ci ildən bəri mən öz vəzifəmi yerinə yetirirəm, partiyanın hökmü ilə son iki ildə qatarlarda yaşayıram, indi isə məni partiyadan kənar hesab edirlər və ümumi əsaslarla yenidən partıyaya daxil olmağı təklif edirlər. Buna isə heç bir inqilabçı razı ola bilməz, çünki razılıq həmin inqilabçıda hansısa inqilabçı hisslərin olmadığına dəlalət edərdi. Mənim ərizəmə cavab olaraq yoldaş S.K.Orconikidze gülümsədi və ərizəmi sadəlövh adlandıraraq qeyd etdi ki, bu cür müddəalar sənə aid edilə bilməz». Bütün bunları nəzərə alaraq B.Şahtaxtinski Diyar Komissiyasından Azərbaycan komissiyaları tərəfindən buraxılmış səhvləri düzəltməyi və onu 1917-ci ildən AKP üzvlüyündə təsdiq etməyi xahiş edirdi.[250]

Lakin B.Şahtaxtinskini nüfuzdan salmaq kampaniyası heç də dayanmadı. Bir-birinin ardınca ona qarşı qərəzli ittihamlar, böhtanlar, donoslar yazılır, onu ən nalayiq hərəkətlərdə günahlandırırdılar.

1922-ci il noyabrın 1-də Qasım Camalbəyov (Azərbaycan Parlamentinin keçmiş üzvü, sosialist) Azərbaycan KP MK nəzdində Təftiş Komissiyasına B.Şahtaxtinski barədə məktubla müraciət etdi. Q.Camalbəyov 1920-ci ildə Azərbaycan İK-in RSFSR-ə göndərdiyi və B.Şahtaxtinskinin başçılıq etdiyi missiyanın üzvü idi. Məktubda o, B.Şahtaxtinskinin Moskva səfəri zamanı nalayiq

hərəkətlər etdiyini iddia etmiş, aralarındakı şəxsi söhbətləri özünə münasib formada təqdim etmişdi. Q.Camalbəyovun adından göndərilmiş arayışda qeyd edilirdi: «1920-ci ildə Azərbaycan Inqilab Komitəsi RSFSR-ə B.Şahtaxtinskinin başçılıq etdiyi missiyanı göndərdi. Onun tərkibində həmçinin mən və Xalq Torpaq Komissarlığından Sergey Stepanov idik. Yolda və Moskvada B.Şahtaxtinski özünü şərəfsiz və despotik aparırdı. Qurban bayramı axşamı bizdə fırıldaqçı Ənvər Paşa başda olmaqla türklər qonaq idilər. Mən açıq, inqilabçı və kommunist kimi, Ənvər Paşanın qardaşı Nuru Paşanın 1918-ci ildə Azərbaycandakı fəaliyyəti barədə fikrimi bildirdim, bu da B.Şahtaxtinskini qəzəbləndirdi, o məni RSFSR FK-na vermək istədi. Mən tələb etdim ki, o məni partiya məhkəməsinə təqdim etsin, lakin B.Şahtaxtinski söz yaymağa başladı ki, guya mən Moskvada möhtəkirliklə məşğul olmuşam. Inanıram ki, AKP MK Nəzarət Təftiş Komissiyası adımı təmizə çıxaracaq».[251]

Həmin məktubda Q.Camalbəyov B.Şahtaxtinskini həmçinin Naxçıvanın aclıq çəkən əhalisinə Azərbaycan hökuməti tərəfindən buraxılmış vəsaitləri mənimsəməkdə də ittiham etmişdi.

9 noyabr 1922-ci ildə AKP MK Nəzarət-Təftiş Komissiyasına Q.Camalbəyov adından göndərilmiş növbəti dörd səhifəlik arayışda qeyd edilirdi: B.Şahtaxtinski bütün malları mənimsəyirdi, diplomatik missiyaların Moskvaya, Qarsa, Naxçıvana səyahətlərində möhtəkirliklə məşğul olurdu.[252]

Arayış məktubda B.Şahtaxtinski ilə bağlı ən kiçik detalları belə yaddan çıxarmayan Q.Camalbəyov onu əxlaqsızlıqda, qohumbazlıqda (Moskva səfərində B.Şahtaxtinskini bacısı Fatma xanım müşaiyət edirdi - F.İ.) ittiham edərək, işin araşdırılmasını tələb etmişdi.[253]

Q.Camalbəyovun ittihamları bununla bitməmiş, hətta B.Şahtaxtinskinin ölümündən sonra da davam etmişdir. O, 1929-cu ildə Zaqafqaziya Ölkə Partiya Təşkilatı nəzdində Partiya Tarixi İnstitutunun sədri Nazaryana «Naxçıvan ölkəsində gizli partiya işinin yaranması tarixi» adlı 21 səhifəlik arayış təqdim etmişdi. Naxçıvandakı siyasi fəaliyyətini hədsiz şişirdən Q.Camalbəyov B.Şahtaxtinskini Naxçıvanda qocaman kommunistləri təqib etməkdə, çarizmlə mübarizə aparmış bütün köhnə partiyaçıları 1921-ci ildə partiyadan təmizləməkdə günahlandırmışdı. Lakin onun ən böyük ittihamı ondan ibarət idi ki, guya B.Şahtaxtinski Azərbaycan İK Naxçıvanın səfalət çəkən əhalisi üçün Maku xanlığından əkinlik taxıl alınması üçün ayrılmış 30000 qızıl pulun 90%-i mənimsəmişdi.[254]

Lakin maraqlıdır ki, sonralar Q.Camalbəyovun özünü daha ağır cinayətlərdə — «Hümmət» təşkilatının tarixini saxtalaşdırmaqda, gürcü menşeviklərinə satılmaqda, yalançılıqda, sənədləri saxtalaşdırmaqda və ən nəhayət rüşvətxorluqda və iri məbləğdə dövlət vəsaitlərini mənimsəməkdə ittiham etmişlər.[258]

B.Şahtaxtinskiyə qarşı yönəlmiş ən ciddi ittihamlardan biri onun guya xarici səfərlər zamanı dövlət vəsaitlərini, ləl-cəvahiratları mənimsəməsi ilə

bağlı ittiham idi. Sonralar ciddi yoxlamalar zamanı bu ittihamların hamısının saxta olduğu müəyyənləşmişdi. B.Şahtaxtinski müxtəlif səfərlər və ezamiyyətlər üçün ona buraxılmış bütün vəsaitlər və qiymətli əşyalar barədə hesabatlar və sənədlər təqdim etmişdi.[256] Məsələn FKM-nə Qars konfransında iştirak etdiyi zaman xərclənmiş pul vəsaitlərinin hesabatında son qəpiyə qədər bütün xərclər sadalanmışdı.[257] 1922-ci ilin aprel ayında Azərbaycan SSR XKS-in sədrinin müavini Belousovun tapşırığı ilə B.Şahtaxtinski Qars konfransı zamanı xərclədiyi vəsaitlərin təftişi aparılmış və məlum olmuşdur ki, bu vəsaitlərdən çox qənaətlə istifadə edilmiş, B.Şahtaxtinski hətta sabun, şəkər və s. üçün xərclədiyi pulların miqdarını da göstərmişdi.[258]

Görünür B.Şahtaxtinskinin bədxahları bu tipli şaiyələri yaymaqla, donoslar yazmaqla onu nüfuzdan salmaq məqsədi güdürdülər. Məhz bu məqsədlə də belə yalan məlumatlar N.Nərimanova, S.M.Kirova, mərkəzə ötürülürdü.

Bu cür ittihamlara post milis nəfəri ilə bağlı əhvalat da əlavə olundu. Həmin əhvalat böyük qalmaqala səbəb oldu.

15 may 1922-ci il tarixli AKP Mərkəzi Nəzarət Komissiyasının iclasında Naxçıvan Diyarının Xalq Komissarları Şurasının sədri vəzifəsində çalışarkən Dəmiryolu post milisionerinin qeyri-düzgün məhkəməyə verilməsində, xidməti vəzifədən sui-istifadə edilməsində ittiham olunan B.Şahtaxtinskinin işinə baxıldı. B.Şahtaxtinskinin xidməti vəzifəsindən sui-istifadə edilməsi müəyyən edilmiş hesab olundu.

Törədilmiş hərəkətə görə B.Şahtaxtinskiyə ciddi töhmət verildi və gələcəkdə belə halların təkrar olunmaması barədə xəbərdarlıq edildi.[259]

Ittihamlara qarşı cavab verməyə çalışan B.Şahtaxtinskinin 26 iyun 1922-ci ildə Zaqafqaziya Diyar Komitəsinə göndərdiyi məktubunda deyilirdi: AKP Nəzarət Komissiyası mənə ciddi töhmət çıxardıqdan əvvəl ittihamla bağlı məni dindirməli idi. Ittihamın özü ilə bağlı demək istəyirəm ki, mən heç vaxt milisıoneri məhkəməyə verməmişəm və ona görə də heç vaxt vəzifəmdən sui-istifadə etməmişəm. Mənim günahım ondan ibarətdir ki, mən yollar komissarı yol. Bağırova məni təhqir etmiş milisionerlə əlaqədar şikayətlə müraciət etmiş və onun məsuliyyətə cəlb edilməsini xahiş etmişəm. Keçən ilin dekabrında mən Bakı vağzalına gəldim ki, Tiflisə, Zaqafqaziya-Iran konfransına yollanım. Milisioner məni perrona buraxmadı. Mən mandatlarımı göstərdim ki, Xalq Komissarı və konfransa səlahiyyətli nümayəndəyəm və buraxılışı göstərdim. Milisioner isə bütün bu kağızları düz üzümə çırpdı. Onun bu hərəkərinə mən heç cür reaksiya vermədim, çünki mənim hər bir qanuni çıxışımın indi təqdim olunan əhvalata gətirib çıxaracağını başa düşürdüm. Mən qırağa keçdim, bir neçə dəqiqədən sonra bir möhtəkirin vasitəsilə hənim o milisionerin gözləri qarşısında perrona çıxdım. Nümayəndə heyətinin katibi Lavrov və FKM Xalq Komissarının müavini Belousov post milısionerini vaqona çağırdılar və o, ümumi şəkildə mənim sözümü təsdiq etdi. Bağırova

məktubda mən təhqir edildiyimə görə milisionerin məsuliyyətə cəlb olunmasını xahiş etmişəm. Beləliklə, FKM Xalq Komissarı, ASSR Xalq Komissarlığı sədrinin müavini, Naxçıvanın Xalq Komissarları Şurasının sədri olduğum vaxtda mən, məni təhqir etmiş milisionerə qarşı hec bir tədbir görməyib, yalnız müvafiq vəzifə sahibinə şikayətlə müraciət etdim. Nəzarət Komissiyasının tam əsası var idi ki, mənə zəifliyimə görə ciddi töhmət versin. Lakin onun heç bir əsası yox idi ki, məni xidməti vəzifəmdən sui-istifadə etməkdə ittiham etsin. Bütün bunları nəzərə alaraq, mən Zaqafqaziya diyar komitəsindən xahiş edirəm ki, izahatımı lazım olan yerə göndərsin və bununla bağlı olaraq mənim barəmdə qərarı dəyişdirsin.[260]

Lakin B.Şahtaxtinskinin sözləri Zaqafqaziya qurumlarını qane etmədi. 26 iyun 1923-cü ildə Zaqafqaziya Diyar Nəzarət Komissiyasının iclasında B. Şahtaxtinskinin işi müzakirə olundu və AKP MK-nın qərarı təsdiq edildi.[261]

Azərbaycan Fövqəladə Komissiyası Dəmiryolu şöbəsinin rəisi Marşev AFK Kollegiyasına yazmışdı ki, son vaxtlar partiya və sovet təşkilatlarının məsuliyyətli işçiləri tərəfindən qeyri-düzgün, qayda-qanunu pozan hərəkətlər tez-tez baş verir. Misal üçün o, B.Şahtaxtinskinin hərəkətini göstərmişdi. «O, perrona buraxılmadığına görə milisioneri məhkəməyə verib, hərçənd ki, milisioner haqlı idi, çünki o 20 sentyabr 1920-ci il tarixli XKŞ-nin dekretinə uyğun olaraq hərəkət etmişdi. Həmin dekretin 3-cü bəndinə

görə perrona buraxılışa yalnız gediş biletinin təqdimatından sonra icazə verilir, lakin bu edilməmişdi».[262]

12 oktyabr 1922-ci il tarixli AKP Mərkəzi Nəzarət Komissiyasının iclasında B.Şahtaxtinskinin işi yenidən müzakirə edilmiş, qərara alınmışdır ki, AKP Mərkəzi Nəzarət Komissiyasının 15 may 1922-ci il tarixli qərarı düzgün hesab edilərək qüvvədə saxlanılsın. RKP Zaqafqaziya Diyarı Nəzarət Komissiyasının sorğusuna görə iş RKP Zaqafqaziya Diyar Komitəsinə göndərilsin.[263]

Təbii ki, belə hadisələr B.Şahtaxtinskini xeyli məyus edirdi. Bunlara əlavə olaraq o, ağır məişət problemlərilə də üzləşmişdi.

1923-cü ildə S.K.Orconikidze, S.M.Kirov və İ.İ.Mirzoyana məktubunda B.Şahtaxtinski yazırdı ki, səkkiz ay əvvəl mən mənzil barədə xahiş etdim, çünki Moskvadan qayıtdıqdan sonra ailəmi küçədə tapdım. Bir dul müsəlman qadını mənzilini mənə kirayəyə verdi. Mən Tiflisə getdim, iki aydan sonra mənzil problemini həll etmək üçün Bakıya qayıtdım. Yol. Musabəyov mənə ümid verdi ki, tezliklə ailəm mənzillə təmin ediləcək. Lakin beş ay keçdi, ailəm isə hələ ki, mənzilsizdir. Ev sahibi mənzilin boşaldılmasını tələb edir. Tiflisə getməliyəm, ancaq ailəmi küşədə qoya bilmərəm...[264]

Mənzil məsələsi ilə bağlı Kommunal Təsərrüfat idarəsinə müraciət edən B.Şahtaxtinskiyə onunla şəxsi ixtilafda olmuş Ağa Axundovun mənzilindən 3 otaq ayrılsa da, XKS sədrinin müavini

Həmid Sultanovun göstərişi və Bakı Milisinin rəisi Rəhim Hüseynovun iştirakı ilə onun ailəsi həmin otaqlardan çıxarılmışdı. B.Şahtaxtinskinin S.M.Kirova müraciəti də bir fayda verməmişdi. Bu hadisədən hədsiz hiddətlənən B.Şahtaxtinski 1923-cü il iyunun 15-də S.M.Kirova məktub yazmağa məcbur olmuşdu. Məktubda deyilirdi: «Son iki il ərzində mənə qarşı çoxlu əməllər həyata keçirilmişdir, lakin R.Hüseynov tərəfindən sonuncu əməliyyat çox kobud və çirkin həyata keçirilmişdir (onun mənzildən çıxarılması - F.İ.). Bu yüz dəfə ədalətsizdir, hansı məqsədlər və mülahizələr naminəsə insanın üzünə tüpürürlər. Mahiyyətcə, Azərbaycan hakimiyyəti 8 aylıq süründürməçilik və təhqirlərdən sonra mənə verdiyi 3 otaqdan heç bir xəbərdarlıq edilmədən və tərəfimdən müqavimət olmadan ailəmi milislərin əliylə küçəyə atdı. Mən cəmiyyətin gözündən salındığım andan mexaniki olaraq özümü partiyadan çıxmış hesab edirəm. Ona görə də bu gün sadə formallığa əməl edərək rəsmi surətdə partiyadan getdiyimi elan edir və MK-yə öz partiya biletimi qaytarıram».[265]

Lakin görünür, B.Şahtaxtinski atdığı emosional addımdan təəssüflənmiş, yenidən S.M.Kirova müraciət edərək partiya biletini qaytarmağı xahiş etmişdi.[266] 488842 nömrəli partiya bileti ona 8 oktyabr 1923-cü il tarixdə qaytarılmışdı.[267] Yeri gəlmişkən, ən yüksək vəzifələr tutmasına baxmayaraq adi mənzili olmayan, ailəsi ilə vaqonlarda yaşamağa məcbur olan bir insanı külli miqdarda vəsait mənimsəməkdə ittiham etmək heç bir məntiqə sığmırdı.

B.Şahtaxtinskiyə qarşı təqib mexanizminin işə buraxılmasını daha bir fakt təsdiq edir.

RKP Zaqafqaziya Diyar Komitəsi Rəyasət heyətinin 15 fevral 1923-cü il qərarı ilə B.Şahtaxtinski Zaqafqaziya Xalq Maliyyə Komissarlığının Kollegiyasına üzv seçildi.[268]

1923-cü ilin avqustunda RKP Zaqafqaziya Diyar Komitəsinin (ZDK) Rəyasət heyəti Ankarada SSRI Səlahiyyətli nümayəndəliyində Zaqafqaziya işləri üzrə müşavirin təyin edilməsi məsələsini müzakirə etdi. S.M.Kirovun təklifini nəzərə alaraq ZDK bu vəzifəyə B.Şahtaxtinskini təyin etdi.[269]

Lakin ZDK Rəyasət heyətinin 12 sentyabr 1923-cü il tarixli iclasında ZDK-nın Ankaradakı SSRI Səlahiyyətli nümayəndəliyinə azərbaycanlıların daxil edilməsinin zəruriliyi ilə yanaşı, B.Şahtaxtinskinin ora göndərilməməsi haqqında qərar çıxarıldı.[270] Lakin bu azmış kimi ona qarşı cinayət işi açıldı.

AK(b)P Nəzarət Komissiyası 25 sentyabr 1923-cü ildə vəzifə cinayətlərində ittiham olunan Azərbaycan SSR-in 1-ci missiyasının keçmiş sədri B.Şahtaxtinskinin işini müzakirə edərək onun heç bir günahı olmadığını nəzərə alaraq qərara aldı ki, «işlə bağlı istintaq aparmaq mümkün olmadığı üçün iş arxivə göndərilsin».[271]

Behbud ağa Şahtaxtinskinin ölümü ilə bağlı «Заря Востока» qəzetinin 31 may 1924-cü il tarixli nömrəsində «Behbud Şahtaxtinskinin ölümü» adlı bir yazıda deyilirdi: «Dünən, gündüz saat 3-də Kərpic dalanda, ev № 21 ünvanında öz mənzilində

B.Şahtaxtinski özünü odlu silahla vurmuşdur. Yol. Şahtaxtinski günorta evə gəldikdən sonra otağına girib qapısını bağlamış və saat 3-də qonşular 4 atəş səsi eşitmişlər. Onlar qapını açıb içəri girdikdə onun çarpayıda yarımçılpaq halda əlində naqan yıxılmış vəziyyətdə görmüşlər. Bütün yataq qana bulaşmışdı. Dörd güllə ilə başına atəş açılmasına baxmayaraq, o hələ sağ olub. B.Şahtaxtinski dərhal mərkəzi xəstəxanaya çatdırılıb, bir müddətdən sonra keçinib».[272]

Bu yazı belə bir sual doğurur ki, bütün şüurlu həyatını Azərbaycanın daxili və xarici siyasəti ilə bağlayan, «Hümmət» təşkilatının sədrliyindən Azərbaycan Respublikası Xalq Ədliyyə Komissarı, Xalq Fəhlə-Kəndli Müfəttişliyi Komissarı və Xalq Komissarları Soveti sədrinin müavini vəzifəsinədək yüksələn, Naxçıvan SSR Fövqəladə Komissarı və Naxçıvan SSR Xalq Komissarları Sovetinin sədri kimi mühüm vəzifələrdə işləyən, dövlətçilik siyasətində uğurlu və mürəkkəb yol keçən, Moskva (1920, sentyabr) və Qars (1921, oktyabr) müqavilələrini imzalayan, Moskva (1921, mart) müqaviləsində Azərbaycanı təmsil edən, Gürcüstanda fəaliyyət göstərən Zaqafqaziya Ali Arbitraj Komissiyasının üzvü[273], mahir diplomat Behbud ağa Şahtaxtinski 30 may 1924-cü ildə Tiflisdə yaşadığı mənzildə nə üçün özünü öldürmüşdür.

Onu da qeyd edək ki, Behbud ağa Şahtaxtinskini şəxsən tanıyanlar, onunla təmasda olan yaşlı nəslin nümayəndələri, xüsusilə qohum və

əqrabaları, ən çox isə doğulduğu Naxçıvan Muxtar Respublikası indiki Kərgərli rayonu Şahtaxtı kəndinin sakinləri ilə apardığımız söhbətlərdən B.Şahtaxtinskinin ölümü ilə əlaqədar ziddiyyətli fikirlər ortaya çıxmışdır: O nə üçün özünə qəsd etmişdir? Onun intihar etməsinin səbəbi nə ola bilər? Bu suallara cavab tapmaq üçün ilk növbədə B.Şahtaxtinskinin şəxsi ailə həyatı ilə bağlı bəzi məqamlara aydınlıq gətirmək lazımdır.

B.Şahtaxtinski 1922-ci ilin axırlarında Bakıda Ayna Əhmədbəyova adlı diş həkimi ilə evlənmiş və cəmi 6 ay yarım birgə yaşadıqdan sonra ailə dağılmışdır.[274] Bununla əlaqədar B.Şahtaxtinskinin «Бакинский рабочий» qəzetinin 137/865 №-li sayında «Кто разрушает устои мусульманской жизни» («Müsəlman həyatının əsaslarını kim dağıdır») başlıqlı məqaləsi dərc olunmuşdur. Məqalədə B.Şahtaxtinski öz kecmiş arvadı və bacanağı ilə bağlı bəzi ittihamlar irəli sürmüşdü. Məqalə dərc olunduqdan qısa müddət sonra B.Şahtaxtinskinin keçmiş həyat yoldaşı Ayna Əhmədbəyovanın 25 iyun 1923-cü il tarixdə Azərbaycan KP MK-nın məsul işçisi M.C.Bağırova[275], 14 iyul 1923-cü il tarixdə Bakı Icraiyyə Komitəsinin Işlər Şöbəsinə[276], 16 iyul 1923-cü il tarixdə Azərbaycan KP MK-nə[277], 18 iyul 1923-cü il tarixdə «Azçeka»ya[278] və həmin ilin yay ayında «Бакинский рабочий» qəzetinin redaktoru Çaçinə[279] şikayət məktubları və ərizələri ünvanlanır. Məktubların və ərizələrin ümumi məğzi budur ki, Ayna

Əhmədbəyova iddia edir ki, «həyat yoldaşımdan ayrıldıqdan sonra o məni yenidən onunla birgə yaşamağa sövq edir. Mən də bundan imtina edirəm. Bunun müqabilində o məni qəzetdə ifşaedici materiallarla şantaj edir. Şantajın əsasını isə 1915-1917-ci illərdə yazılan və mənə ünvanlanan şəxsi məktublar təşkil edir. O cümlədən o məni hələ nişanlı olarkən bağışladığı brilyant, qızıl, gümüş əşyaları geri almaqla hədələyir». Daha sonra isə Ayna Əhmədbəyova «zinət əşyalarının B.Şahtaxtinski tərəfindən oğurluq mal olduğunu» iddia edirdi.

Məsələnin daha ciddi xarakter aldığını görən B.Şahtaxtinski «Бакинский рабочий» qəzetinin redaktoru Çaçinə yazdığı məktubda[280] göstərir ki, «qəzetin 137-ci nömrəsində «Кто разрушает устои мусульманской жизни» adlı məqaləmi çap etdirmişəm. Indi isə mənim məqaləmin əsaslandığı bütün materialları[281] redaksiyaya göndərirəm ki, bu Sizi inandırsın ki, həmin məsələyə laqeyd yanaşmaq olmaz. Məndən asılı olmayan səbəblər üzündən mən bu işlə bundan sonra məşğul ola bilmərəm. Buna görə də hər şeyi redaksiyanın öz ixtiyarına buraxıram».

Həmin materiallardan aydın olur ki, B.Şahtaxtinskinin keçmiş həyat yoldaşı Ayna Əhmədbəyova əxlaqsızlıq yolu tutmuş və bacısının həyat yoldaşı ilə qeyri-qanuni olaraq bir yerdə yaşamışdır. Hətta bacısı qızı və xalasının da bu çirkin əməllərindən xəbəri olmuşdur. Həmin qız da onların bu əməlindən B.Şahtaxtinskiyə məlumat vermişdir. Eyni zamanda Ayna xanımın bacısı B. Şahtaxtinskiyə

əri tərəfindən Aynaya yazılmış bir neçə məktub vermişdir ki, həmin məktublarda da bacısının tutduğu əməlləri təsdiq edən çoxlu faktlar vardır. Ayna xanımın bacısı bu məktubları B.Şahtaxtinskiyə verəndə bir məqsəd güdmüşdü: «Mən öz uşaqlarımın atasını və böyük doğma bacımı rüsvay edə bilmərəm və bunu bacarmaram. Eyni zamanda hiss edirəm ki, mənim həyatım bu yaramazların əlindən təhlükədədir. Qızımı isə biabırçılıq gözləyir. Sizə yalvarıram, əgər nə isə edə bilsəniz, elə edin ki, mən kənarda qalım. Yoxsa, bu əhvalatdan xəbərdar olan ərimin qohumları məni məhv edərlər»[282]

Görünür, şəxsi həyatı ilə bağlı problemlər B.Şahtaxtinskini çox narahat etmiş və onun sonrakı həyatı üçün həlledici amil olmuşdur. Istisna etmək olmaz ki, qısa müddət ərzində onun tutduğu mühüm dövlət əhəmiyyətli vəzifələrdən Zaqafqaziya Ali Arbitraj Komissiyasının üzvünədək endirilməsində yuxarıda bəhs edilmiş məqamlarla yanaşı, keçmiş həyat yoldaşının şikayət məktub və ərizələrinin də rolu olmuş və B.Şahtaxtinski haqqında ali hakimiyyət və inzibati orqanlarda mənfi rəy yaratmışdır. Bütün bunlar isə B.Şahtaxtinskini sarsıtmış, o sağlamlığını itirmiş və psixoloji sarsıntı keçirmiş, daha dözə bilməyib özünü qətlə yetirmişdir. O dövrün inzibati-amirlik sisteminin qanunlarını da nəzərə alsaq bu ehtimalın həqiqətə yaxın olduğuna inanmaq mümkündür.

«Заря Востока» qəzetinin 3 iyun 1924-cü il tarixli 592 №-li sayında D.Rəsulzadənin imzası ilə

verilmiş «Behbud Şahtaxtinski» adlı nekroloqda yazılmışdır: «... Bir sıra çatışmazlıqlar, yorulmaz gərgin fəaliyyət onun sağlamlığına xətər yetirmişdir. Behbud Şahtaxtinski müəyyən müddətə fəal işdən uzaqlaşmağa məcbur edilmişdir. Ola bilsin ki, sağalmaq və yenidən işə qayıtmaq imkanına malik olan ümidlərini itirdiyindən, Şahtaxtinski özünə qəsd etmişdir. Çox güman ki, heç kəs heç kimə bu sərt və kommunistə layiq olmayan, seçilmiş bu yolu başqasına rəva bilsin. Təsəvvür etmək çətindir ki, zəruri inqilab yolunda kifayət qədər bərkimiş və təcrübə toplamış bir insan ani ümidsizlik halında belə bir addım atmış olsun... Yoldaş Şahtaxtinskinin həyatdan gedişi Azərbaycanın və Zaqafqaziyanın fəhlə-kəndli kütlələri tərəfindən böyük, əvəzolunmaz bir itki kimi qeyd ediləcək... Yoldaş Şahtaxtinskinin keçmiş fəaliyyəti o qədər xidmətlərlə doludur ki, onun adı həmişə Zaqafqaziya zəhmətkeşlərinin yaddaşında qalacaq..».

Bəlkə də, B.Şahtaxtinskinin şəxsi qüruru imkan verməyib, onun haqqında deyilən «qara ləkələri» qəbul edə bilsin! Cavab vermək çətindir. Yəqin ki, yaxın gələcəkdə aparılan tədqiqatlar bu barədə öz sözünü deyəcək.

B.Şahtaxtinski ölümündən sonra da bəzi bolşevik dairələrini narahat edirdi. Ona qarşı yersiz ittihamlar irəli sürülməkdə idi. 1929-cu il avqustun 13-də təqibə məruz qalmış Hacı Novruzov açıqlama verdi. O, qeyd etdi ki, 1920-ci ilin avqustunda Ə.A.Qarayev tərəfindən RSFSR-ə qırmızı əsgərlərin,

hərbi mütəxəssislərin Azərbaycana gətirilməsi üçün səlahiyyətli nümayəndə kimi göndərilmişdi. Moskvada o, Inqilabi Hərbi Şurasına azərbaycanlı hərbçilərin Azərbaycana göndərilməsi barədə xahişnamə ilə müraciət etdi. Xahişnaməyə müsbət cavab gəldi və Inqilabi Hərbi Şura sədrinin müavini Siyanski müvafiq əmr verdi. Bu vaxt Moskvada ASSR-in fövqəladə səlahiyyətli nümayəndəsi Behbud Şahtaxtinski idi. O, Azərbaycana göndərilməyə hazırlaşan hərbi mütəxəssisləin siyahısı ilə tanış olub hiddətləndi ki, onların içində çoxlu erməni və rus vardır və dedi: «Azərbaycanda bunlarsız da çoxlu erməni və rus var». Hamı bilirdi ki, Şahtaxtinski millətçidir. O, mənə xahişnaməni geri götürməyi və ümumiyyətlə, Bakıya hərbi mütəxəssislərin göndərilməsi istiqamətində fəaliyyəti dayandırmağı təklif etdi. B.Şahtaxtinskinin ASSR hökumətinin səlahiyyətli nümayəndəsi olduğundan mənim onun əmrinə tabe olmaq və Bakıya qayıtmaqdan başqa çıxış yolum yox idi.[283]

Xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: «Bəli, o vaxt o insanlar çox milli qürurlu insanlar olublar. Indi bəziləri onların hamısının kommunist, bolşevik kimi, necə deyərlər, üzərindən qara xətt çəkirlər. Bu, ədalətsizlikdir. Mən buna həmişə etiraz etmişəm, bu gün də etiraz edirəm. Hansı partiyaya, hansı siyasi qüvvəyə mənsubiyyətindən asılı olmayaraq kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar

bizim tarixımizdə həmişə hörmətlə yada salınmalıdırlar və tariximizə daxil olmalıdırlar».[284]

# NƏTICƏ

Beləliklə, Behbud ağa Şahtaxtinskinin ictimai-siyasi, diplomatik, publisist fəaliyyətinin nəzərdən keçirilməsi aşağıdakı ümumiləşdirmələri aparmağa, elmi nəticələri üzə çıxarmağa imkan verir.

B.Şahtaxtinski siyasi, ictimai, diplomatik fəaliyyətini bilavasitə Azərbaycanın milli maraqlarının təmin edilməsinə yönəltmiş, xalqımızın gələcək taleyinə ciddi təsir göstərmişdir.

Onun ictimai-siyasi baxışları, dünyagörüşü XX əsrin əvvəllərində Azərbaycanda cərəyan edən sosial-iqtisadi, siyasi, mədəni proseslərin bilavasitə təsiri altında formalaşmağa başlamışdır.

XX əsrin əvvəllərində Bakıda keçirilən siyasi tətillər və nümayişlər, inqilabi çıxışlar bir inqilabçı demokrat kimi B.Şahtaxtinskini çox düşündürmüş və onun proletar sinfi şüurunun, siyasi tərbiyəsinin, döyüş təcrübəsinin və inqilabi fəallığının artmasına güclü təsir etməklə sonrakı inqilabi fəaliyyətində böyük rol oynamışdı.

Siyasi proseslərdə fəal iştirak B.Şahtaxtinskini o dövrün ən populyar siyasi nəzəriyyəsi olan sosial-demokratiya cərəyanına qoşulmasına gətirib çıxarmış və ömrünün sonlarına qədər bu ideyalara sadiq qalmış, Azərbaycanda onların həyata keçməsi üçün var qüvvəsi ilə çalışmışdır.

Azərbaycan xalqının xoşbəxtliyini sosial-demokratiyada görən B.Şahtaxtinski bu hərəkatın müsəlman fəhlələri arasında iş aparan təşkilatı -

«Hümmət»də və eyni adlı qəzetlə siyasi və publisistik fəaliyyətə başlayır.

Birinci rus inqilabının məğlubiyyətindən sonra B.Şahtaxtinski yeni fəaliyyət sferasında — siyasi və ictimai publisistikada özünü sünamağa başlayır və az keçmədən bu sahədə böyük uğurlar qazanır. Onun müxtəlif mətbuat orqanlarında — «Baraban», «Закафказйе», «Nicat», «Каспий», «Азербайджан», «Kommunist», «Бакинский рабочий» və s.-də işıq üzü görmüş çoxsaylı məqalə və çıxışlarında xalqın və dövrün ən aktual məsələlərinə, problemlərinə toxunulurdu.

Onun siyasi-publisist məqalələri Şərq xalqlarının azadlıq mübarizəsi ilə müəyyən qədər səsləşir. Yaxın Şərqdə inqilabi-azadlıq fikir və ideyalarının müdafiəçisi olan B.Şahtaxtinski siyasi-publisist fəaliyyətində olduğu kimi, inqılabi fəaliyyətində də həmin ideyalara sadiq qalmışdır. B.Şahtaxtinski publisist yazılarında rus burjua şovinistlərini də kəskin tənqid atəşinə tutmuş, Azərbaycan da daxil olmaqla bütün müsəlman Şərqinə qarşı yönəlmiş iftira və böhtanları ifşa edərək onlara tövsiyə edirdi ki, ruslaşdırma siyasətinin təbliğinə deyil, böyük rus xalqı ilə dünya xalqlarının, o cümlədən müsəlman, Şərq xalqlarının əbədi dostluğuna çalışmaq lazımdır.

B.Şahtaxtinski məqalələrində xüsusi yeri xalqın maariflənməsi, cəhalətdən çıxması mövzusuna ayırır və bu mənada dini təhsil və ruhanilərin cəmiyyətdə rolu barədə fikirləri ilə bölüşür. Xalqın maarifləndirilməsi kontekstində B.Şahtaxtinskinin

qadınların azad edilməsi mövzusundakı fikirləri də böyük maraq doğurur.

Uzun müddət müsəlman sosial-demokrat «Hümmət» təşkilatının fəal üzvlərindən olan və «bütün cahan füqərayi kasibəsi, birləşin!» şüarı ilə eyni adlı qəzetin çap edilməsində iştirak edən B.Şahtaxtinski xalqın siyasi-milli şüurunun, vətənpərvərlik hissinin inkişaf etdirilməsindən və xalqın özünü dərk etməsinin yollarından və vasitələrindən bəhs edərkən N.Nərimanovun «Bir millət özünü tanımayınca, hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır» proqramını öz fəaliyyətinin əsas istiqaməti kimi qəbul etmişdir. B.Şahtaxtinskinin publisistik fəaliyyəti geniş olub və daha çox siyasi və mənəvi problemlərin təhlilinə və çıxış yollarına yönəldilmişdi.

